**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Jurnal 1970-ci ildən nəşr olunur.**

**2017, № 2 (219)**

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

**(elmi-metodik jurnal)**

**2**

**2017**

## REDAKSİYA HEYƏTİ

**Baş redaktor: prof.Y.Ş.Kərimov**

| | |
|---|---|
| Aydın Əhmədov | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəbəqədər və ümumi təhsil şöbəsinin müdiri;* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyinin məktəbəqədər təhsil sektorunun müdiri;* |
| **Faiq Şahbazlı** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun direktor müavini;* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun baş elmi məsləhətçisi, pedaqoji elmlər doktoru, professor;* |
| **Ramiz Əliyev** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor ;* |
| **Asəf Zamanov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işlər üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor ;* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Slavyan Universitetinin rektoru, filologiya elmləri doktoru, professor ;* |
| **Vaqif Əmiraslanov** | *Bakı Sosial-Pedaqoji Kollecinin direktoru, tarix üzrə fəlsəfə doktoru;* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Müəllimlər İnstitutunun ibtidai təhsilin metodikası kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, professor ;* |
| **Azadxan Adıgözəlov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, pedaqoji elmlər doktoru, professor ;* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent;* |
| **Zemfira Əsədova** | *Bakı şəhəri, Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri;* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini;* |
| **Zemfira Ağayeva** | *Bakı şəhəri, Nərimanov rayonu, 69 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi;* |
| **Bibixanım İbadova** (məsul katib) | *Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun ibtidai təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru.* |



Yığılmağa verilmiş 05.02.2017. Çapa imzalanmış 26.05.2017.
Kağız formatı 60x84 1/8. Şərti çap vərəqi 9.0.
Şifariş № 09. Tiraj 1000. Qiyməti 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: AZ 1010. Bakı, Zərifə Əliyeva küçəsi, 96.
Tel. mob. (051) 623-01-15.

«RS Poliqraf» MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı, A.Məmmədov küçəsi, 113.

# MÜNDƏRİCAT

## *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*


1. **Şahbazlı F., Abbasov A.** İbtidai təhsilin fədaisi ... 4
2. **Məmmədova E.** "Azərbaycan məktəbi" jurnalının ən dayanıqlı əlavəsi: "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsi ... 8
3. **Kərimov Y.** "Kaspi" Təhsil Şirkətinin məharətli rəhbəri ... 14
4. **Əşrəfov R.** Təhsilimizdəki problemlər: nəzəri əsaslandırma və müəllim–şagird münasibətləri pedaqoji aspektdə ... 17
5. **Baloğlanova G.** İbtidai siniflərdə qiymətləndirmənin tətbiqi ... 22


## *MƏKTƏBƏQƏDƏR TƏHSİL*


6. **Kərimov V.** Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində islam dəyərlərindən istifadə ... 25
7. **Məcidli N.** Məktəbəqədər müəssisədə nitq inkişafı üçün mühitin yaradılması ... 28
8. **Həsənzadə G.** Məktəbəqədər müəssisədə ekskursiyalar zamanı fəal təlimin təşkili ... 31


## *FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ*


9. **Səlimova A.** İbtidai sinif şagirdlərinin asudə vaxtlarının səmərəli təşkili yolları ... 34
10. **Şərifova G.** Oxu dərslərində ədəbi tələffüz vərdişlərinin aşılanması yolları ... 38
11. **Mehdiyeva Ü.** İbtidai siniflərdə şagirdlərə ingilis dilinin öyrədilməsinin psixolinqvistik əsasları ... 41
12. **Nəcəfova N.** İbtidai siniflərdə lüğət üzrə iş ... 46
13. **Abbasova S., Həsənli N.** Azərbaycan dili dərsliklərində nitqin sinonim və antonimlərlə zənginləşdirilməsi Imkanları ... 50


## *PSİXOLOGİYA VƏ DEFEKTOLOGİYA*


14. **Bəylərov E.** İstedadlı uşaqların müəyyənləşdirilməsinin prinsipləri və metodları haqqında ... 54
15. **Abdullayeva A.** Autizm sindromlu kiçikyaşlı məktəblilərin valideynlərinin qarşılaşdıqları problemlər ... 60


## *TƏRBİYƏ MƏSƏLƏLƏRİ*


16. **Abdinova S.** Şagirdlərdə vətənə məhəbbət hissinin tərbiyəsi ... `64
17. **Əliyeva M.** Azərbaycan Milli Ordusu ... 66
18. **İsayeva N.** Əyləncəli – didaktik oyunlar ... 67
19. **Hacızadə S.** Nəsirəddin Tusinin əsərlərində tərbiyə məsələləri ... 70


## *YENİ NƏŞRLƏR*


20. **Məmmədova K.** Akademik Hüseyn Əhmədov–90 ... 72

## İBTİDAİ TƏHSİLİN FƏDAİSİ

**Faiq Şahbazlı,**
Azərbaycan Respublikası Təhsil İnstitutunun
Elmi-Pedaqoji Mərkəzinin direktoru,
filologiya üzrə fəlsəfə doktoru, dosent;

**Akif Abbasov,**
Azərbaycan Respublikası Təhsil İnstitutunun
elmi katibi, pedaqogika üzrə
elmlər doktoru, professor



Pedaqoji elmlər doktoru, professor, Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü, respublikanın Əməkdar müəllimi, Prezident təqaüdçüsü, Şöhrət ordenli Yəhya Şəfi oğlu Kərimovun anadan olmasının 90, elmi-pedaqoji fəaliyyətinin 75 ili tamam olur.

Yəhya Kərimov 1927-ci il aprel ayının 5-də, alimlər məskəni olan Qax rayonunun İlisu kəndində anadan olmuş, orada boya-başa çatmışdır.

Qax orta məktəbində təhsilini davam etdirə-etdirə VII sinifdə pioner baş dəstə rəhbəri kimi əmək fəaliyyətinə başlamış, IX sinifdə oxuya-oxuya rayon komsomol komitəsində şöbə müdiri vəzifəsində işləmişdir. 1945-ci ildə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Şəkidə açılmış kursunu bitirib, II sinif müəllimi kimi fəaliyyət göstərmiş, V-VII siniflərdə coğrafiya, IX sinifdə darvinizm əsaslarından dərs demişdir.

1946-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olan Y.Ş.Kərimov 1950-ci ildə təhsilini başa vuraraq, Quba Müəllimlər İnstitutuna baş müəllim təyin edilmiş, Qazax və Şəki şəhərlərindəki Müəllimlər İnstitutlarında Azərbaycan dili, pedaqogika, Şəki Müəllimlər İnstitutu ilə yanaşı, həm də pedaqoji texnikumda pedaqogika tarixi, psixologiya və məntiq fənlərindən dərs demiş, özünü bacarıqlı bir pedaqoq kimi təsdiq etmişdir.

Yəhya Kərimov 1955-ci ildən taleyini Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu ilə (hazırda Azərbaycan Respublikasının Təhsil İnstitutu) bağlamışdır. O, institutun aspiranturasında təhsil almış, kiçik elmi işçi, ibtidai təlim şöbəsinin müdiri vəzifəsində işləmiş, 1976-cı ildən elmi işlər üzrə direktor müavini, 1984–1987-ci illərdə Azərbaycan ETPEİ-nin direktoru, sonra 2015-ci ilədək yenə direktor müavini vəzifəsində çalışmışdır. Hazırda institutun baş elmi məsləhətçisidir.

Yəhya müəllimin 1962-ci ildə "İbtidai sinif şagirdlərinin nitqindəki şivə xüsusiyyətləri və onların aradan qaldırılması yolları" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası üzrə müdafiə edilən ilk namizədlik dissertasiyası idi. Gənc alim həmin ildən etibarən ibtidai təhsilin elmi-nəzəri problemlərini daha sistemli və məqsədyönlü şəkildə araşdırmışdır.

O, 1975-ci ildə "İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları" mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək pedaqoji elmlər doktoru elmi dərəcəsi almışdır.

Uzun illər respublikamızda maarif naziri olmuş akademik Mehdi Mehdizadə Yəhya Kərimovu "ibtidai təhsilin fədaisi" adlandırırdı. Bu, heç də təsadüfi deyildi. Azərbaycanda ibtidai təlimin elmi əsaslar üzrə qurulması və inkişafı Yəhya müəllimin adı ilə bağlıdır. O, uzun illər ibtidai məktəbdə təlim və tərbiyə işlərinin optimallaşdırılması və təkmilləşdirilməsi istiqamətində səmərəli fəaliyyət göstərmiş, praktikadan nəzəriyyəyə, nəzəriyyədən praktikaya aparan uzun yolun yolçusu olmuşdur. Yəhya müəllim bütün şüurlu həyatını böyüməkdə olan nəslin təlim və tərbiyəsinə həsr etmiş, minlərlə müəllimin zəkasını nurlandırmışdır. O, ləyaqətli vətəndaş mövqeyi nümayiş etdirərək, Azərbaycan dilinin təmizliyi, saflığı keşiyində dayanmışdır.

Professor Y.Ş. Kərimov respublikamızda savad təliminin nəzəri və praktik məsələlərini tədqiqata cəlb edən, onun sistemini işləyib hazırlayan mütəxəssis kimi tanınır.

Professor Y.Ş.Kərimov ölkəmizdə təhsil sahəsində aparılan kütləvi eksperimental tədqiqatların qabaqcıllarından olmuşdur.Onun təşəbbüsü ilə və rəhbərliyi altında 1964–1965-ci illərdə 20 şəhər və kənd məktəbində üçillik təlimlə əlaqədar eksperiment qoyulmuş, proqram və dərsliklər, onlara metodik rəhbərliklər hazırlanmış, 1969–1970-ci tədris ilində kütləvi şəkildə üçillik təlimə keçilmişdir.

1972-ci ildə altıyaşlıların məktəbəqədər tərbiyə müəssisələrində və ailədə məktəbə hazırlanmaları üzrə eksperimental tədqiqatlara başlanıb. Yəhya müəllim həmin tədqiqatların rəhbərlərindən biri olub. Nəhayət, 1977–1992-ci ildən 7 yaşdan başlanan üçillik təlim sistemi dayandırılmış və təlimə 6 yaşdan başlanmışdır.

Yeni sistemin həm proqramları, həm də dərslikləri professor Y.Ş.Kərimovun rəhbərliyi və iştirakı ilə hazırlanıb. Beşgünlük tədris həftəsinə keçilməsi (1980–1984-cü illər), beşyaşlıların təlimə cəlb edilməsi sahəsində eksperimental tədqiqatlara da Yəhya müəllim rəhbərlik etmişdir.

Yəhya müəllim respublikamızın şəhər, rayon və kənd məktəblərini qarış-qarış gəzmiş, irəli sürdüyü nəzəri ideyaların tətbiqinə nail olmuşdur. Elə bir məktəb yoxdur ki, orada təhsil müəssisəsi rəhbəri, müəllimlər, xüsusən ibtidai sinif müəllimləri onu tanımasınlar. Onlar Yəhya müəllimin dəyərli məsləhətləri, əsərlərinin köməyi ilə təlim prosesini optimallaşdırmış və təkmilləşdirmişlər.

Daim axtarışda olan professor Yəhya Kərimovun tədqiqatları təkcə pedaqogikanın ümumi məsələləri ilə məhdudlaşmır, o, eyni zamanda təbiətşünaslıq, ətraf aləmlə tanışlıq, musiqi və rus dilinin tədrisi ilə əlaqədar araşdırmalar aparmış, dərslik və dərs vəsaitləri yazmışdır. Yəhya müəllim Dağıstandakı Azərbaycan məktəbləri, Azərbaycanda yaşayan milli azlıqların ibtidai məktəbləri üçün də proqram və dərsliklərin hazırlanmasında iştirak etmişdir.

Yəhya Kərimov yüzlərlə elmi əsərin müəllifidir. Onun aşağıda adları qeyd olunan onlarla irihəcmli monoqrafiyası elmin inkişafına xidmət etmişdir: "Pedaqoji tədqiqat metodları", "Təlim metodları", "Ana dilinin tədrisi metodikası", "Elmi tədqiqat metodları", "İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları", "İbtidai təlim: problemlər və vəzifələr" , "Uşaq məktəbə gedir", "Uşaq bağçasında nitq inkişafı", "İbtidai siniflərdə leksik işlər", "Altıyaşlıların məktəbə hazırlanmasının nəzəri və praktik problemləri", "Hüsnxət təliminin metodikası", "Yazı təliminin bəzi məsələləri", "İmla

mətnləri", "İbtidai siniflərdə inşalar", "İbtidai siniflərdə öyrədici yazılar", "İbtidai siniflərdə orfoqrafik çalışmaların sistemi", "Məktəblinin orfoqrafiya-orfoepiya lüğəti", "İslam dəyərləri işığında" və s.

Yəhya Kərimovun jurnal və qəzetlərdə dərc olunmuş əsərləri iri həcmli 10 cildliyində dərc edilmişdir.

Professor Yəhya Kərimov dərsliklərin tərtibi sahəsində xüsusilə şöhrət qazanmışdır. "Əlifba" dərsliyi 45 il (1963–2008-ci illər) ərzində 6 milyona yaxın şagirdə xidmət etmişdir. I–III siniflər üçün "Ana dili", "Oxu", "Azərbaycan dili" dərslikləri 20 ildən artıq nəşr olunmuşdur. O, bir müddət gürcücə ana dili ("Deda ena") və rus məktəbləri üçün "Azbuka" dərsliklərinin müəlliflərindən biri olmuşdur. O, ləzgilər və azsaylı xalqların təhsil aldıqları məktəblər üçün proqram və dərsliklərin tərtibində də iştirak etmişdir.

Uzun illərdir ki, Yəhya Kərimovun ali məktəb tələbələri üçün tərtib etdiyi "Ana dilinin tədrisi metodikası", "Azərbaycan dilinin tədrisi metodikası" dərsliklərindən istifadə olunur.

O, uşaq bağçaları üçün «İlk addımlar» (professor Ə.Ə.Əlizadə ilə birlikdə, 1968-ci il), altıyaşlılar üçün «Qönçə» (1986-cı il) adlı dərs vəsaiti də hazırlayıb, nəşr etdirmişdir

Pedaqoji ictimaiyyət, respublika alimləri və pedaqoqları arasında professor Yəhya Kərimovun xüsusi hörməti və nüfuzu var. Yəhya müəllim elmi konfranslarda, müxtəlif yığıncaqlarda, dəyirmi masa arxasında məruzə və çıxışlarında, görüşlər zamanı öz orijinal fikirləri ilə dinləyiciləri düşündürür, onlara təhsilin inkişafı, təlim-tərbiyə prosesinin düzgün təşkili yollarını öyrədir.

Dövlətimiz və hökumətimiz onun fədakar əməyini lazımınca qiymətləndirib. Yəhya müəllim hələ ittifaqa daxil olduğumuz illərdə Qırmızı Əmək Bayrağı ordeni, "Lenin" yubiley medalı, "Əmək veteranı" və "Fədakar əməyə görə" xatirə medalları, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı, Azərbaycan SSR və Dağıstan MSSR maarif nazirliklərinin fəxri fərmanları, SSRİ və Azərbaycan SSR "Maarif əlaçısı" döş nişanlarına layiq görülmüşdür. Müstəqilliyə qovuşduğumuz illərdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına, Prezident təqaüdünə layiq görülmüş, "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Elmi mübahisələri xoşlayan Yəhya müəllim fikrinin orijinallığı ilə seçilir. O, elm yolunda dincəlməyin nə olduğunu bilmir. Yəhya müəllim zəngin elmi potensiala və yaradıcılıq enerjisinə malik bir pedaqoqdur. Bu göstərir ki, o, bundan sonra da öz tədqiqatlarını davam etdirəcəkdir.

Professor Yəhya Kərimov dərin təfəkkürə və məntiqə, yüksək nitq mədəniyyətinə malik alimdir. O, elmi işdə tələbkarlığı ilə fərqlənir.Bu tələbkarlıq gənc tədqiqatçılara, doktorant və dissertantlara qayğıdan, xeyirxahlıqdan irəli gəlir.

Professor Yəhya Kərimov Azərbaycanda pedaqogika elminin görkəmli nümayəndəsi, fənlərin tədrisi metodikası, xüsusən Azərbaycan dilinin tədrisi metodikası kimi mühüm elm sahəsinin mahir bilicisi, səriştəli tədqiqatçısıdır. Mübaliğəsiz deyə bilərik ki, son yarım əsrdə respublikamızda məktəbəqədər və ibtidai təhsilin aktual problemlərinə onun kimi yaxından bələd olan şəxsə az təsadüf edilər.

O, 1970-ci ildən "İbtidai məktəb və məktəbəqədər tərbiyə"məcmuəsinin (hazırda "Məktəbəqədər və ibtidai təhsil" jurnalı) redaktorudur.

Professor Yəhya Kərimov elmi və pedaqoji kadrların hazırlanması sahəsində də səmərəli fəaliyyət göstərmişdir. 50-dan artıq fəlsəfə doktoru və elmlər doktoru yetişdirib,

onlarla fəlsəfə və elmlər doktoruna rəsmi opponent olmuşdur. Hazırda da bu xeyirxah işini davam etdirir.

Professor Yəhya Kərimov Azərbaycan Dövlət Pedaqoji Universitetində, Özbəkistan Pedaqoji Universitetində, Qazaxıstan Elmi-Tədqiqat Pedaqoji İnstitutunda, Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda, Bakı Musiqi Akademiyasında fəaliyyət göstərən dissertasiya şuralarının sədri, həmsədri, sədr müavini və üzvü kimi yüksək ixtisaslı alimlərin hazırlanmasında yaxından iştirak etmişdir.

Pedaqoji elmlər doktoru, professor Yəhya Şəfi oğlu Kərimov uzun və şərəfli bir ömür yolu keçmişdir.

Kollektivimiz adından Yəhya müəllimə can sağlığı, yaradıcılıq uğurları arzulayırıq! 90 yaşınız mübarək, Yəhya müəllim!

## HƏZRƏTİ-MƏHƏMMƏD PEYĞƏMBƏRİN (S.Ə.S.) HİKMƏT XƏZİNƏSİNDƏN

*Həqiqətən, alimlər peyğəmbərlərin varisləridir. Peyğəmbərlər dinar və dirhəm vərəsə qoymazlar. Onlar elm vərəsə qoyurlar. Kim ki, ondan götürdü, zəngin bir xəzinə götürmüş olur.*

***

*Elm axtarışında olmaq müsəlman kişi və qadına fərzdir.*

***

*Elm axtarışında ikən kiməsə ölüm gələrsə, islamı əhya etməkdə (dirçəltməkdə) olan peyğəmbərlərlə onun arasında dərəcə eynidir.*

***

*Yer üzündə olan alimlər göydə olan ulduzlar kimidir. Səhrada və dəryanın dərinliyində onların vasitəsilə yol tapmaq olur. Əgər ulduzlar batsa, yolçular yollarını itirərlər.*

***

*Qiyamət günündə alimin mürəkkəbi ilə şəhidin qanı bərabər tutular. Bunların heç biri o birindən artıq olmaz.*

# "AZƏRBAYCAN MƏKTƏBİ" JURNALININ ƏN DAYANIQLI ƏLAVƏSİ: "İBTİDAİ MƏKTƏB VƏ MƏKTƏBƏQƏDƏR TƏRBİYƏ" MƏCMUƏSİ

**Elnarə Məmmədova,**
pedaqogika üzrə fəlsəfə doktoru,
ADPU-nun elmlər doktoru hazırlığı üzrə dissertantı



**açar sözlər:** pedaqoji mətbuat, pedaqoji fikir, kompleks proqram, ənənəvi sistem, metod və priyomlar, ikiilliksiz təlim;
**ключевые слова:** педагогическая пресса, педагогическая мысль, комплексная программа, традиционная система, методы и приемы, учеба без второгодников;
**key words:** pedagogical press, pedagogical thought, complex software, traditional system, method and techniques, training.

Azərbaycanda pedaqoji fikir tarixinin müxtəlif mərhələlərində özünəməxsus fəaliyyəti ilə təhsil sisteminə xidmət edən mətbuat orqanlarından biri məhz "Məktəbəqədər tərbiyə və ibtidai təhsil" jurnalıdır. Jurnal "İbtidai məktəb və məktəbəqədər tərbiyə" adı altında 1970-ci ildə "Azərbaycan məktəbi" jurnalına əlavə kimi nəşrə başladığı gündən öz missiyasını yerinə yetirərək, ən oxunaqlı nəşrlərdən biri olmuşdur.

Baş redaktor Y.Kərimovun sözləri ilə desək, "İbtidai təhsilin ilk dəfə ciddi eksperimental axtarışlara məruz qaldığı bir dövrdə maarif naziri, akademik Mehdi Mehdizadənin təşəbbüsü ilə "Azərbaycan məktəbi" jurnalının nəzdində "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsinin yaradılması qərara alındı".

Məcmuənin redaktorluğu məktəbəqədər və ibtidai təhsil sisteminin nəzəri, həmçinin metodiki əsaslarının bilicisi kimi tanınan Yəhya Kərimova tapşırıldı. Məcmuənin əhatə dairəsi geniş və hərtərəfli oldu. O, işə başlayanadək ibtidai təhsilə dair məqalələr "Azərbaycan məktəbi" jurnalında dərc edilirdi. Məcmuə fəaliyyətə başladığı ilk aylardan etibarən təhsilin bu pilləsini yeni uğurlara yönəldən yeganə mətbuat orqanına çevrildi. Baş redaktor sonralar yazırdı: "Məcmuə ilk nömrəsindən çox düzgün və aydın yol tutdu. Onun qarşısında konkret və zəruri problemlərin həlli qoyuldu: üçillik təlim sisteminin mahiyyətini, ənənəvi sistemdən üstünlüyünü müəllimlərə çatdırmaq; yeni proqramların məzmununu, xüsusiyyətlərini izah etmək; yeni proqramları və dərslikləri təhlil etmək; yeni proqram və dərsliklərlə işləməyin metodikasını aydınlaşdırmaq; proqram, dərslik və təlim metodlarını təkmilləşdirmək; qabaqcıl təcrübəni öyrənib ümumiləşdirmək və yaymaq; müəllimlərin nəzəri bilik səviyyələrini yüksəltmək və s." ("Azərbaycan məktəbi", 1976, №10).

1971–1972-ci dərs ili məktəbimizin tarixinə üçillik ibtidai təlimin başa çatdırılması ili kimi daxil oldu. Müəllimlər arasında ardıcıl izahat işlərinin aparılması vəzifəsi, əsasən, məcmuənin üzərinə düşürdü. Məcmuədə deyilirdi: "Yeni proqramın tətbiqi sahəsində ikiillik təcrübə göstərir ki, təlimin məzmunu müəllimdən öz nəzəri biliklərini daim zənginləşdirməyi, ənənəvi təlimin metod və priyomlarını təkmilləşdirmək üçün axtarışlar aparmağı tələb edir. Müəllim yadda saxlamalıdır ki, proqramın tədricən artan mürəkkəbliyi şagirdlərə dərsdə müntəzəm, fərdi kömək göstərilməsini tələb edir. Belə köməyi valideynlərin üzərinə atmaq, şagirdləri həddən artıq yükləmək hallarına yol verilməməlidir". Məcmuə məktəbin qarşısında duran vəzifələrin müəllimlərə çatdırılmasını vacib sayırdı. Üçillik təlim başa çatdığına görə 1971-ci ildə məcmuədə nəşr olunan əsas məqalələr III siniflə bağlı idi. Məhz ona görə də yalnız həmin ilin 6-cı nömrəsində bu səpkidə 11 məqalə dərc olunmuşdu. Bunların arasında rus metodistləri A.S.Pçyolkonun "III sinifdə riya-

ziyyat", N.A.Bantova və Q.V.Beltyukovanın "Riyaziyyatın ibtidai kursuna dair təkliflər" məqalələri də vardı.

Yeni proqramlarla əlaqədar akademik M.Mehdizadənin məruzə və çıxışları, respublikamızın görkəmli pedaqoq, psixoloq və metodistlər M.Muradxanov, N.Kazımov, Ə.Əlizadə, Y.Kərimov, Z.Qaralov, Y.Talıbov, M.Həmzəyev, Ə.Qədirov, X.Fətəliyev, N.Sadıqov, İ.Əliyev, Z.Osmanov, Ə.Şükürov, M.Cabbarova, V.Xəlilov, H.Ələkbərov, B.Quliyev və başqalarının yazıları məcmuəni daha məzmunlu, daha oxunaqlı edirdi. Məcmuədə görkəmli rus, Ukrayna, belorus pedaqoq, psixoloq və metodistlərindən A.A.Lyublinskaya, V.V.Yakovlev, B.Erdniyev, A.S.Pçyolko, L.Venqer, V.Muxina, V.P.Strezikozin, A.Savçenko, M.Yermoloviç və başqalarının pedaqoji təmayüllü məqalələrinin tərcüməsi dərc olunurdu.

Məcmuənin fəaliyyətə başladığı birinci ildə pedaqoji elmlər doktoru N.Kazımovun "Təlimin tərbiyələndirici xarakterinə dair" adlı geniş yazısı dərc olundu. Məqalədə ibtidai siniflərdə aparılan işlərin səmərəli təşkilindən bəhs olunmaqla yanaşı gənc nəslin əxlaq, estetik və fiziki tərbiyəsinin təşkili elmi əsaslarla təhlil edilirdi. Burada pedaqoji fikrimizin nəzəri əsaslarını şərh edən müəllif ibtidai siniflərin üzərində xüsusi dayanaraq yazırdı: "İbtidai siniflərdə şagirdlərin aldıqları hazırlıq onların qazandıqları biliklər, yiyələndikləri əxlaqi, estetik, fiziki və s. keyfiyyətlər gələcək təhsilin bünövrəsini təşkil edir. Bu bünövrə nə qədər möhkəm, nə qədər əsaslı olarsa, şagirdin gələcək fəaliyyəti, onun əqli, əxlaqi, fiziki, estetik fəaliyyəti də bir o qədər müvəffəqiyyətli olar. Odur ki, ibtidai siniflərdə şagirdlərin təlim və tərbiyəsi xüsusi qayğı, diqqət tələb edir". Məqalə belə yekunlaşdırılır: "Tərbiyə vəzifələrinə əsaslı xidmət edən təlim, öz növbəsində, bilik, bacarıq və vərdişlərin daha şüurlu və möhkəm mənimsənilməsinə kömək göstərər". Göründüyü kimi, elə ilk nömrələrindən məcmuədə tərbiyə məsələlərinə geniş yer verilirdi. Yalnız 1970-ci ildə bu mövzuda 10-dan artıq məqalə yazılmışdı. Yuxarıda adı çəkilən "Təlimin tərbiyəedici xarakteri" kimi dəyərli yazılarla yanaşı, "Təmkinlilik nədir və onu uşaqlarda necə tərbiyə etməli?", "Musiqi təhsilinə diqqəti artırmalı", "Məktəbəqədər yaşlı uşaqlarda düzlük və doğruçuluq tərbiyəsi haqqında", "Uşaq bağçasında intizam tərbiyəsi" uşaqların şəxsiyyət kimi formalaşmalarına xidmət edirdi.

Başlanğıcdan "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsi ildə 6 dəfə nəşr edilirdi. Məcmuənin 25 min abunəçisi vardı. Artıq pedaqoji ictimaiyyət bilirdi ki, onlara bu sahədə kömək göstərən və təhsilin ibtidai pilləsini elmi-pedaqoji əsaslarla idarə edən bir orqan mövcuddur. Məcmuənin birinci nömrəsində redaktor oxuculara müraciətlə yazırdı: "Mövcud çətinlikləri aradan qaldırmaq üçün hər bir müəllim yorulmaq bilmədən oxumalı, yeni proqramların tələblərini həyata keçirmək üçün öz ixtisasını artırmalı, metodik ustalığını təkmilləşdirməlidir. Bu işdə məcmuə Sizə yaxından kömək edəcəkdir. Onun səhifələrində Sizi maraqlandıran metodik məsələlərə dair məqalələr oxuya biləcəksiniz. Məcmuədə sinif müəllimlərinin, uşaq bağçası tərbiyəçilərinin qabaqcıl iş təcrübəsini əks etdirən materiallar, proqramın çətin və mürəkkəb bölmələrinin tədrisinə kömək edəcək metodik göstərişlər dərc olunacaqdır".

Məcmuənin redaksiya heyətinə güclü pedaqoqlar cəlb edilmişdi. Ona görə də elə ilk nömrəsindən məcmuə həm pedaqoji kadrların nəzəri səviyyəsinin yüksəldilməsinə, həm də məktəbəqədər tərbiyə və ibtidai təhsil müəssisələrinin təcrübəsinin öyrənilib yayılmasına hərtərəfli kömək göstərirdi. Jurnalın 20 illik nəşr illəri sovet rejimi dövrünə təsadüf etsə də, o, həmişə öz yaradıcılıq prinsiplərinə, pedaqogikanın tələblərinə sadiq qalmışdır. Məcmuə öz dəyərli məqalələri ilə oxucuların faydalanacağına təminat verirdi.

Məcmuədə təhsilimizin qarşısında duran vəzifələrdən, ilk növbədə, təhsilin həyatla əlaqələndirilməsi, ikiilliksiz təlim, təlimin intensivləşdirilməsi, təlim prosesində fərdiləşdirmə, təlimin texniki vasitələrindən istifadə, proqramlaşdırılmış təlim, təlim prosesinin optimallaşdırılması, problemli təlim və s. məsələlərlə əlaqədar yazıları, pedaqoji eksperimentləri, əldə edilmiş nailiyyətləri vaxtında müəllimlərə çatdıra bilirdi. Məcmuənin səhifələrində metodik göstərişlərlə yanaşı, elm, təhsil və tərbiyənin nəzəri məsələləri də əhatə olunurdu.

"İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsi Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından 50 il sonra fəaliyyətə başlasa da, ibtidai sinif müəllimləri bunu vaxtında nəşr edilən

məcmuə hesab edirdilər. Belə ki, “Azərbaycan məktəbi”ndə və onun sələfləri olan “Yeni məktəb” və “Müəllimə kömək”də ibtidai təhsilə dair yazılar az dərc edilmirdi. Ötən əsrin 20-ci illərindən ibtidai məktəb şəbəkəsinin genişləndirilməsinə ardıcıl fikir verilirdi. SSRİ-nin bir çox respublikalarında ibtidai məktəblər 4 illik olsa da, Azərbaycanda hələ də ibtidai məktəb 5 illik olaraq qalırdı. Şagirdlərin sayı ildən-ilə artırdı. 1925–1926-cı dərs ilində respublikamızda fəaliyyət göstərən 1437 ibtidai məktəbdə 148502 şagird təhsil alırdı. Bunlardan 82 043-ü azərbaycanlı idi. Az.SSR MİK-nin 1927-ci il, may ayının 6-sı tarixli qərarında göstərilirdi: “1. 1927–1928-ci ildən başlayaraq, 10 il ərzində Azərbaycanda ümumi icbari təhsil həyata keçirilməlidir. 2. İbtidai məktəb tipi 5 qruplu məktəbdir” (o zaman hələ “sinif” sözü işlənmirdi – E.M.). Azərbaycanda 5 illik ibtidai məktəbin saxlanması da bir sıra mübahisələrə səbəb olurdu. Geniş müzakirələrdən sonra yeni, latın qrafikalı əlifbaya keçilməsi ibtidai məktəbdə təlimin yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir. 1930–1932-ci illərdə ümumi icbari təhsil kənddə 4 illik həcmdə, şəhərlərdə 7 illik həcmdə olmaqla həyata keçirilməyə başlandı. Bununla əlaqədar dövlətin müxtəlif qərarları da olmuşdu.

Görülən tədbirlər nəticəsində 1933–1934-cü dərs ilində məktəblərin şəbəkəsi 2 383-ə, şagirdlərin sayı 197649-ə, qızların sayı isə 41,2 faizə çatırdı. Bu, o zaman idi ki, artıq 1930–1931-ci illərdə ortaya çıxan kompleks–proyekt proqramlar kəskin tənqid edilib aradan çıxarılmışdı. Nəhayət, 1934-cü ildə məktəblərin yeni strukturu müəyyənləşdirildi: ibtidai, natamam-orta və orta.Bu struktur XX əsrin ikinci yarısına qədər davam etdi.

Məktəb şəbəkəsinin genişləndirilməsi, yeni məzmun ilk növbədə pedaqoji fikrin düzgün istiqamətləndirilməsinə təsir göstərmişdi. 1936-cı ildən başlayaraq pedaqoji nəzəriyyələr pedologiyadan azad oldu, pedaqogika bir elm kimi bərpa edildi. İbtidai məktəblər, təhsilin ilkin mərhələsi kimi, əhalinin mədəni səviyyəsinin yüksəldilməsində əvəzsiz rol oynadı. İbtidai məktəblər natamam-orta, yaxud orta məktəblərə çevrildi, məktəb şəbəkəsi genişləndi.

Müstəqil ibtidai məktəblərin natamam orta məktəblərə çevrilməsi ibtidai təhsilin məzmununda da ciddi dəyişikliklərə səbəb oldu. Bütün bunlar isə öz təhlilini, ifadəsini pedaqoji mətbuatda tapırdı. İstər rus, istərsə də azərbaycanlı pedaqoqların məqalələri ölkədə olan dəyişikliklərin mahiyyətini açır, onları oxucular üçün işıqlandırırdı.

Məcmuənin əhatə dairəsi genişləndikcə müəlliflərin sayı artır, qabaqcıl müəllimlərlə sıx əlaqə yaranırdı. Məcmuədə tez-tez S.Şəmsiyeva (Bakı şəhəri, 18 nömrəli məktəb), M.Pirimova (Sumqayıt şəhəri, 17 nömrəli məktəb), A.İsmayılov (Füzuli rayonu, Xatınbulaq kənd orta məktəbi), M.Seyidov (Naxçıvan, Muğanlı kənd səkkizillik məktəbi), Ş.Qaralov (Gürcüstan, Dmanisi rayon orta məktəbi) və başqa yaradıcı pedaqoqların məqalələri dərc edilir, müəllimlər üçün örnək olurdu.

Məcmuə ilk ildən həyatın nəbzini tutmağa nail oldu. Məcmuənin 1970-ci ildəki 6 nömrəsində 93 məqalə dərc edilmişdi. Onun 36-sı “Təlim və tərbiyə məsələləri”, 8-i “Psixoloji məsələlər”,10-u “Məktəbəqədər tərbiyə”, 11-i “Məsləhət”, 10-u “Bizim tribunamız” rubrikaları adı altında verilmişdi. Bunların arasında pedaqoqlar, qabaqcıl müəllimlər, rəhbər maarif işçiləri var idi. Sonrakı illərdə də bu ənənə qorunub saxlandı. Müəllimlər məcmuəni həvəslə oxuyurdular. Abunəçilərin sayı artıb, 28 minə çatmışdı.

Məcmuə ötən əsrin 70-ci illərində, ibtidai təhsilin məzmun və metodlarının tamamilə dəyişdiyi bir dövrdə fəaliyyətə başladığı üçün üçillik ibtidai təlim sisteminin tətbiqini mətbuatda işıqlandırmaq da onun üzərinə düşürdü. Bununla əlaqədar bütün proqram və dərsliklər kökündən dəyişilir, hər şey yeni əsaslarda qurulurdu. Ona görə də məcmuənin 1-ci nömrəsindən etibarən üçillik təlim sisteminin mahiyyətinin açılmasına xidmət edən məqalələrə daha çox yer verilirdi. İzah olunurdu ki, üçillik təhsilə keçmək heç də onun müddətinin formal olaraq bir il azaldılması kimi başa düşülməməlidir. Yeni proqramlarda diqqət nəzəri materialların artırılmasına, çətinlik səviyyəsinin yüksəldilməsinə, sürətin artırılmasına, yeni məzmuna müvafiq metod və priyomların seçilməsinə və onların təkmilləşdirilməsinə yönəldilirdi. Proqram və dərsliklərlə bağlı məqalələr yazmaq üçün təcrübəli müəlliflər dəvət edilirdi. Müəllimləri bu yeni sistemə hazırlamaq üçün bir sıra təşkilati tədbirlər də görülürdü. 1970–1972-ci illərdə keçirilən respublika konfranslarının materialları məcmuədə dərc edilirdi. Bəzi hallarda rayonlarda keçirilmiş elmi-praktik konfransların nəticələri də

məcmuə vasitəsilə respublika pedaqoji ictimaiyyətinin diqqətinə çatdırılırdı. Qabaqcıl iş təcrübəsi məcmuə işçilərinin gözündən yayınmırdı.

Pedaqoji, psixoloji, metodik aspektdə yazılmış və məcmuədə dərc olunmuş materialların çoxunun ali məktəb müəllimləri, elmi tədqiqatla məşğul olanlar tərəfindən yazılmasına baxmayaraq, onların heç də hamısı eyni səviyyədə deyildi. Ayrı-ayrı metodik təkliflər, ənənəvi təhsildən ayrıla bilməyənlərin köhnə iş formalarından istifadə etmələri tədris prosesində özünü doğrultmurdu, lakin məcmuədə çap olunan bəzi materiallardan müəllimlər indi də faydalana bilərlər.

Bu məqalələrdə yeni proqramlarla əlaqədar mənimsənilməsi nisbətən çətin mövzuların tədrisi metodlarının işıqlandırılmasına, dərslərin müasir tələblər səviyyəsində qurulmasına geniş yer verilir, qabaqcıl müəllimlərin tədris prosesinin səmərəliliyini yüksəltmək sahəsindəki iş təcrübəsinin öyrənilib ümumiləşdirilməsinə dönə-dönə müraciət olunurdu.

Redaktor Y.Kərimovun məqalələri bu tələblərin yerlərə çatdırılmasına xidmət edirdi. O, “Dərsə verilən müasir tələblər” adlı məqaləsində üçillik təlimə keçilməsi ilə əlaqədar yazırdı: “Akademik A.V.Zankovun laboratoriyasının eksperimental tədqiqatları sübut etmişdir ki, təlimi şagirdlərin güclərinə müvafiq yüksək çətinliklər səviyyəsində qurmaq lazımdır”.

Məcmuədə təlimlə tərbiyənin vəhdətinə, təlimin tərbiyələndirici xarakterinə, tərbiyə prosesində şagirdlərin bir sıra elmi məlumatlarla silahlandırılmalarına dair yazılara geniş yer verilirdi.

Məcmuədə məktəbəqədər tərbiyə müəssisələrinin işinə də kifayət qədər yer ayrılırdı. Bir faktı qeyd edək ki, 1974–1977-ci illərdə silsilə yazılar vasitəsilə “Uşaq bağçasında tərbiyə proqramı ilə əlaqədar metodik göstərişlər” dərc edilmişdi. 1977-ci ildə redaktor Y.Kərimovun “Altıyaşlıların məktəbə hazırlığı mühüm pedaqoji problemdir” adlı məqaləsində o dövrlə səsləşən fikirlər vardır.

Məcmuə Azərbaycan SSR Maarif Nazirliyi kollegiyasının qərarı ilə respublikamızda ilk dəfə uşaq bağçasına cəlb olunan 6 yaşlı azərbaycanlı uşaqların məktəbə hazırlığı və təlimi üzrə eksperiment qoyulmuşdu. İlk nəticələrə dair məqalədə Bakı şəhərindəki 132 və 6 nömrəli tam məktəblərin əldə etdikləri uğurlardan da bəhs edilirdi.

Məcmuədə M.İsmayılovun “Öyrənməyi öyrətmək” mövzusunda yazısı da maraqlı idi. Müəllif M.A.Danilov, B.P.Yesipov, M.N.Skatkin, J.K.Babanski kimi görkəmli pedaqoqların əsərlərinə istinad edərək, bir sıra fikirlər irəli sürmüşdü. Məcmuədə müzakirələrə də səhifələr ayrılır, oxucuları maraqlandıran suallar cavablandırılırdı.

Məcmuənin 1984-cü il, 5-ci nömrəsində “Fənlərin tədrisi və iş təcrübəsi” rubrikası altında gedən 10 məqalə azkomplektli məktəblərin işinə həsr edilmişdi. Rubrikada aşağıdakı məqalələr yerləşdirilmişdi: “Azkomplektli məktəblər” (Y.Kərimov), “Azkomplektli məktəblərdə tədrisin bəzi məsələləri” (B.Tağıyev), “Azkomplektli məktəblərdə eyni fənli və eyni mövzulu dərslərin təşkili” (S.Məmmədov), “Azkomplektli məktəblərdə riyaziyyatın tədrisinə dair” (Z.Osmanov), “Azkomplektli məktəblərdə əmək təliminin təşkili xüsusiyyətləri” (Ə.Şükürov) və s. Redaktor Y.Kərimovun məqaləsində azkomplektli məktəblərin vəziyyətinə dair dəyərli məlumatlar öz ifadəsini tapmışdı.

Məcmuədə təcrübə mübadiləsi məqsədilə “Начальная школа” jurnalında gedən, ən aktual problemlərə həsr olunmuş məqalələrin tərcümələri də verilirdi. Bunlardan əlavə, prof. B.Əhmədovun “Təlimin tərbiyələndirici xarakteri haqqında” məqaləsində 60–70-ci illərdə rus dilində Moskvada çap olunmuş pedaqoji ədəbiyyata istinad edilir, ilk növbədə Q.İ.Şukinanın redaktəsi altında hazırlanan “Məktəb pedaqogikası” kitabının adı çəkilirdi. Sonra N.İ.Boldıryev, N.K.Qonçarov, B.T.Yesipov, F.F.Korolyovun 1968-ci ildə yazdıqları “Pedaqogika” kitabından misallar gətirilirdi. Müəllif onunla razılaşırdı ki, “təlimin tərbiyələndirməsi pedaqoji qanunauyğunluqdur”. O, M.A.Danilov və M.N.Skatkinin rəhbərliyi ilə 1975-ci ildə hazırlanmış “Orta məktəb pedaqogikası” kitabına da münasibət bildirərək oradakı belə bir fikirlə razılaşır ki, “təlimin tərbiyələndirici xarakteri didaktik prinsiplərdən biridir”.

Məcmuədəki digər məqalələrdə də rus pedaqoji fikrinə istinad edilmiş, onun ən məşhur nümayəndələri yada salınmışdır. Belə məqalələrdə V.A.Suxomlinskinin də pedaqoji irsi təhlil olunurdu. Dosent S.Zeynalovun “V.A.Suxomlinski anaya məhəbbət tərbiyəsi haqqında” (1987, №3), “V.A.Suxomlinski kiçik məktəbyaşlı uşaqların şəxsiyyətinə hörmət haqqında” (1986, №1), dosent

M.İsmixanovun "V.A.Suxomlinski məktəblilərə öyrənməyi öyrətmək haqqında" (1987, №5) məqalələri bizi belə qənaətə gəlməyə vadar edir. V.A. Suxomlinskinin zəngin yaradıcılığından müəllimlərin bəhrələnmələri, uşaqlarda tərbiyəvi hisslərin inkişaf etdirilməsi məqsədəuyğun hesab olunurdu.

Bunlardan əlavə, Azərbaycan pedaqoji fikrinin tanınmış nümayəndələrindən prof. Y.Talıbovun "Mənəvi şüurla davranışın vəhdəti haqqında" (1986, №1), dosent S.Axundovun "Şagirdlərin əxlaq tərbiyəsində ictimai tapşırıqların rolu" (1987, №2) və s. məqalələr də pedaqojiyönümlü, tərbiyəvi aspektdə yazılmış dəyərli yazılar idi. Prof. M.Həmzəyevin "Şagirdlərin təlim fəaliyyətinin motivləşməsi haqqında" (1983, №5) məqaləsi müasir təlimin metodları, kurikulumun tələbləri ilə səsləşən fikirlərlə zəngindir. O yazırdı: "Müəllim ilk gündən bu cür motivlərin təşəkkül etdirilməsi qayğısına qalmalıdır".

Məcmuənin ərsəyə gəlməsində və formalaşmasında, hamıdan əvvəl, onun redaktoru prof. Yəhya Kərimovun əməyini xüsusi qeyd etmək vacibdir. Keçən əsrin 70–80-ci illərində ibtidai sinif müəllimləri, tərbiyəçilər, aspirantlar jurnalın hər nömrəsini səbirsizliklə gözləyir, onda yaradıcı meyillər, yeniliklər axtarırdılar. Y.Kərimovun rəhbərlik etdiyi ibtidai təhsilin üçillik və dördillik olması, təhsilə 7, yaxud 6 yaşdan başlanılması haqqında müzakirələr böyük maraq doğururdu.

İllər keçdikcə məcmuə sələflərinin yolunu davam etdirmiş, pedaqogika və metodika tarixində öz yerini möhkəmləndirmiş, onun haqqında elmi araşdırmalar aparılmışdır.

Ötən əsrin 80-ci illərində aparılan islahatlar nəticəsində ümumi orta təhsil və peşə təhsilinin strukturu tamamilə dəyişdi. İbtidai təhsil dördillik oldu. Orta ümumtəhsil məktəbi onbirilliyə çevrildi. Belə bir dəyişiklikdən sonra uşaqlar məktəbdə təhsilə 6 yaşından başladılar. 1974–1977-ci illərdə altıyaşlıların kütləvi şəkildə məktəbə hazırlanması məsələləri ilk dəfə özünün ən aydın şərhini "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsində tapdı. Geniş müzakirələr və eksperimentlərdən sonra tədricən 1986-cı ildən 6 yaşdan təhsilə başlandı. Bu problemlərə ehtiyatla yanaşılmasına dair tövsiyələr məcmuədəki məqalələrdə tez-tez səslənirdi. Məcmuənin 1984-cü il, 4-cü nömrəsində gedən "İbtidai məktəb yeni mərhələdə" adlı baş məqalədə mövcud vəziyyət təhlil olunur və müvafiq metodik tövsiyələr verilirdi. Orada deyilirdi: "Məktəb islahatına mövcud hər şeyi atıb, yenisini yaratmaq kimi baxmaq olmaz. Bu hadisəni səbr və ehtiyatla həyata keçirmək lazımdır". Sonra xatırladılırdı ki, məktəb təcrübəsi, pedaqogika sayəsində qazanılan qiymətli nə varsa, hamısı qayğı ilə qorunmalı və onlardan istifadə edilməlidir.

Pedaqoji fikir tariximizə dair dosent C.Əhmədovun "Rəşid bəy Əfəndiyev ibtidai siniflərdə ana dili təlimi haqqında" məqaləsi bu gün də öz aktuallığını itirməmişdir. Müəllif Rəşid bəy Əfəndiyevin metodik mülahizələri içərisində ana dilli təlim məsələlərinin xüsusi yer tutduğunu qeyd edir, oxucuların diqqətini iki məsələyə yönəldərək deyirdi: "Dərslik bilavasitə pedaqoji işdə çalışan pedaqoq-metodistin əməyinin məhsuludur və onun ümumi məzmunu məktəblə bağlı, ibtidai sinif şagirdlərinin yaş və bilik səviyyəsinə uyğun olmalıdır". Müəllif xatırladırdı ki, Rəşid bəy Əfəndiyev "Uşaq bağçası" kitabını yazanda onun qarşısında A.O.Çernyayevskinin "Vətən dili" və K.D.Uşinskinin "Родное слово" dərsliyi vardı, lakin ənənələrə nə qədər sadiq qalsa da, o, sələflərini təkrar etməmişdir. Məqalə müəllifi Rəşid bəy Əfəndiyevin "Uşaq bağçası" dərsliyini geniş təhlil edərək, oradakı pedaqoji-metodik prinsiplərin elmi-pedaqoji şərhini vermişdir. Müəllif belə bir qənaətə gəlmişdir ki, müasir dərslikləri yeni metodik tələblər əsasında qurmaq nöqteyi-nəzərindən, pedaqoji-metodik cəhətdən Rəşid bəy Əfəndiyevin "Uşaq bağçası" dərsliyi həmişə nəzərə alına bilər.

Ədəbiyyatın tədrisi metodikası üzrə professor C.Əhmədov yazırdı: "R.b.Əfəndiyevin əlifba təlimi və ibtidai siniflərdə ana dili tədrisi haqqında fikirlərinin, bir növ, əməli nəticəsi olan "Uşaq bağçası"ndan bəhs edərkən onun müəllifinin professor M.Mehdizadə ilə olan bir söhbətini nəzərə çatdırmaq faydalı olardı. M.Mehdizadə yazırdı: "Azərbaycanlılar üçün ana dilində əlifba kitabının o zamanlar (XIX əsrin 80-ci illərində) nəşr olunmasının nə dərəcədə böyük mədəni əhəmiyyəti olduğuna dair Rəşid bəylə aramızda olmuş bir söhbət çox maraqlıdır. 1940-cı ildə Rəşid bəyə müraciət edərək əlifba təliminin tarixinə dair xatirələrindən danışmağı ondan xahiş etdik... O, dərin

elmi fikirlər söylədi: "Azərbaycan əlifba təliminin tarixini öyrənmək çox vacib elmi işdir. Mən istərdim ki, XIX əsrin hadisələri bu günün arşını ilə ölçülməsin... Mədəni qələbələr nöqteyi-nəzərindən ana dilində əlifba tarixini öyrənmək istəsəniz, bunun üçün ölçü vahidi tapacaqsınız. Keçən əsrin 80-ci illərində biz bir qrup müəllim ana dilində əlifba təlimini nizama salanda ona, darülfünun açırıqmış kimi, böyük mədəni qələbə kimi baxırdıq".

Məcmuədə pedaqoji fikrin müxtəlif sahələrinə aid məqalələr çap olunurdu, məsələn, professor Ə.Həşimovun "Xalq pedaqogikası" məqaləsi Azərbaycanda pedaqoji fikrin formalaşması aspektində yazılan dəyərli məqalələrdəndir. "Hər bir xalqın pedaqoji irsi həmin xalqın milli mədəniyyətinin ayrılmaz hissəsi olub, onun tarixi keçmişinin özünəməxsus cəhətləri ilə fərqlənir. Bu fərq ayrı-ayrı xalqların pedaqogikaları arasında sədd çəkir. Hər xalqın pedaqogikası ilk növbədə öz klassik bünövrəsi üzərində yüksəlsə də, əksər məsələlərdə onlar bir-birinə çox yaxındır" deyən müəllif öz fikirlərini əsaslandırmaq üçün Y.A.Komenski, İ.H.Pestalotsi, K.D.Uşinski kimi klassik pedaqoqların nəzəri fikirlərini təhlil edərək belə qənaətə gəlir ki, "öz tərbiyə sistemlərini yaradan dahi pedaqoqlar, ilk növbədə, xalqın pedaqoji dühasına, tərbiyə sahəsindəki təcrübəsinə, adət-ənənələrinə, bir sözlə – xalq pedaqogikasına əsaslanmışlar". Professor öz fikirlərini şərh edərək xalq pedaqogikasının əhatə etdiyi problemləri belə qruplaşdırmışdır: "Əsas pedaqoji anlayışlar xalq pedaqogikasında tərbiyənin obyekti və subyekti, tərbiyənin amilləri, metodları, xalq tərbiyəsinin vasitələri, xalq təlim-tərbiyəsinin təşkili formaları, xalq tərbiyəçiləri məsələlərini əhatə edir". Müəllif "Kitabi-Dədə Qorqud" dastanlarında tərbiyə məsələlərinə ayrıca yer verilir. Bütün xalqların, o cümlədən, Azərbaycan pedaqoji fikri metodoloji cəhətdən xalq fəlsəfəsinə əsaslanır. Pedaqogika elminin başlanğıcı da biliklər və təcrübələrdən götürülür.

Beləliklə də, "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsi uzun illər müəllimlər üçün çox faydalı bir metodik vəsait rolunu oynamışdır. Fəaliyyət göstərdiyi illərdə müəllimin, tərbiyəçinin nəzəri səviyyəsini yüksəltməyi qarşısına məqsəd qoyan məcmuə, demək olar ki, öz məqsədinə nail olmuşdur. Müstəqil jurnal statusu alanadək keçən 20 il ərzində məcmuə Azərbaycanda pedaqoji fikrin formalaşmasına əvəzsiz xidmətlər göstərmiş, "Azərbaycan məktəbi"nin əlavəsi kimi öz mis siyasını layiqincə yerinə yetirmişdir.

**Ədəbiyyat**


1."İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsi. 1970–1990-cı illər.
2. Xəlilov S. Azərbaycanda 20 ildə ibtidai məktəb. "Müəllimə kömək", 1940, №3.
3. İbtidai məktəb yeni mərhələdə. "İbtidai məktəb və məktəbəqədər tərbiyə" məcmuəsi. 1984, №4.
4. Kərimov Y. İbtidai məktəb və məktəbəqədər tərbiyə. "Azərbaycan məktəbi", 1976, №10.
5. Kərimov Y. Məktəb islahatı: ilk nəticələr. "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 1986, №1.
6. Əhmədov B. Təlimin tərbiyələndirici xarakteri haqqında. "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 1987, №4.


**Самое стойкое приложение к журналу «Азербайджан мектеби» – «Ибтидаи мектеб ве мектебегедер тербие»**

**резюме**


В статье рассказывается о пройденном пути в течении 20 лет методического сборника «Ибтидаи мектеб ве мектебегедер тербие» («Начальная школа и дошкольное воспитание») (1970–1990 гг), приложение к журналу «Азербайджан мектеби». Отмечается, что статьи напечатанные в сборнике известных ученых-педагогов помогли в развитии педагогической мысли в Азербайджане. Этот сборник по сей день продолжает свою деятельность как самостоятельный журнал под названием « Мектебегедер ве ибтидаи техсил» («Дошкольное и начальное образование»).


**The "Primary school and preschool teaching" the most stable appendix to the "Azerbaijan school "journal**

**summary**


The article is dedicated to the literary activity of the "Primary School and preschool teaching" survey during 20 years (1970-1990). It is noted that, the journal played great role in expanding pedagogical thoughts and upbringing of young generation. The well-known pedagogues issued their articles which helped to improve teaching practise. The "Primary school and preschool teaching" acts out like an independent journal at the moment.

# "KASPİ" TƏHSİL ŞİRKƏTİNİN MƏHARƏTLİ RƏHBƏRİ



2017-ci il, iyun ayının 16-da "Kaspi" Təhsil Şirkətinin 10 illik yubileyi keçirildi. Yubiley digər təhsil müəssisələrinə nümunə oldu. Mən yubileyin necə keçirilməsi, şirkətin çoxsahəli fəaliyyəti üzərində dayanmayacağam. Məqsədim 2007-ci ildə təşkilində iştirak etdiyim mərkəzin fəaliyyəti haqqında bildiklərimi və arzularımı oxuculara çatdırmaqdır. İngilis dilinin tədrisi ilə məşğul olan bir mərkəz kimi işə başlamış bu mərkəz fəaliyyətini genişləndirərək 2 lisey, 4 uşaq bağçası, 11 filial, 7 yerli nümayəndəlik açmış və "şirkət" statusu qazanmışdır.

Bu görkəmli şirkət bütün uğurları üçün onun təsisçisi, memarı və idarə heyətinin sədri Vəliyeva Sona xanıma minnətdar olmalıdır. Sona xanım nəyə görə tərifə layiqdir? Pedaqoji, psixoloji elmlər namizədi deyil, filologiya elmləri namizədi, təbiətən fövqəladə intuisiyaya malik olduğuna görə. Əqlinə gələn dəyərli ideyanı reallaşdırmaq hər adamın hünəri deyil. Sona xanım jurnalist alim kimi belə qabiliyyəti ilə fərqlənir. Onun illər ərzində təhsil sisteminə yeniliklər gətirməsi təqdirəlayiqdir.

Sona xanım təhsil, mədəniyyət, milli-mənəvi xüsusiyyətlərə, azərbaycançılığa həsr etdiyi şeirləri, irihəcmli "İşığa gedən yol" romanı, "Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi", "Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası" elmi-publisistik əsərləri, "Çəhrayı rəngli dünyam", "Arazbarı" şeir kitabları ilə tanınır.

Sona xanım ətrafına fəaliyyətini şüurlu dərk edən bacarıqlı gənclər toplamışdır. O, həmin gənclərin fəaliyyəti ilə tanış olur, vaxtaşırı onlarla işgüzar müşavirələr təşkil edir, daha yaxşı işləməyin yollarını öyrədir. Beləliklə, o, şirkətdə hərtərəfli inkişaf etmiş kadrların yetişməsinə nail olur. Şirkətin müəssisələrinə rəhbərlik edən şəxslər Sona xanımdan çox şey öyrənirlər.

Sona xanımın istiqaməti nəticəsində şirkətin əməkdaşları yalnız şagirdlərin əqli inkişafı ilə deyil, həm də sağlamlığı, fiziki, estetik, mənəvi keyfiyyətləri ilə məşğul olur, onların cəmiyyət üçün dəyərli şəxsiyyət kimi formalaşmaları qayğısına qalırlar. Onlar şagirdlərin necə rəsm çəkmələri, hər hansı musiqi alətini necə çalmaları, mahnıları necə oxumaları, necə rəqs etmələri, necə ünsiyyət saxlamaları ilə də maraqlanırlar. Onlar "Alim olmaq asandır, insan olmaq çətin" atalar sözündən nəticə çıxararaq, yüksək insani keyfiyyətləri daha çox dəyərləndirirlər.

Şirkətə daxil olan müəssisələrin məqsədi məktəbəqədər və ibtidai təhsildən başlayaraq yuxarı siniflərdə də bütün fənləri, o cümlədən, ingilis dilini mükəmməl öyrətməkdir. "Kaspi" Təhsil Mərkəzi Cambridge English Language Assessment Mərkəzinin Azərbaycandakı rəsmi nümayəndəsidir.

"Kaspi" Təhsil Şirkətinin proqramı bir sıra üstünlüklərə malikdir:

• Beynəlxalq sertifikat əldə etməyə imkan verir.
• Bütün imtahan materialları Kembricdə hazırlanır və sınaqdan keçirilir.
• Erkən yaşdan beynəlxalq imtahanlara hazırlaşırlar.

Kembric sertifikatının qüvvəsi:

• Dünyada 20 000-dən çox universitet və kolleclərə qəbul imkanı yaradır.
• Böyük Britaniyaya viza almaq üçün keçərlidir və s.

Bu il orta təhsili başa vuranların böyük əksəriyyəti yüksək bal toplayaraq ali məktəblərə daxil olmuşlar. Azərbaycan universitetlərində təhsil alan 1600-ə yaxın tələbə "Kaspi"nin abituriyenti olub. Onlardan 380 nəfərə yaxını xaricdə təhsil alıb. Məzunların əksəriyyəti Azərbaycana qayıdaraq mühüm vəzifələrdə çalışır. Bir sözlə, Sona Vəliyevanın rəhbərliyi ilə çox qiymətli təhsil nümunəsi yaranmışdır. Onun tətbiq etdiyi prinsipləri, vasitə, texnologiya, metod və priyomları diqqətlə öyrənmək, səmərəli inkişaf etdirilməsi yolları üzərində düşünmək lazımdır.

Elm, mətbuat, tədris tarixinin mükəmməl bilicisi Sona Vəliyeva onun incəliklərinə varan məharətli tədqiqatçıdır. Məhz bu baxımdam Sona xanım Azərbaycanın milli ənənələrini, azərbaycançılığı yüksək qiymətləndirir, insanlıq naminə canından keçmək istəyən vətənpərvərlərin yetişdirilməsi yolunda heç şeyi əsirgəmir.

Sona xanım "Kaspi" Mətbuat və Təhsil Mərkəzinin rəhbəridir. Sona Vəliyeva Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının üzvü təyin edilmişdir. O, "Kaspi" qəzetinin təsisçisi vəzifəsini daşıyır. Sona xanım Vəliyeva ibrətamiz xidmətlərinə görə 2005-ci ildə "Tərəqqi" medalına layiq görülmüşdür.

**Professor Yəhya Kərimov**

## “Kaspi” Təhsil Şirkətinin şagirdləri yubiley şənliyində






# TƏHSİLİMİZDƏKİ PROBLEMLƏR:

## nəzəri əsaslandırma və müəllim–şagird münasibətləri pedaqoji aspektdə

**Rüstəm Əşrəfov,**
Sumqayıt Dövlət Universitetinin müəllimi, dosent
E-mail: rustameshrefov@gmail.com



**açar sözlər:** pedaqoji proses, pedaqoji aspekt, nəzəri əsaslandırma, motivasiya, təlimin prinsipləri, müəllim-şagird münasibətləri;

**ключевые слова:** образовательный процесс, педагогический аспект, теоретическое обоснование, мотивация, принципы обучения, взаимоотношения учителья с учениками;

**key words:** the educational process, the pedagogical aspect, the theoretical foundation, the motivation, the principles of teaching, the relationship of the teacher with the students.

Müasir təhsilin mühüm problemlərindən biri təlim prosesinin təkmilləşdirilməsidir. Ölkəmizin gələcəyi naminə müasir tələblərə cavab verən şəxsiyyətlərin yetişdirilməsinə ciddi ehtiyac duyulur. Bu vəzifənin yerinə yetirilməsində məktəbin rolu böyükdür. Məktəbin qarşısında düşünməyi bacaran, fəal insanlar tərbiyə edib formalaşdırmaq vəzifəsi durur.

Bu baxımdan ümummilli lider Heydər Əliyevin tövsiyələri olduqca qiymətlidir. O, dəfələrlə bildirmişdir ki, yüz illərlə yiyələndiyimiz təhsilin müsbət cəhətlərini qoruyub saxlamalı və inkişaf etdirməliyik. Azərbaycanın təhsil sistemi dünya standartlarına cavab verməlidir. Təsadüfi deyil ki, 1999-cu ildə təhsil sahəsində qəbul edilmiş islahat proqramı fəaliyyətdədir. Ona əsasən, təhsil sistemində hər bir yenilik inqilabi yolla deyil, təkamül yolu ilə həyata keçirilir.

Bu günün təhsil sistemi müasir tələblərə cavab verməlidir. Bu baxımdan öz işinə yaradıcı yanaşan müəllimlərin rolu ön plana çəkilir. Müəllim öyrənənlərin öyrədənidir, lakin S.Linskerin dediyi kimi: "Uşaqlara məlumat, biliklər vermək kifayət deyil. Biz uşaqlara insani xüsusiyyətləri də öyrətməliyik. Uşaqlara mərhəmət, başqasının dərdinə şərik olmaq kimi hisslər, başlıcası isə, düzgün həyat tərzini öyrətmək lazımdır" [2, səh.36]. Bütün bu keyfiyyətlərin daşıyıcısını yetişdirmək müəllimin təlim prosesini müasir tələblər və metodlar əsasında qurmasından asılıdır.

Ənənəvi təhsil şagirdlərə hazır şəkildə verilən biliklərin qavranılmasına əsaslanırdı. Müasir təhsilin qarşısında duran əsas məqsəd isə odur ki, şagirdlər biliklərə yiyələnməklə yanaşı, özlərinin şəxsi fəaliyyətləri prosesində yeni biliklər "kəşf etsinlər". Müəllimlər şagirdlərin tədqiqatçılıq fəaliyyətini elə təşkil etməlidirlər ki, onlar problemin mahiyyətini anlasınlar. Şagirdləri müstəqil işləmək bacarıq və vərdişlərinə alışdırmaq, onların sinifdənxaric tədbirlərdə iştirakı müəllimin diqqət mərkəzində olmalıdır.

Müstəqil iş bilavasitə və ya dolayı yolla müəllimin rəhbərliyi altında həyata keçirilir və biliklərin möhkəmləndirilməsini təmin edir. Müstəqil işlər şagirdlərin təfəkkürünün inkişafına, tənqidiliyi və çevikliyinə zəmin yaradır, onlarda səbrli, dözümlü olmaq, başqalarını dinləmək, qarşılıqlı hörmət kimi xüsusiyyətlər formalaşdırır.

Son zamanlar şagirdlərin fiziki və əqli inkişafında müəllimlərin psixoloji biliklərə əsaslanan təcrübələri diqqətəlayiqdir.

Şagirdlərin təfəkkürünü inkişaf etdirmək üçün müəllimlər təfəkkür prosesinin xüsusiyyətlərinə bələd olmalıdırlar. Psixoloji ədəbiyyatda təfəkkürün 13 növü göstərilmişdir. Biz onlardan üçü üzərində dayanaq: tənqidi təfəkkür, dialektik təfəkkür, məntiqi təfəkkür.

• **Tənqidi təfəkkür** dedikdə, hər hansı hadisəyə şübhə ilə yanaşmaq, etiraz etmək, fikir söyləmək və s. nəzərdə tutulur.

• **Dialektik təfəkkür** dedikdə, hadisələrdə ziddiyyətlərin vəhdətini və mübarizəsini, yeniliklərin necə yarandığını görmək, onların inkişaf istiqamətlərini aşkar etmək nəzərdə tutulur.

• **Məntiqi təfəkkür** dedikdə, biliklərin zehni şəkildə qavranılması, keçmiş biliklərlə yeni biliklər arasında əlaqə yaratmaq başa düşülür. Bu, təbiət və cəmiyyətin qanunauyğunluqlarını düzgün başa düşmək, elmi dünyagörüşü formalaşdırmaq deməkdir.

Müəllimlər şagirdlərin təfəkkürünü inkişaf etdirmək qayğısına qalır və beləliklə, onların inkişafına şərait yaradırlar. Şagirdlərin təfəkkürünün inkişaf etdirilməsində aşağıdakı metod və priyomlar nəzərə alınmalıdır.

**Motivasiya.** Motivasiya, psixoloji amil kimi, hər hansı fəaliyyətin mexanizmini işə salan qüvvədir. Fəal dərsin ən mühüm, mürəkkəb mərhələlərindən biri motivasiyadır. Motivasiyanın həyata keçirilməsi prosesində müəllim onu işləyib hazırlamaq bacarıq və vərdişlərinə malik olmalı, onun yaradılması yollarını yaxşı bilməlidir. Dərsin gedişi məhz motivasiyanın necə yaradılması və həyata keçirilməsindən asılıdır. Motivasiyanın düzgün tətbiq edilməməsi şagirdlərin tədqiqata başlamalarına əngəl yarada bilər.

Motivasiyanın yaradılması yollarını 3 qrupa bölmək olar:

- rəmzi (simvolik) materialın şərhi;
- sual verməyə həvəsləndirmə;
- problemin müxtəlif yollarla həlli.

Rəmzi materiallar dedikdə, rəsm, fotoşəkil, əşyalar, ədəbi əsərdən parçalar, rəvayətlər, tapmacalar, qrafiklər, sxemlər və s. nəzərdə tutulur.

Müəllim motivasiya materialının təqdimatı prosesində şagirdlərə belə suallarla müraciət edir: "Bu, nəyi bildirir?; Öyrəndiyimiz mövzuya bunun nə kimi aidiyyəti var?" və s.

Motivasiyanın yaradılması yollarından ikincisi şagirdləri sual verməyə həvəsləndirmədir. Psixoloji ədəbiyyatda təfəkkür prosesini aktuallaşdıran sualların aşağıdakı növləri mövcuddur:

- aydınlaşdırıcı (müəyyənləşdirici) suallar;
- açıq suallar;
- yekunlaşdırıcı suallar.

Müəyyənləşdirici suallar bilavasitə öyrənilən mövzuda naməlum məsələləri aydınlaşdırmaq məqsədilə tərtib olunur. Müəllim yardımçı suallarla (" ... haqqında biz nəyi bilmirik, ... haqqında nəyi bilirik və nələri bilmək istərdik? ") şagirdlərin təfəkkürünü lazımi məcraya yönəltməlidir. Əgər öyrənilən mövzu ilə bağlı bir neçə cavab variantı olarsa, müəllim açıq suallardan ("nə üçün?, nəyə görə?, hansı yolla?, necə?") istifadə etməlidir.

Yekunlaşdırıcı suallar, əsasən, açar sözlərin köməyi ilə verilir. Açar sözlər öyrənilən mövzunun ən spesifik xüsusiyyətlərini bildirir. Şagirdlər onlara istinadən materialı daha dərindən dərk edirlər.

Motivasiyanın yaradılması şərtləri aşağıdakılardır:

• Motivasiya yaradılarkən öyrənilən materialın xarakteri, şagirdlərin yaş və bilik səviyyələri nəzərə alınmalıdır.

• Motivasiya müxtəlif fərziyyələrin meydana çıxması ilə nəticələnməlidir. Əgər fərziyyələr yoxdursa, deməli, motivasiya düzgün yaradılmayıb.

• Motivasiya prosesində bir həll variantı olan çalışmalardan istifadə edilməlidir.

Yeni mövzunun tədrisi zamanı müəllim öz bacarıqlarını daha aydın şəkildə göstərməlidir. Müəllimin peşəkarlığının əsas göstəricisi belədir: "Çalışıram ki, məlumatı şagirdlərə hazır şəkildə verməyim. Elə işləyirəm ki, şagirdlər bilikləri özləri "kəşf" etsinlər" [5, səh.53].

Deyilənlər onu göstərir ki, müəllim problemli təlimi həyata keçirir. Problemli təlimin mənasını belə ifadə etmək olar: "biliklərin yaradıcı mənimsənilməsini təmin edən təlim metodu".

Hər şey dərsdə problemli vəziyyətin yaradılmasından, şagirdin anlaşılmazlıqla qarşılaşmasından başlanır. Alimlər problemi müəmmalı sfinksə bənzədirlər. Sfinks tələb edir: "Məni həll et, yoxsa səni məhv edərəm". Bunun ardınca problemin həllinin axtarışı gedir. Problemin həlli tapılanda "Evrika!" sözü səslənir, çünki yeni biliklər "kəşf" edilib.

Alimlər belə qənaətə gəliblər ki, təfəkkür müəyyən maneəni dəf edəndə onun inkişafı yüksəlir.

Problemli təlim üç mərhələdə həyata keçirilir:

- biliklərin problemli izahı;
- axtarış xarakterli söhbət;
- tədqiqatın aparılması.

Dərsdə problemli vəziyyət o zaman yaradılır ki, şagird konkret problemlə qarşılaşır, əldə edilmiş biliklərlə yeniləri arasında uyğunsuzluq yaranır.

Müstəqil əldə edilmiş bilik möhkəm və dərin olur, çünki o, şagirdə hazır şəkildə verilmir. Bu, şagirdin tədqiqatçılıq fəaliyyətinin nəticəsidir. Şagirdlər bilik və bacarıqları sərbəst idarəetmə vərdişlərinə, əqli iş vərdişlərinə yiyələnirlər. Nəhayət, problemli təlim yolu ilə öyrənilən materiala dərketmə marağı təmin olunur.

Yeni mövzuya maraq yaratmaq üçün öyrənilən materialın vacibliyini şagirdlərə izah etmək lazımdır. Bu məqsədlə "problemli vəziyyət" yaradılır. Elə suallar və tapşırıqlar seçilir ki, cavab vermək üçün şagirdlərin indiyə qədər öyrəndikləri biliklər kifayət etmir.

Təlimin məqsədi şagirdi yaradıcı fəaliyyətə qoşmaq, onu təlimin subyekti kimi formalaşdırmaqdır.

Problemli təlimin məqsəd və vəzifələri təlimdə biliyin mexaniki mənimsənilməsi elementlərini aradan qaldırmaq, şagirdlərin düşünmə bacarığını fəallaşdırmaqdır.

Müəllim-şagird münasibətləri haqqında görkəmli gürcü pedaqoqu, prof. Şalva Amonaşvili belə demişdir: "Təlim-tərbiyə prosesində şagird şəxsiyyətinin formalaşması üçün onu müəllimin əməkdaşına, həmfikrinə çevirmək lazımdır. Şagirdi pedaqoji prosesin bərabərhüquqlu iştirakçısına, həmçinin bu prosesə və onun nəticələrinə cavabdeh olan şəxsə çevirmək lazımdır. Müəllim-şagird münasibətlərini yaxşılaşdırmaq üçün o, şagirdlərini hərtərəfli öyrənməlidir". [6, səh. 28]

Müəllim-şagird münasibətləri dedikdə, aşağıdakılar nəzərdə tutulur:

- həyatını uşaqlara həsr etmək, onları sevmək, daim yaradıcı, yorulmaz olmaq;
- şagirdlərlə əməkdaşlıq edərkən onların hüquqlarını qorumaq, nüfuzlarına toxunmamaq;
- şagirdin qavrama qabiliyyətinə, marağına, bacarıqlarına fərdi yanaşmaqla əməkdaşlıq etmək.

Müxtəlif priyomlarla (paylama, layihələşdirmə, şəkil çəkmək, tərtib etmək) şagirdlərin hər biri ilə əməkdaşlıq etmək, onları fəallaşdırmaqla müəllim-şagird münasibətlərini inkişaf etdirmək olar.

Sinifdənxaric və məktəbdənkənar tədbirlərin sinif rəhbəri ilə fənn müəllimi tərəfindən birgə həyata keçirilməsi də müəllim-şagird əməkdaşlığının genişləndirilməsinə şərait yaradır.

Müəllim–şagird əməkdaşlığı təhsilin demokratikləşdirilməsinin əsas amillərindən biridir.

Əməkdaşlığın iki forması olur:

**1. Avtokratik əməkdaşlıq**. *Avto* latınca *mən, özüm, kratos* isə *hakimiyyət* deməkdir. Avtokratik əməkdaşlıq dedikdə, şagirdə amirlik tərzində yanaşma nəzərdə tutulur. Bu halda müəllim heç kəsin rəyini nəzərə almır, heç kəslə hesablaşmır. Avtoritar yanaşmada müəllim özünü hökmran hesab edir. Bəzən o, şagirdlə kobud rəftar edir, hətta təhqirə keçir.

**2. Demokratik əməkdaşlıq.**

- Müəllim şagirdlərlə işgüzar münasibətdə olur.
- Müəllim şagirdlərin arzu və maraqlarını, pedaqoji-psixoloji xüsusiyyətlərini nəzərə alır.
- Hər cür inzibatçılıq, amirlik, bürokratlıq, idarəçilik rədd edilir.
- Demokratiya xoşməramlı münasibət və ünsiyyət yaratmaqdır. (Bunun üçün müəllimin pedaqoji taktı və təşkilatçılıq bacarığı vacibdir).

Təlim-tərbiyə prosesinin demokratikləşdirilməsi dedikdə, şagirdlərin ehtiyaclarına humanistcəsinə yanaşma başa düşülür.

Yeni təhsil islahatı müəllimlərin qarşısında mühüm vəzifələr qoymuşdur: şagirdləri elmlərin sirlərinə dərindən yiyələndirmək, biliklərlə silahlandırmaq, onlarda biliklərini müstəqil artırmaq, təcrübədə tətbiq etmək bacarıq və vərdişləri formalaşdırmaq, dərketmə, mühakimə yürütmə qabiliyyətlərini inkişaf etdirmək və s.

Məktəbin demokratik qaydada idarə edilməsində valideynlərin də rolu böyükdür. Qarşıya qoyulmuş mühüm vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsində pedaqoji kollektivin ən yaxın köməkçiləri valideynlər olmalıdırlar, çünki məktəbin və ailənin məqsədi birdir: gələcəyimiz olan

övladlarımızı bilikli, bacarıqlı, əməksevər, vətənpərvər, humanist şəxsiyyətlər, cəmiyyətimiz üçün ləyaqətli vətəndaşlar kimi yetişdirmək. "Nə məktəb, nə də ailə ayrı-ayrılıqda bu məqsədə tam nail ola bilməz. Ona görə də hər bir ailənin məktəblə əməkdaşlığı ailə-məktəb tərbiyəsinin dərk edilən və düzgün qoyulan vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmək üçün ən zəruri şərtdir". [8,səh.61]

Kiçik bir "dövlət" olan ailəyə valideyn rəhbərlik edir. O, ailə tərbiyəsinin əsasını təşkil edir, uşağa anadan olduğu ilk günlərdən tərbiyəvi təsir göstərir. Bu təsir uşağın məqsədyönlü formalaşması prosesinin əsasını təşkil edir.

Azərbaycan Respublikasının Konstitusiyasında qeyd edilmişdir ki, hər bir yaşlı Azərbaycan vətəndaşı uşaqların tərbiyəsinə qayğı göstərməli, onları ictimai-faydalı əməyə hazırlamalı, cəmiyyətimiz üçün layiqli şəxsiyyətlər kimi yetişdirməlidir. Bu işdə hər bir məktəbin öz fəaliyyətini valideynlərlə sıx əlaqələndirməsi, uşaqların tərbiyə olunması sahəsində ailələrə köməyi vacibdir. Valideyn məktəblə sıx əlaqə saxlamalı, övladının təlim-tərbiyəsi ilə müntəzəm maraqlanmalıdır. Belə olduqda şagird də valideyn nəzarətinin gücünü görür, dərslərinə məsuliyyətlə yanaşır. Valideyn nəzarətinin zəifləməsindən, yaxud olmamasından istifadə edən şagirdlər zəif oxuyur, yad təsirlər altına düşür, məktəbdən yayınırlar.

Təhsil islahatı proqramında deyilir ki, əmək kollektivləri uşaqların tərbiyəsini daim diqqət mərkəzində saxlamalı, bu işdə valideynlərə kömək etməli və ailə tərbiyəsindəki qüsurları, çatışmazlıqları aradan qaldırmaqda ciddi tələbkarlıq göstərməlidirlər. "Valideynlər ailədə uşaqları kiçik yaşlarından rejimə alışdırmalı, yeməkdə, yatmaqda, oynamaqda, ev tapşırıqlarını yerinə yetirməkdə ciddi rejim gözləməlidirlər" [1, səh. 23]. "Müəllimlər isə valideyn iclasları ilə kifayətlənməməli, tez-tez valideynlərlə görüşməli, övladlarının təlim-tərbiyəsi haqqında onlara məlumat verməlidirlər. Hər həftənin şənbə günü məktəbdə "açıq qapı" elan edilməli, bu haqda valideynlərə məlumat verilməlidir. "Açıq qapı" günündə məktəbin direktoru, müavinlər, məktəb psixoloqu, sinif rəhbərləri və fənn müəllimləri də fəal iştirak etməlidirlər. Bu görüşlər iclas xarakteri daşımamalıdır. Bu görüşlər müsahibə, məsləhətləşmə, səmimi dialoq şəklində aparılmalıdır". [9, səh. 32]

İnsan tərbiyənin və ictimai həyat şəraitinin məhsuludur. Uşaq düzgün tərbiyə edildikdə nəinki valideynlərin, müəllimlərin rəğbətini qazanır, həmçinin cəmiyyətin fəal üzvü olur.

Beləliklə, şagirdlərin düzgün tərbiyə olunmaları, elmlərə dərindən yiyələnmələri üçün müəllimlər valideynlərlə əlaqə yaratmalıdırlar. Bu, onların müvəffəqiyyətlərinə müsbət təsir göstərir.

Bildiyimiz kimi, şagirdlərin təfəkkürünün inkişaf etdirilməsinin birinci mərhələsi dərsdə, ikinci mərhələ sinifdənxaric və məktəbdənkənar işlərin təşkili prosesində, üçüncü mərhələ ailədə təlim-tərbiyənin təşkilinə, pedaqoji kollektivin valideynlərə pedaqoji köməyi ilə həyata keçirilir.

Şagirdlərin təfəkkürünün inkişafında sinif saatlarının rolu böyükdür. Bir neçə sinif saatının planını nəzərdən keçirək:

**Mövzu 1. Mənim yaxın adamlarım və mən**

Məşğələ üçün suallar:

1. *Mənə doğma olan insanlar kimlərdir?*
2. *Mənim doğmalarım qarşısında borcum nədən ibarətdir?*
3. *Nə üçün onlar mənim qayğıma qalırlar?*

**Müşahidə etməli:**

1. *Mənim yaxın adamlarımı nə sevindirir, nə kədərləndirir?*
2. *Onlar bir-birinə necə münasibət bəsləyirlər?*
3. *Mənə münasibətləri necədir?*
4. *Mən onların qayğısına necə qalıram?*

**Tapşırıqlar:**

1. *öz valideynlərindən onların keçmişləri, indiki işləri və qayğıları barədə soruşmaq;*
2. *hazırda həyatda olmayan, yaxın insanlar (nənə, baba və b.) haqqında öyrənmək;*
3. *baba,nənə, ata, ana, bacı, qardaş haqqında kiçik hekayələr yazıb, kitabça tərtib etmək;*
4. *qohumların rəsmlərini çəkib, sərgi təşkil etmək.*

**Vəzifələr:**

1. *öz yaxınlarının qayğısına qalmaq, onlara daim diqqətli, həssas olmaq;*
2. *ev işlərində onlara kömək etmək;*
3. *həmişə onları sevindirməyə çalışmaq.*

Sonda qeyd etmək istərdim ki,əsl müəllim öz taleyinə, sənətinə görə ömürlük möcüzəli "Uşaqlıq ölkəsi"nin vətəndaşıdır. Müəllimin məharəti ondadır ki, o, pedaqoji prosesi təşkil etməyi bacarsın, yüksək bilik səviyyəsi və müdriklik zirvəsindən mürəkkəb uşaq dünyasına daxil olsun, uşaqlarda biliyə və əməyə həvəs oyatsın, onları xeyirxah işlərə sövq etsin.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasını təhsil sahəsində İslahat Proqramı. Bakı, 1999.
2. Linsker S. Seçilmiş əsərləri. Bakı, 2004.
3. Əlizadə H., Əliyev B. Psixologiya. Bakı, 2007.
4. Kazımov A.,Osmanova T. Azərbaycan dili dərslərində interaktiv təlim metodları. Bakı: "Elm və təhsil", 2016.
5. Kərimov Y.Ş. Təlim metodları. Bakı: RS "Poliqraf" MMC, 2007.
6. Amonaşvili Ş. Seçilmiş pedaqoji əsərləri. Tbilisi, 1985.
7. Həsənov H. Təlimin prinsipləri. Bakı, 2003.
8. Qaragözova N. Təlimin müasir metodları. Bakı, 2004.
9. Həsənova X. Məktəb, ailə və valideyn münasibətləri. Bakı, 2008.


**Теоретическое обоснавание и взаимоотношения учителя с учениками в педагогическом аспекте**


**резюме**

В статье анализируются современные проблемы образования и их роль, место и значение в процессе обучения азербайджанскому языку.


**Theoretical based and teacher and pupil relation in the aspect of pedagogue abstract**


**summary**

The article analyzes modern problems of education and their role, place and importance in the process of teaching the Azerbaijani language.


# *MÜƏLLİM HAQQINDA*

*Dünyada hər şeyə dəyər vermək mümkündür, lakin müəllimin əməyinə əsla düzgün dəyər verilə bilməz.*

***Sokrat***

*Müəllim bir şama bənzər – özünü əridərək başqalarına işıq verər.*

***Atatürk***

*Müəllimlərdən işgəncə görməyən həyatda zülm çəkər.*

***A. Disterveq***

*Pis müəllim şagirdinə həqiqəti çatdırır, yaxşı müəllim isə onu tapmağı öyrədir.*

***A. Disterveq***

*Atam məni bu dünyaya gətirib, müəllimim isə mənə bu dünyada həqiqi səadət yolunu tapmaqda yol göstərib.*

***Aristotel***

# İBTİDAİ SİNİFLƏRDƏ QİYMƏTLƏNDİRMƏNİN TƏTBİQİ

**Günel Baloğlanova,**
Bakı Mühəndislik Universitetinin magistrantı,
e-mail: baloğlanovagunel@gmail.com



**açar sözlər:** ibtidai siniflər, qiymətləndirmə, formativ qiymətləndirmə, summativ qiymətləndirmə, qiymətləndirmənin tətbiqi;

**ключевые слова:** начальные классы, оценивание, формативное оценивание, суммативное оценивание, применение оценивания;

**key words:** initial classes, evaluation, formative evaluation, summary estimation, application of estimation.

Təhsil sistemində aparılan islahatlara qiymətləndirmə sahəsində görülən işlər də daxildir. 2009-cu il, yanvar ayının 13-də Nazirlər Kabinetinin 9 nömrəli qərarı ilə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" təsdiq olunaraq istifadəyə verilmişdir.Yeni qiymətləndirmə sisteminin yaradılmasında əsas məqsəd təhsilin keyfiyyətini artırmaqdan ibarətdir.

Qiymətləndirmə şagirdlərin inkişafını izləməyə, təlim prosesinin gedişi və nəticələri haqqında məlumat əldə etməyə imkan verir. Qiymətləndirmə şagird şəxsiyyətinin formalaşmasına təsir göstərərək, onda öz müvəffəqiyyətlərinə, həmçinin yoldaşlarının nailiyyətlərinə tənqidi münasibət bəsləməyi öyrədir. Bu, hər bir şagirddə məsuliyyət hissini artırır.

Yeni qiymətləndirmə sisteminin hansı səviyyədə tətbiq olunmasını aşkara çıxarmaq məqsədilə Sumqayıt şəhər 21 nömrəli tam orta məktəbin ibtidai siniflərində tədqiqat apardım.

Həmin siniflərdə tədris prosesi kurikulumun tələblərinə uyğun olaraq, yeni qiymətləndirmə qaydaları əsasında həyata keçirilir. Qiymətləndirmə *beynəlxalq, milli* və *məktəbdaxili* olmaqla üç növə ayrılır. Ümumtəhsil məktəblərində *məktəbdaxili qiymətləndirmədən* daha geniş istifadə olunur. Məktəbdaxili qiymətləndirmə *diaqnostik, formativ* və *summativ* olmaqla, üç istiqamətdə aparılır. Bu qiymətləndirmə növlərindən istifadə etməklə təhsilalanların bilik və bacarıqları haqqında məlumat toplamaq üçün əlverişli şərait yaranır.

İbtidai təhsil pilləsində qiymətləndirmənin düzgün həyata keçirilməsi üçün onun növlərindən, metod və vasitələrindən məqsədəuyğun şəkildə istifadə etmək vacibdir.

İbtidai siniflərdə ilkin səviyyənin yoxlanması, əsasən, dərs ilinin əvvəlində, şagird sinfi və ya məktəbi dəyişdikdə, təhsilalanın hansı bilik və bacarıqlara malik olduğunu müəyyənləşdirmək üçün **diaqnostik** qiymətləndirmədən istifadə edilir. Diaqnostik qiymətləndirmə *müşahidə, şifahi sorğu, tapşırıqvermə* yolları ilə həyata keçirilir. Tapşırıqvermə ən əlverişli yoldur. Bu yolla müəllim dərs ili başlananda əvvəlki siniflərdə öyrənilmiş, dərs ili ərzində isə yeni bəhs və bölmələrə aid çalışmalardan istifadə edərək, uşaqların bilik səviyyəsi haqqında məlumata yiyələnir. Şagirdlərin hazırlıq səviyyələrindən asılı olaraq diaqnostik qiymətləndirmə test tapşırıqları vasitəsilə də aparıla bilər. Diaqnostik qiymətləndirmənin aparılması formaları siniflərə uyğun olaraq dəyişir. Müəllim təlim prosesində I sinif şagirdi ilə davamlı diaqnostik qiymətləndirmə aparmaq üçün şagirdin şəxsi, sosial-emosional, fiziki və idraki inkişafını müntəzəm izləməli, onun hansı imkanlara, bacarıqlara malik olduğunu öyrənməlidir. Diaqnostik qiymətləndirmənin nəticələri sinif jurnalında qeyd olunmur. Müəllim bu nəticələri öz dəftərində qeyd edir. Valideynlər, fənn müəllimləri nəticələr haqqında məlumatlandırılırlar.

Qiymətləndirmənin digər forması müəllimin müntəzəm müşahidələrinə əsaslanan, irəliləmə və geriləmələri qeydə almaqla həyata keçirilən **formativ** qiymətləndirmədir. Formativ qiymətləndirmənin əsasını keçilən mövzuların mənimsənilmə səviyyəsinin müəyyən olunması təşkil edir.

Müəllim bu qiymətləndirmə növünü tətbiq edərkən, əsasən, müstəqil yaradıcı fəaliyyətə istiqamətləndirən tapşırıqlar verir, uşaqları müstəqil düşünməyə alışdırır.

İbtidai siniflərdə müəllimlərin ən çox istifadə etdikləri qiymətləndirmə vasitələrindən biri də **testlərdir.** Müəllimlərlə apardığım müsahibələrdən aydın oldu ki, onlar proqramdan kənara çıxaraq, keçilən mövzunun nə dərəcədə mənimsənilməsinə əmin olmaq üçün həftədə 1–2 dəfə test yoxlamaları təşkil edirlər. Təbii ki, bütün müəllimlər eyni fikirdə deyillər. Onların bəziləri proqramdan kənara çıxmır, hər bölmənin və ya bəhsin sonunda aparılan kiçik summativ qiymətləndirmə ilə kifayətlənirlər.

Ənənəvi təlimlə müasir təlim arasındakı əsas fərqlərdən biri məhz formativ qiymətləndirmənin rəqəmlərlə deyil, meyarlarla ifadə olunmasıdır. Formativ qiymətləndirmə nəticəsində şagird gündəlik təlim fəaliyyəti ərzində qiymət almaq üçün deyil, yüksək nəticələrə nail olmaq üçün fəaliyyət göstərir.

Ənənəvi təlim sistemində qiymətləndirmə konkret rəqəmlərlə (2 – *qeyri-kafi*, 3 – *kafi*, 4 –*yaxşı,* 5– *əla* ) aparıldığı üçün, müasir qiymətləndirmə metodları müəyyən mənada valideynlərin narahatlığına səbəb olur. Müəllimlər yeni qiymətləndirmə sisteminin mahiyyətini valideynlərə düzgün izah etdikdə bu narahatlıqlar aradan qalxır. Müasir təlim prosesində artıq valideynlər yeni qiymətləndirmə sisteminə uyğun olaraq "Sözləri oxuyur, lakin onları hecalara ayırmaqda çətinlik çəkir", "Əməli yerinə yetirə bilmir" kimi ifadələri oxuyarkən problemin mahiyyətini anlayır və onun aradan qaldırılmasına çalışırlar.

Ənənəvi təhsil sistemində müəllim qiymətləndirmə zamanı sinifdə hər fənn üzrə ən çoxu 5–6 şagirdin biliyini qiymətləndirə bilirdi. Bundan fərqli olaraq, müasir qiymətləndirmədə daha çox şagirdin biliyi qiymətləndirilir. Müasir qiymətləndirmə sözlərlə ifadə olunduğundan müəllimlər üçün bir qədər çətinlik yaradır və vaxt məhdudiyyəti meydana çıxır. Formativ qiymətləndirmənin nəticələri şagirdin məktəbli kitabçasında qeyd olunsa da, sinif jurnalında yazılmır. Nəhayət, bütün şagirdlərin qiymətləndirilməsini həyata keçirən **summativ** qiymətləndirmə müasir qiymətləndirmədə həlledici rol oynayır.

*Summativ qiymətləndirmə* kiçik (**ksq**) və böyük (**bsq**) olmaqla bəhs və ya bölmənin, yarımilin sonunda tədrisə yekun vurur, şagirdin nailiyyət səviyyəsini müəyyən etmək məqsədilə aparılır. Summativ qiymətləndirmənin nəticələri həm şagirdin məktəbli kitabçasında, həm də sinif jurnalında qeyd olunur.

Hələ ibtidai siniflərdə oxuyan şagirdlərlə tez-tez kiçik, rübün sonunda böyük summativ qiymətləndirmələrin aparılması müəyyən problemlərin yaranmasına səbəb olur.

I sinfə qədəm qoyan uşaqlar testlərin mahiyyətini başa düşmürlər. Həmin vaxtdan başlayaraq uşaqların test tapşırıqları vasitəsilə qiymətləndirilməsi onlarda başqa meyillərin yaranmasına səbəb olur. Onlarda hələ nitqin inkişaf etməməsi fikrin düzgün ifadə olunmaması, əzbərçilik kimi çatışmazlıqların yaranmasına səbəb olur. I sinfə gələn uşaq əlifbanı yeni öyrənərək oxumağa başlayır. Onu imtahan etmək, biliyini testlərlə qiymətləndirmək o qədər də məqsədəuyğun deyil. Hələlik onların biliyini qiymətləndirməyə, keçilmiş mövzuların nə dərəcədə mənimsənildiyini öyrənmək üçün tez-tez imtahan etməyə ehtiyac yoxdur.

Keçilmiş materialın nə dərəcədə mənimsənildiyini aşkar etmək üçün uşaqların biliyini sərbəst mövzularda yoxlamağa cəlb etməklə, esselər yazdırmaqla, açıq tipli məsələ və misallar üzərində çalışdırmaqla da qiymətləndirmək olar. Həmin yollardan ənənəvi təlimdə də istifadə olunub. Bu, test tapşırıqlarının tərtibinə sərf olunan vaxt cəhətdən də daha əlverişlidir. "Yeni qiymətləndirmə metodları kurikulumun tələbidir" deyə, müəllimlərdən yerli-yersiz yeniliklərin tətbiqini tələb etmək olmaz. Təhsilə, təlimə yaradıcı yanaşmaqla daha yüksək nəticələr əldə etmək mümkündür.

Məktəblərdə həyata keçirilən kiçik və böyük summativ qiymətləndirmələrin yaratdığı problemlər valideynlərin də narazılığına səbəb olur. Onlar uşaqlarının aşağı siniflərdə imtahan olunmalarından, test tapşırıqlarnın çətinliyindən şikayətlənirlər.

Müəllimlər bəzən kiçik və böyük summativ qiymətləndirmələrı hazırlayarkən yalnız dərslikdən deyil, əlavə materiallardan da istifadə etdikləri üçün şagirdlər çətinlik çəkirlər.

Əlavə vəsaitlər (Nayma Qəhrəmanova, Aygün Məcidova, Əlican Namazov və b.) lisey və gimnaziyalarda təhsil alan şagirdlər üçün nəzərdə tutulduğundan orta məktəblərdə aparılan summativ qiymətləndirmələrdə bu vəsaitlərdən sualların salınması məqsədəuyğun deyil. Belə vəsaitlərdən istifadəyə orta məktəblərdə icazə verilməməsinə baxmayaraq, bəzi müəllimlər bu vəsaitləri valideynlərə aldırır, ibtidai siniflərdə texnologiya, təsviri sənət, fiziki tərbiyə fənlərinə verilən saatların hesabına bu vəsaitlərin işlənməsinə üstünlük verirlər.

Xoşagəlməz hallardan biri də summativ qiymətləndirmənin təminatında müəllim və valideynlər arasında yaranan təmənnalı münasibətlərdir. Kiçik və böyük summativ qiymətləndirmə vasitələri dövlət tədris müəsisələrinin hesabına deyil, valideynlərdən yığılan maddi yardım sayəsində təmin olunur. Yeni qiymətləndirmə sistemi yarandığı və həyata keçirildiyi gündən tədris müəssisələrində belə özbaşınalıqlar hələ də davam edir. Bu da tədris müəsisələri rəhbərlərinin müəllimlərin fəaliyyətinə və tədris prosesinə nəzarətinin zəif olmasının nəticəsidir.

Şagirdlərin təlim nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsi təlim prosesini izləməyə, təhsilin keyfiyyətini yüksəltməyə, valideynləri məlumatlandırmağa xidmət edən yeganə pedaqoji vasitədir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı: "Çaşıoğlu", 1999.
2. Abdullayev A., Abdullayeva S. İbtidai təhsilin pedaqogikası. Bakı: "Elm", 2016.
3. Ağamalıyev R., Qardaşov T., Mehrabov A., Mərdanov M. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı: "Çaşıoğlu", 2003.
4. Cavadov İ., Mehrabov A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə . Bakı: "Mütərcim", 2007.
5. Kərimov Y. Seçilmiş əsərləri. (II cild). İbtidai təhsilin nəzəri problemləri. Bakı: "Pedaqogika", 2007.


**Применение оценивания в начальных классах**
**резюме**


В этой статье рассматривается применение современной системы оценивание на уровне начальных классов в средних школах. Отражается основные типы и средства оценивания, так же отмечаются некоторые недостатки.


**The application of evaluation in primary school**
**summary**


This article discusses the application of a modern assessment system at the primary school level in secondary schools. The main types and means of evaluation are reflected, as are some shortcomings.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏRBİYƏSİNDƏ İSLAM DƏYƏRLƏRİNDƏN İSTİFADƏ

**Vaqif Kərimov,**
ARTİ-nin aparıcı elmi işçisi,
pedaqogika üzrə fəlsəfə doktoru



**açar sözlər:** məktəbəqədər yaşlı uşaqlar, tərbiyənin bünövrəsi, ilkin tədbirlər, islam dini, islam dəyərləri, Quran-i Kərim, mənəvi dəyərlər;
**ключевые слова:** дети дошкольного возраста, фундамент воспитания, первоначальные действия, ислам, исламские ценности, Коран, нравственные ценности;
**key words:** preschool-aged children, nurturing the foundation, the initial actions, islam, islamic values, the Quran, moral values.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsi təhsil sahəsində görülməli işlərin ən əhəmiyyətlisi hesab olunur.Tərbiyənin bünövrəsi məhz bu dövrdə qoyulur. Uşaq nə qədər kiçikdirsə, daha çox diqqət və qayğı tələb edir. Bu dövrdə hamı – valideynlər, qohum-qardaş uşağın düzgün tərbiyəsinə cavabdehdir. Əgər uşaq məktəbəqədər müəssisəyə gedirsə, tərbiyəçi, ümumiyyətlə, yaşlılar onun fiziki, əqli, intellektual hazırlığı ilə məşğul olmalı, hərtərəfli inkişafını təmin etməlidirlər.

Uşaqlara işdə məsuliyyət hissi, yaşlıların nümunəsini izləmək, kor-koranə təqlidçilikdən çəkinmək öyrədilməlidir. Dinin mahiyyəti, ona itaət etməyin əhəmiyyəti, "Qurani-Kərim"in meydana gəlməsi, "Quran"da əxlaq və mənəviyyat məsələləri onlara sadə şəkildə başa salınmalıdır. Bütün bunlar ilk növbədə uşaqlara yüksək insani hisslərin, ümummilli dəyərlərin aşılanmasını təmin edir. Bu baxımdan onlara ilkin dəyərlərin çatdırılması xüsusi əhəmiyyət kəsb edir. Müasir dövrdə təhsildə hökm sürən demokratiya, müstəqil fəaliyyət əzmi balalarımızı milli adət-ənənələrə, soykökümüzə bağlılıq ruhunda tərbiyə etməlidir.

Milli şüurun ilkin ünsürləri məktəbəqədər müəssisələrdə qoyulur. Allah insanları düzgün yola dəvət etmək üçün peyğəmbərlər vasitəsilə islam dinini göndərmişdir. Sonuncu və ən mükəmməl din olan islam bütün insanlara kömək göstərərək, onları bu ədalətli və xilasedici yoldan istifadə etməyə yönəldir. Düzgün əqidələr məcmusu olan islam dini insanları yaxşı əməllərə, ədaləti, qayda-qanunu gözləməyə sövq edir.

Tərbiyəçi islam dini haqqında mükəmməl məlumata malik olmalıdır. Bunun üçün o, "Qurani-Kərim"i və başqa dini kitabları oxumalı, onlarda yazılanları dərk etməlidir. Tərbiyəçi bilməlidir ki, Allah insanları səlahiyyətli xəlq etmiş, onların maddiyyata istək və meyillərini hüdudsuz etmişdir ki, çalışmağa, irəliləməyə yönəldən amillərin müqəddiməti çox olsun. İnsanların meyilləri toqquşduqda islam dinindən istifadə etməklə onları nizamlamaq, düzgün istiqamətləndirmək mümkün olsun. İslam dini dünyaya, sülhə, insanpərvərliyə, əmin-amanlığa məhəbbət mövqeyindən yanaşır. İslam dini xoşbəxtliyə qovuşmaq deməkdir.

Tərbiyəçi namaz qılan valideynlərin, dindarların övladlarına, məscidlərin yaxınlığında yaşayan, hər gün azan səsi eşidən uşaqlara başa salmalıdır ki, insanların müqəddəs arzuları islamla bağlıdır. Bu, Allaha iman gətirmək deməkdir.

Uşaqlar get-gedə inkişaf edəcək, "Qurani-Kərim"i oxuyacaq, məktəbdə islam dininin başqa dinlərdən fərqini anlayacaqlar.

Müasir dövrdə xalqımız öz soy-kökünə, milli dəyərlərinə qayıdır. Belə bir şəraitdə təmiz əxlaqlı, bilikli, nümunəvi davranışlı şəxsiyyət yetişdirmək üçün mənəvi dəyərləri islam dəyərləri ilə

vəhdətdə mənimsətmək lazımdır. Rəsuli-Əkrəm hədislərinin birində: "Mən əxlaq gözəlliklərini tamamlamaq üçün göndərilmişəm" deyir. Deməli, islam dini inam, etiqad məsələləri ilə yanaşı, gözəl əxlaqı da ön plana çəkir və hər bir müsəlmandan gözəl əxlaq sahibi olmasını tələb edir. Bu dəyərli mənbədən daim bəhrələnməli, nümunə götürməli, uşaqlarımızı da bu ruhda tərbiyə etməliyik.

Uşaqlar, hər şeydən əvvəl, həqiqətpərəst insan olmağa çalışmalıdırlar. Onlar bilməlidirlər ki, düzlük yüksək mənəvi keyfiyyətdir. Düzlük geniş mənada həmişə xalqın mənafeyindən, obyektiv çıxış etməklə müəyyənləşdirilir. Bu keyfiyyət insanların fəaliyyətlərinin bir-birinə uyğun gəldiyini bildirir. Həqiqəti təhrif etməmək, şəxsi mənfəət üçün başqasını aldatmamaq düzlüyün əsasını təşkil edir. Düzlüyü vərdişə çevirmək üçün tərbiyəçilər islam dəyərlərindən istifadə edə bilərlər.

Təcrübə göstərir ki, kiçikyaşlı uşaqlar üç halda yalan danışırlar:

- öz arzularını, maraqlarını, daxili tələbatlarını həyata keçirmək məqsədilə;
- öz fantaziyalarını başqalarına çatdırmaq və onlara subyektiv təsir göstərmək məqsədilə;
- öz qəbahətlərini başqalarından, xüsusilə böyüklərdən gizlətmək məqsədilə.

Ailədə valideynlər arasında qarşılıqlı etibar, düzlük, verilən sözə əməl etmək, yalan danışmamaq kimi müsbət xüsusiyyətlərin olması uşağın normal tərbiyəsi üçün zəruridir. Valideynlər, tərbiyəçilər elə davranış nümunəsi göstərməlidirlər ki, uşaqlar başqalarının davranışlarını ədalətlə qiymətləndirə bilsinlər.

Uşaqların bir qismi körpəlikdən islam dəyərlərini öyrənmək istədiklərinə baxmayaraq, bu biliklərin əhatə dairəsi müəyyən edilmədiyindən, metodikası işlənmədiyindən problemin həllində çətinliklər yaranır, onlarda yüksək əxlaqi keyfiyyətləri formalaşdırmaq mümkün olmur. Bu istiqamətdə aşağıdakı vəzifələrin yerinə yetirilməsi zəruridir.

- islam dəyərlərindən məktəbəqədər yaşlı uşaqlara öyrədilməsi zəruri olan məsələlərin məzmununu müəyyənləşdirmək;
- islam dəyərlərindən istifadənin pedaqoji-psixoloji əsaslarını öyrənmək;
- bu dəyərlərin öyrədilməsi imkanlarını, forma və yollarını işləyib hazırlamaq.

Şübhəsiz, kiçikyaşlı uşaqlara islam dəyərlərini öyrətmək çətindir. Onların yaşlarına müvafiq dəyərləri düzgün seçmək, öyrədilməsi yollarını, prinsiplərini müəyyənləşdirmək tərbiyəçidən xüsusi məharət tələb edir. Bu prinsiplər hansılardır?

- materialın uşaqların yaş xüsusiyyətlərinə, dərketmə imkanlarına görə seçilməsi;
- materialın mövcud təlim-tərbiyə sisteminə, adət-ənənələrə görə seçilməsi.

Uşaqları islam dəyərləri ruhunda tərbiyə etmək üçün tərbiyəçi bu işin pedaqoji-psixoloji əsaslarını bilməlidir. Bu pedaqoji-psixoloji əsaslar hansılardır?

- Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində islam dəyərlərindən istifadə zamanı onların yaş xüsusiyyətləri nəzərə alınmalıdır.
- Tərbiyəçi məşğələdənkənar tədbirlər üçün seçilmiş əsərin uşaqların mənəvi aləminə necə təsir edəcəyini götür-qoy etməli, onun məzmunundan çıxış edərək hansı tərbiyəvi keyfiyyətləri aşılayacağını müəyyənləşdirməli, onların uşaqlara necə mənimsədilməsi problemi üzərində düşünməlidir.
- Bu prosesdə hər bir uşağın fərdi xüsusiyyətləri nəzərə alınmalıdır.

İslam dəyərlərinin köməyi ilə uşaqlarda vətənpərvərlik, düzlük, doğruçuluq, əməksevərlik, dostluq, qayğıkeşlik, yaşlılara hörmət, məhəbbət, mərdlik və s. kimi mənəvi keyfiyyətlər asanlıqla tərbiyə olunur. Faydalı cəhət odur ki, onlarda mənfi keyfiyyətlərə nifrət hissi də yaranır.

Bədii əsəri oxuyarkən sadəcə olaraq ondakı dəyərlərin əhəmiyyətini öyrənmək azdır. Uşaq həmin dəyərlərə yiyələnmək üçün ciddi səy göstərməlidir.

Daha bir pedaqoji əsas şəxsi nümunədir.Tərbiyəçinin və valideynlərin şəxsi nümunəsi uşaqlarda islam dəyərlərinə xüsusi məhəbbət oyadır.

Din insanların seçib bəyəndikləri, inandıqları dəyərlər sistemidir, elə bir ilahi məktəbdir ki, insanları inamla tərbiyə edir. İslam dini ilahi bir tərbiyə qanunu, hər kəsin imanlı, kamil insan olmasını təmin edən qaydalar məcmusudur. İslam dini milli mənsubiyyətimizi müəyyənləşdirən, şərtləndirən mənbələrdən biridir.

İslam dininin məzmununda yüksək əxlaqi keyfiyyətlərə yiyələnmək üçün zəngin fikirlər mövcuddur. Peyğəmbərimiz kimsəsiz, ata-anasız uşaqları gördükdə son dərəcə qəhərlənmiş, öz mərhəmətini onlardan əsirgəməmişdir. Məhəmməd Peyğəmbər (s.ə.s.) demişdir: "Yetimlərə yaxşı baxın. Yetimlər cəmiyyətə əmanətdir. Ata-ana şəfqətindən məhrum olan bu biçarə məsumları qorumaq lazımdır. Hamiləri yoxdur deyə, onların mallarına əl uzatmaq ən böyük vicdansızlıqdır". "Verilən sözə əməl edin", "Əhdə vəfa lazımdır", "Verdiyi sözü yerinə yetirməyən şəxs insan sayılmaz". "Sözü doğru olmayanın özü də döğru olmaz". "Uşağın sağlamlığı üçün onun təmiz yeməsini, təmiz geyinməsi, təmiz yerdə oturmasını, havanın təmiz saxlanmasını təmin edin" və s. fikirlər də bu qəbildəndir.

Həzrəti-Məhəmmədin birlik və bərabərlik haqqında tövsiyələri varlığın təzələnməsi və tənzimlənməsində böyük əhəmiyyət kəsb edir. Bu humanist keyfiyyətlərin insanların həyatındakı rolu orta yaş qrupundan etibarən uşaqlara elə çatdırılmalıdır ki, həmin ideyalar onların ruhuna hakim kəsilsin.

Uşaqlar bilməlidirlər ki, peyğəmbərimizə görə, hər kəs təvazökarlıq edərsə, Tanrı onu yüksəldər, hər kəs yaxşılıq etsə, xeyir, pislik etsə, peşmançılıq tapar. Hər kəs rəhm eləməsə, ona da rəhm etməzlər. İkiüzlü olmaq məlunluqdur. Hər kəs tanrıdan qorxsa, Tanrı onu hər şeydən qoruyar. Düzlük rahatlıq, yalan narahatlıq verər. Müsəlmanın yalan danışması günahdır.

Deyilənlərdən bu nəticəyə gəlirik ki, məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində islam dəyərlərindən istifadə onların gələcəkdə ümumbəşəri və dini dəyərlərə yiyələnmiş bir şəxsiyyət kimi formalaşmalarını təmin edir.

**Ədəbiyyat**


1. Ağayeva M. İslam dininin həqiqətləri. Bakı: "Adiloğlu", 2015.
2. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı. (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyul tarixli 137 nömrəli qərarı ilə təsdiq edilmişdir.)
3. Kərimov Y.Ş. İslam dəyərləri işığında. Bakı: "Nasir", 1999.
4. Ömərov V. Azərbaycançılıq və islam dini dəyərləri. "Səs" qəzeti, 09.02.2012.


**Использование исламских ценностей в воспитании детей дошкольного возраста**

**резюме**


В статье рассказывается об использовании исламских ценностей в воспитании детей дошкольного возраста. Автор отмечает ценность исламских нравов и приводит примеры из высказываний Пророка Мухамеда. В конце отмечается, что использование исламских ценностей в воспитании детей гарантирует, что они в будущем будут достойными людми, присвоивщие общечеловеческие и исламские ценности.


**The use of Islamic values in the education of children of preschool age**

**summary**


The article describes the use of Islamic values in the upbringing of preschool children. The author notes the value of Islamic mores and gives examples from the statements of the Prophet Muhammad. In the end, it is noted that the use of Islamic values in the upbringing of children guarantees that in the future they will be worthy people, appropriating universal and Islamic values.

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏDƏ NİTQ İNKİŞAFI ÜÇÜN MÜHİTİN YARADILMASI

**Nərgiz Məcidli,**

ADPU-nun "Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası" ixtisası üzrə magistrantı ,

**Nargiz.majidli@gmail.com**



**açar sözlər:** tərbiyəçi, uşaq, məktəbəqədər təhsil, nitq inkişafı, mühit, uşaq bağçası;

**ключевые слова:** воспитатель, ребенок, дошкольное образование, развитие речи, среда, детский сад;

**key words:** teacher, children, preschool, speech development, environment, kindergarten.

Tərbiyəçi məktəbəqədər müəssisədə uşaqları ictimai həyata hazırlamaq məqsədilə nitq inkişafı sahəsində də müəyyən işlər görür. Nəticədə uşaqlar bilik, bacarıq və vərdişlərlə silahlanır, onların zehni qabiliyyətləri, dünyagörüşü inkişaf edir.

Təlim-tərbiyə prosesində yaradılmış əlverişli şəraitdə əsas məsələ tərbiyəçinin təsiri ilə uşağın müstəqil fəaliyyət göstərməsi, inkişaf etməsidir. Pedaqoji təsir ya bilavasitə tərbiyəçinin şəxsi nümunəsi ilə, ya da uşağın fəaliyyət göstərdiyi mühiti düzgün təşkil etməsi şəklində ifadə oluna bilər. Bir çox hallarda pedaqoq uşağa bilavasitə deyil, uşaq kollektivi vasitəsilə təsir göstərir. Uşaq kollektiv daxilində fəaliyyət göstərməklə nitq inkişafına nail olur.

Tərbiyə və təlim prosesində uşağa edilən təsirin məqsədəuyğunluğu və planlı aparılması da təlim-tərbiyənin mahiyyətinə xas olan xüsusiyyətdir. Müasir dövrdə bu məqsədəuyğunluq gənc nəslin tərbiyəsində və intellektual səviyyəsinin inkişafında özünü göstərir.

Məktəbəqədər yaşlı uşaqların nitq inkişafında mühitin rolu böyükdür. *Mühit* məfhumu məzmun etibarilə çox genişdir. Bu məfhum uşağın həyatı və inkişafının əlaqədar olduğu bütün xarici şəraiti əhatə edir. O, ictimai mühitdə doğulur, burada yaşayıb böyüyür. *İctimai mühit* məfhumu altında, hər şeydən əvvəl, uşağı əhatə edən, onu bəsləyib qayğı göstərən, inkişafı üçün şərait yaradan insanlar, o cümlədən, valideynlər, tərbiyəçilər nəzərdə tutulur. Bu məfhum insanların yaratdıqları istehsal münasibətlərini, ictimai münasibətləri, mədəni həyatı və s. özündə birləşdirir. İctimai mühitdə böyüyən uşağın həmin mühitin təsirinə məruz qalması təbiidir. Bu mühit uşağa mexaniki təsir etmir, çünki uşaq fəaliyyətdədir. O, fəaliyyət prosesində mühiti dəyişdirir, özü də onun təsirinə məruz qalır. Uşağı həm də təbii mühit əhatə edir.Təbiət uşağın hərtərəfli inkişafına zəngin qida verir.

Məktəbəqədər müəssisədə uşaqların nitq inkişafında bütün imkanlardan istifadə edə bilmək üçün tərbiyəçinin, pedaqoqun öz pedaqoji səriştəliliyini daim təkmilləşdirməsi zəruridir.

Tərbiyəçi uşağın gələcək inkişafına böyük inamla baxmalı, başa düşməlidir ki, uşaq bu gün yaşlıların köməyi ilə yerinə yetirdiyi işləri sabah müstəqil yerinə yetirə bilər. Tərbiyəçi uşaqların nitq inkişafı üçün lazımi şərait yaratmalı, onların psixologiyasının, zehni fəaliyyətinin mahiyyəti və əhəmiyyəti haqqında məlumatlara istinad etməlidir. Nitqin formalaşdırılmasının metod və priyomları işlənib hazırlanarkən uşaqda gedən psixi proseslər nəzərə alınmalıdır.

Uşağın nitqinin inkişafı tərbiyəçinin peşə hazırlığının mühüm göstəricisi olduğundan, onun bu işə çox məsuliyyətlə yanaşması lazımdır. Ona görə də tərbiyəçi öz nitqinə də tənqidi yanaşmalı, qüsurlar varsa, onları aradan qaldırmağa çalışmalıdır. Adətən nitq prosesində tərbiyəçinin diqqəti nitqin formasına deyil, məzmununa yönəlir. O, necə deyəcəyi üzərində deyil, nə deyəcəyi üzərində düşünür. Bu mənada öz nitqini durmadan təkmilləşdirmək tərbiyəçinin mühüm vəzifəsidir.

Tərbiyəçi uşaqlarla ünsiyyətdə olarkən onların necə reaksiya vermələrinə diqqət yetirməli, lazım gəldikdə ifadə tərzini dəyişməyi, nitqini daha maraqlı və emosional qurmağı bacarmalıdır.

Tərbiyəçi müasir Azərbaycan ədəbi dilinin əsas şöbələri olan fonetika, leksikologiya, morfologiya və sintaksislə tanış olmalı, bu bəhslərin bəzilərini mükəmməl öyrənməyə xüsusi səy göstərməlidir. O, Azərbaycan dilinin orfoqrafiya və orfoepiyasını dərindən bilməlidir. Tərbiyəçi tələffüz qayda-qanunlarının sistemli məcmusuna, orfoepiya qaydalarına riayət etməlidir. Məlumdur ki, dilin fonetik imkanlarının hər növü, hər cür təzahürü, səslərin məxrəclər üzrə tələffüzü, vurğu, intonasiya, sürət kimi məsələlər tələffüz üslubu anlayışına daxildir.

Tərbiyəçi orfoepiyanın əsasını təşkil edən normativ üslubda danışmağı bacarmalıdır. O, öz nitqində kitab, ya da adi danışıq üslubuna qətiyyən yol verməməlidir. Bəzi tərbiyəçilər sözləri yazıldığı kimi də tələffüz etməklə kitab üslubuna meyil göstərirlər. Bu, yolverilməz haldır.

Tərbiyəçi tələffüz normalarına tam cavab verən, obrazlı dilin ustası olmalıdır. O, fikirlərini dəqiq və məntiqi ardıcıllıqla, savadlı və aydın ifadələrlə, tələffüz normalarına müvafiq tərzdə dinləyicilərə çatdırmağı, xalq dilinin gözəl xüsusiyyətlərini ədəbi dilə gətirməyi də bacarmalıdır. Tərbiyəçi öz nitqində tələffüz normalarına düzgün riayət etmək üçün onları dərindən öyrənməlidir. Onun nitqində heca vurğusu, məntiqi vurğu, həyəcanlı vurğudan yerli-yerində istifadə olunmalıdır. O, vurğulu hecanı müxtəlif çalarlarda tələffüz etməyi bacarmalıdır.

Tərbiyəçi öz diksiyası üzərində müntəzəm surətdə işləməlidir. Məlumdur ki, yaxşı diksiya anlayışı altında, hər şeydən əvvəl, aydın və düzgün tələffüz nəzərdə tutulur. Qüsurlu diksiya tərbiyəçi ilə uşaqları bir-birindən uzaqlaşdırır, onların ünsiyyətinə maneə yaradır.

Tərbiyəçinin nitqi emosional, obrazlı, ifadəli olmalıdır. Nitqin ifadəliliyi danışıq aparatının düzgün qurulması, nitq texnikası ilə sıx bağlıdır. Tərbiyəçinin nitqi yaxşı eşidilməlidir.

Tərbiyəçinin nitqi, uşaqlara nə öyrətmək, nə demək istədiyindən asılı olaraq, dəyişir. Bununla belə, onun özünəməxsus xüsusiyyətləri var. Tərbiyəçinin nitqi istiqamətlənmiş olmalı, onun uşaqlar tərəfindən necə qavranılacağı ciddi şəkildə nəzərə alınmalıdır. Adi söhbət, izahat və ya nəqletmədən asılı olaraq tərbiyəçi uşaqlara müraciət edir, sual verir. Bu müraciətlərin, sualların məzmunu və forması əvvəlcədən ölçülüb-biçilməlidir. Tərbiyəçi uşaqlarla ünsiyyətdə olarkən onların reaksiyalarına diqqət yetirməli, lazım gəldikdə ifadə tərzini, məzmunu dəyişməyi, nitqini daha maraqlı və emosional qurmağı bacarmalıdır.

Uşaqların nitqinin düzgün inkişafı üçün zəruri şəraitin yaradılması vacibdir. Uşaq bilavasitə təmasda olduğu əşya və hadisələrlə əlaqədar söhbətlərə həvəslə qoşulur. Bu, onun təfəkkürünün kollektivliyi ilə əlaqədardır. Deməli, uşaq bağçalarında *situativ nitqə* üstünlük verilməlidir. Situativ nitq *təbii* və *süni* olmaqla iki növə ayrılır. Təbii situasiyada uşaqla onu əhatə edən mühit arasında əlaqəni asanlıqla görmək mümkündür. Süni situasiya isə uşaqla ünsiyyətin təmin olunması məqsədilə yaradılır. Deməli, sosiallaşmış nitq başqaları üçün tələffüz olunur, tərəfləri müsahibəyə yönəldir. İctimai mühitin təsiri insanda məhz sosiallaşmış nitqi inkişaf etdirir.

Uşaq bağçasında, ailədə, təbii nitq şəraitində uşağın nitqi kifayət qədər inkişaf etmiş lüğəvi və sintaktik quruluşla xarakterizə edilir, lakin mahiyyət etibarilə onun situativ nitqində ekspressiv ifadə tərzi üstünlük təşkil edir. Bu yaşda danışıq nitqinin öyrədilməsi uşağın nitqinin formalaşmasına zəmin yaradır. Çox vaxt situativ nitq dildən kənar şəraitin təsiri altında yaranır.

Məlumdur ki, uşaq danışmağa başlayanadək ətrafdakıların dediklərini anlamağa çalışır. Beləliklə, o, həyatının ilk illərindən ünsiyyətə qoşulur, ilkin nitq fəaliyyəti mümkün olur.

Uşaq nitqi mənimsədikdə onun təfəkkürü intensiv inkişaf etməyə başlayır. O, məntiqi mühakimə yürütməyi öyrənir. Uşaqların nitqlərinin inkişafı üçün zəruri olan şəraitin yaradılması pedaqoji kollektivin, o cümlədən, tərbiyəçinin mühüm vəzfəsidir.

Məktəbəqədər dövrdə nitq inkişafı üçün lazımi şəraitin yaradılması təfəkkürün fəallığının məqsədyönlülüyünü, müstəqilliyi, hər şeyi bilmək həvəsini tərbiyə etməyə imkan verir. Bütün bunlar uşağın nitq inkişafını sürətləndirir, onu məktəb təliminə hazırlayır. Əslində bu qanunauyğunluqlar təfəkkürlə nitqin vəhdətdə inkişafı deməkdir. Uşaq məktəbəqədər müəssisədə yaradılan şərait nəticəsində ana dilini mənimsəyir ki, bu da onun hərtərəfli inkişafına xidmət edir.

Məktəbəqədər müəssisədə nitq inkişafı üçün zəruri şəraitin yaradılması nəticəsində uşağın anlaq səviyyəsinə istiqamətlənən söz ehtiyatının yaradılması onun ətraf aləmə bələd olmasına, həyat hadisələri arasında əlaqələri anlamağa kömək edir. Söz ehtiyatı ildən-ilə biliklərin alınmasının mühüm mənbəyinə çevrilir, uşağın düşüncəsinə, hisslərinə, davranışına təsir göstərir.

Deməli, məktəbəqədər müəssisənin qarşıısında duran başlıca vəzifə uşaqların yaş səviyyələrinə müvafiq olaraq onların lüğət ehtiyatını zənginləşdirmək, qrammatik cəhətdən düzgün danışığa, rabitəli nitqə malik olmaqdır.

Məktəbəqədər müəssisədə nitq inkişafının keyfiyyəti tərbiyəçidən, onun nəzəri, ideya-siyasi hazırlığından, pedaqoji və metodik ustalığından asılıdır. Əgər tərbiyəçi uşaqların nitq inkişafı üçün lazımi şəraiti yaradarsa, söz yox ki, bu sahədə böyük müvəffəqiyyətlər əldə etmiş olar. Bu isə uşaqlarla təşkil edilən metodik işin səviyyəsi ilə müəyyən olunur.

Məktəbəqədər müəssisədə nitq inkişafı üzrə metodik iş fərdi və kollektiv formada aparılır. Bəzi hallarda tərbiyəçinin izahatı uşağı hissi qavrayışın hüdudlarından kənara çıxarır. O, hadisələr arasında əlaqə və münasibəti başa düşür, sadə mücərrəd təsəvvürlərə yiyələnir.

Kiçikyaşlı uşaqların ana dilinə yiyələnmələri baxımından məktəbəqədər müəssisələrdə hər cür şərait vardır. Bu mənada tərbiyəçinin bütün imkanlardan istifadə edərək pedaqoji ustalığını daim təkmilləşdirməsi zəruridir. Tərbiyəçi peşəsinin xüsusi psixoloji mexanizmi vardır. Bu mexanizmin mahiyyətinin açılması peşə sirlərinə nüfüz etməyi asanlaşdırır.

Uşaqlar məktəbəqədər təhsil müəssisəsində istər təlim prosesində, istərsə də təlimdənkənar vaxtlarda fəal olurlar. Onlar düşünür, sual verir, danışır, fikir yürüdürlər. Bu nöqteyi-nəzərdən uşaqlarda fikri və əməli fəallığı təmin etmək vacibdir.

Beləliklə, məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin tərkib hissəsi olan nitq inkişafı üzrə işin təşkili tərbiyəçinin fəaliyyətində mühüm yer tutur.

**Ədəbiyyat**


1. Kərimov Y.Ş. Uşaq bağçasında nitq inkişafı. Bakı: “Azərnəşr”, 1985.
2. Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı: “ Nasir”, 2009.
3. Məktəbəqədər müəssisələrdə təlim və tərbiyə proqramı . Bakı ,1998.


**Создание среды для развития речи в детском саду**
**резюме**


В статье рассказывается о создании среды для развития речи в детском саду. Отмечается, что речь является самым важным средством коммуникации между людьми. Формирование речи происходит в дошкольном возрасте. Первые надлежащие условия для развития детской речи должны быть организованы в дошкольном учреждении. Так же отмечается, что воспитатель несет ответственность за организацию рабочей среды и должен поступать профессионально во всех случаях.


**Creating an environment for the development of speech in kindergarten**
**summary**


The article describes the creation of an environment for the development of speech in the kindergarten. It is noted that speech is the most important means of communication between people. Formation of speech occurs at preschool age. The first appropriate conditions for the development of children's speech should be organized in a preschool institution. It is also noted that the educator is responsible for the organization of the working environment and must act professionally in all cases.

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏDƏ EKSKURSİYALAR ZAMANI FƏAL TƏLİMİN TƏŞKİLİ

**Gülnar Həsənzadə,**
ADPU-nun "Məktəbəqədər təlim və
tərbiyənin metodika və metodologiyası"
ixtisası üzrə II kurs magistrantı
gulnar_bdu@bk.ru



**açar sözlər:** məktəbəqədər müəssisə, tərbiyəçi, məktəbəqədər yaşlı uşaqlar, tərbiyə metodları, tərbiyə prinsipləri, ekskursiya, ekskursiyanın təşkili, fəal təlim, əməksevərlik, əmək adamlarına hörmət, əmək prosesinin müşahidə olunması;

**ключевые слова:** дошкольное учреждение, воспитатель, дети дошкольного возраста, методы воспитания, принципы воспитания, экскурсия, организация экскурсии, интерактивное обучение, трудолюбие, уважение к трудящимся, наблюдение за рабочим процессом;

**key words**: preschool institution, educator, children of preschool age, methods of upbringing, principles of upbringing, excursion, organization of excursions,interactive training diligence, respect for workers, observation of the work process.

Uşaq bağçasında təşkil edilən ekskursiyaların tərbiyəvi əhəmiyyəti böyükdür. Əyanilik uşağın təsəvvürlərini canlı, konkret obrazlarla zənginləşdirir. Bu zaman uşaqlar daha yaxın ünsiyyətdə olur, bir-birinə qayğı göstərməyi öyrənirlər.

Məktəbəqədər yaşlı uşaqların həyatında, tərbiyəsində, hərtərəfli inkişafında ətraf aləmin, canlı və cansız təbiətin, ictimai həyat hadisələrinin qavranılması mühüm rol oynayır, onlarda təbiətə, incəsənət aləminə, istehsalatda çalışan insanlara məhəbbət hissi formalaşır. K.D.Uşinski yazırdı: "Şagirdlərin gözləri qarşısında olan, hafizəsində möhkəm yer tutan əşya, başqalarının sözünün köməyi olmadan onda fikir oyadır. Əgər uşağın fikri səhvdirsə, onu təshih edir, natamamdırsa, onu tamamlayır, əgər qeyri-məntiqi qurulmuşsa, onu sistemə salır. Əşya özü uşağa suallar verir, onun cavablarını təshih edir, onu nizama salır. Beləliklə, uşaq müəllimin dilindən və ya kitabdan hazır cümlələr mənimsəmir, özü müstəqil surətdə fikirləşir, qərara gəlir." Bu sözlər məktəbəqədər yaşlı uşaqlara da aid edilə bilər.

Ekskursiya zamanı uşaqların diqqəti hər hansı obyektin uzaqdan görünüşünə, ümumi mənzərəsinə yönəldilməli, onun bütövlükdə qavranılması təmin edilməlidir. Uşaqların obyekt üzərində bir neçə dəqiqə sərbəst müşahidə aparmaları, tərbiyəçiyə sualla müraciət etmələri, onun suallarına cavab vermələri əqli inkişaflarına müsbət təsir göstərir. Bu prosesdə uşaqların lüğət ehtiyatı zənginləşir, nitqin qrammatik quruluşu qaydaya düşür, onları monoloji nitqə hazırlayır.

Tərbiyəçi uşaq bağçasında müxtəlif obyektlərə, müəssisələrə ekskursiyalar təşkil etməklə uşağın əxlaq və əmək tərbiyəsinə də müsbət təsir göstərir.

Əmək prosesinin, əmək adamlarının işinin müşahidə olunmasının əxlaqi təsiri çox güclüdür. Tüfeyli həyat keçirmək insan üçün həyatda bütün mənfiliklərin başlanğıcıdır. Əmək insanları bütün naqis hərəkətlərdən uzaqlaşdırır. İnsan əməksiz öz şəxsi ləyaqətini mühafizə edə bilməz. Buna görə də uşaqları kiçik yaşlardan əməyə alışdırmaq çox vacibdir. Məhz bu baxımdan ekskursiyaların rolu böyükdür. Yaxşı tərbiyənin birinci şərti odur ki, uşaq istifadə etdiyi nemətlərin göydən düşmədiyini, insan əməyinin məhsulu olduğunu başa düşsün. Həsən bəy Zərdabi bu barədə yazırdı ki, fiziki əmək xəstəlikləri müalicə edir, insanda intibah əmələ gətirir. Abbasqulu ağa Bakıxanov deyirdi ki, bikarçılıqdan qorx ki, bütün eyiblərdən pisdir. Azərbaycan maarifçilərindən M.T.Sidqi yazırdı: "İnsan oğlu dağları, meşələri, dəryaları və səhraları əməklə müsəxxər etməyə (*itaətə gətirməyə, fəth etməyə*) nail olmuşdur. Əmək nəinki insanların yaşayışının, onların tərəqqi və inkişafının yeganə mənbəyidir, o, eyni zamanda, insanların ən gözəl əxlaqi sifətləri və mənəvi keyfiyyətlərinin də mənbəyidir, çünki kəmali-insaniyyət səylə hasil olur."

Gənc nəsildə tərbiyə etməli olduğumuz əməksevərlik yalnız yeməyə, geyimə, mənzilə olan tələbatın ödənilməsi vasitəsi kimi deyil, həmçinin yeni dünyanın insanları arasında müsbət münasibətlərin bərqərar olmasını təmin edən əsas yoldur. Əmək körpəlik dövründən başlayaraq məktəbəqədər yaşlı uşaqların və məktəblilərin dünyagörüşünü, zehnini, estetik, fiziki inkişafını təmin etməli, onların həyatına sevinc gətirməli, əxlaqi keyfiyyətlərini və əqidələrini möhkəmləndirməlidir. Ekskursiyalar vasitəsilə uşaqlarda məktəbəqədər yaşdan başlayaraq əməyə, məhsuldar fəaliyyətə maraq tərbiyə olunur ki, bu da uşağın özü, yaşıdları və yaxın adamları üçün böyük əhəmiyyət kəsb edir. Bu prosesdə uşaqlarda əməyə maraq, həyat üçün lazım olan hər şeyi əməkləri ilə yaradan insanlara hörmət, insan əməyinin, yaradıcılığının, ağlının sərf olunduğu hər şeyə qayğıkeş münasibət tərbiyə edilir. Əmək prosesində müstəqillik, əməksevərlik, məsuliyyət və kollektivçilik kimi əxlaqi keyfiyyətlər yaranıb möhkəmlənir. Ekskursiya zamanı uşaqların müşahidə etdikləri əmək prosesi kiçik yaşlardan onlarda başladıqları işi axıra çatdırmaq əzmi, mətinlik, dözümlülük, çətinliklərə qalib gəlmək kimi iradi keyfiyyətlər formalaşdırır. Belə müşahidələrdən sonra uşaqlar ailədə və bağçada əməklə məşğul olmaqdan dərin həzz alır, tapşırılmış işi müstəqil yerinə yetirməyə, xüsusilə yaşlılara  kömək etməyə can atırlar.

Məktəbəqədər müəssisədə uşaqların hərtərəfli inkişafı və tərbiyəsi tərbiyəçinin qarşısında duran ən mühüm vəzifələrdəndir. Hər bir pedaqoq bilməlidir ki, xalqımızın yüksək zəka sahiblərinin, aqil və müdrik şəxsiyyətlərinin səyi ilə zaman-zaman formalaşmış mənəviyyatımızın, ictimai şüurun bir forması olan yüksək əxlaqi dəyərlərə malik gənc nəsil tərbiyə etməlidir. Məhz bu əxlaqi dəyərləri dərk etmək və mənmsətməklə balalarımızın tərbiyəsini milli dəyərlər əsasında qura bilərik. Klassik pedaqoqların tətbiq etdikləri bu tərbiyə prinsiplərini örnək götürməklə məktəbəqədər  yaşlı uşaqları Vətənə, xalqa, doğma torpağa məhəbbət ruhunda yetişdirmək mümkündür. Müstəqil Azərbaycan dövlətinin təhsil islahatını həyata keçirdiyi müasir dövrdə xalqın taleyi gələcək nəslin düzgün tərbiyə olunması ilə sıx bağlıdır. Gənc nəslin mənəvi tərbiyəsini əsas vəzifə kimi qarşıya qoyan ulu öndər H.Əliyev Azərbaycan Respublikası gənclərinin birinci forumundakı çıxışında demişdir: “Ümumbəşəri dəyərlər, Azərbaycan xalqının milli-mənəvi dəyərləri hər bir gənc tərəfindən mənimsənilməlidir”.

Tərbiyəçi ekskursiyanı təşkil edərkən ilk növbədə onun məqsədi haqqında düşünməlidir. O, yalnız ekskursiyanın nədən ötrü təşkil olunduğunu dəqiq təsəvvür etdikdən sonra qarşısına qoyduğu məqsədə nail ola bilər. Ekskursiyanın məqsədini belə qoymaq olmaz: “Bostana ekskursiyaya getmək.” Bu, ümumi məqsəddir. Ekskursiyanın məqsədi konkret (sahədə traktorun yer şumlamasına baxmaq, payız şumunun əhəmiyyətini anlamaq, səpin prosesinə tamaşa etmək və s.) olmalıdır.

Ekskursiyanın məqsədi və planı qrupdakı uşaqların yaş səviyyələrinə uyğun olmalıdır. Tərbiyəçi  ekskursiyanın məqsədini müəyyənləşdirərkən uşaqların bilik və bacarıqlarının səviyyəsini də nəzərə almalı, öyrənilmiş materialın həcminə görə uşaqların çıxaracaqları nəticələri əvvəlcədən müəyyənləşdirməlidir. Bu problemlər əvvəlcədən düşünülməli, tərbiyəçinin tərtib etdiyi ekskursiya planında yığcam və dəqiq qeyd olunmalıdır. Belə plan  ekskursiyanın yerini dəqiq müəyyənləşdirdikdən və ekskursiya obyekti ilə əvvəlcədən tanış olduqdan sonra tutulur.

Ekskursiya, ilk növbədə, uşaqlara yaxın ərazidən, bağçanın ətrafındakı obyektlərdən başlanmalıdır. Ətraf aləm uşaqlara zəngin material verir. Ekskursiya zamanı uşaq məktəb, poçt, kitabxana, mağaza, park və s. ictimai obyektlərlə tanış olur. Yaxında yerləşən obyektlərdən sonra uşaqları nisbətən uzaqda yerləşən obyektlərlə də tanış etmək lazımdır. Belə ekskursiyalar zamanı uşaqlar şəxsi həyatın dar çərçivəsindən kənara çıxır, geniş ictimai həyata atılırlar. Bu, uşaqların dünyagörüşünü inkişaf etdirir, onların psixi proseslərinə müsbət təsir göstərir. Tərbiyəçi ekskursiya zamanı uşaqların eşidəcəkləri məlumatların kim tərəfindən və necə veriləcəyini dəqiqləşdirməlidir. Ekskursiyanın müddətini də əvvəlcədən müəyyənləşdirmək lazımdır. Uşaqların ekskursiyada rastlaşacaqları obyekt və hadisələrin müəyyənləşdirilməsi, təbiət guşəsi üçün nələrin götürüləcəyi və s. məsələlər də planda nəzərdə tutulmalıdır. Ekskursiya zamanı həmin obyektə yaxşı bələd olan, tərbiyəçiyə kömək edəcək əməkdaş da müəyyənləşdirilməlidir. Həmin əməkdaş obyekt haqqında ətraflı məlumata  malik olmalı və uşaqları məlumatlandırmalıdır. Bu, tərbiyəçinin işini xeyli asanlaş-

dırar. Bəzən ekskursiya prosesində tərbiyəçinin mühüm məsələləri izah etməyi unutması onun səmərəsini azaldır. Şübhəsiz, bostana ekskursiyaya gedərkən zərərvericilər haqqında danışmamaq olmaz. Bu halda tərbiyəçi uşaqlara zərərvericilərə qarşı mübarizənin əmək məhsuldarlığında əhəmiyyətini, məhsul bolluğunda faydasını və s. izah etməlidir.

Tərbiyəçinin ekskursiyaya əvvəlcədən hazırlaşmasında, obyekti dərindən və dəqiq öyrənməsində məqsəd uşaqların suallarına düzgün cavab verməkdir. Bunun üçün tərbiyəçi xüsusi ədəbiyyatla tanış olmalı, şəkillər varsa, onları nəzərdən keçirməli, mütəxəssislərlə söhbət etməli, lazım gələrsə, metodik göstərişlərdən də istifadə etməlidir. Bütün bunlar ekskursiyanın təşkili və aparılması metodikasının ilk mərhələsinin mühümlüyünü göstərir. Məqsəd uşaqlara aydın olduqda onlar ekskursiyaya hazırlaşır, onda çox həvəslə iştirak edirlər.

**Ədəbiyyat**


1. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.
2. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: "Azərnəşr", 1953.
3. Əliyeva Ş. Məktəbəqədər pedaqogika. Bakı: ADPU-nun nəşriyyatı, 2011.
4. Göyüşov Z. Azərbaycan maarifçiləri əxlaq tərbiyəsi haqqında. Bakı, 1974.


**Организация активного обучения во время экскурсий**
**резюме**


В статье рассказывается об организации активного обучения во время экскурсий. Особое значение для поощрения знаний детей имеет организация различных экскурсий. Таким образом можно сформировать положительные моральные качества. При организации экскурсий воспитатель активизирует детей с помощью активных методов обучения, вооружая их с информацией, необходимой для лучшего понимания окружающего мира. Отмечается, что экскурсии должны организоваться на высоком уровне и воспитатель с помощью визуальных образов должен воспитывать у детей чувства патриотизма, трудолюбия, заботы и любви к природе, милосердия, сотрудничество и так далее.


**Organization of active learning during excursions**
**summary**


The article describes the organization of active learning during excursions. The organization of various excursions is of particular importance for the acquisition of knowledge of children. In this way, one can form positive moral qualities. When organizing excursions, the educator activates the children with the help of active methods of teaching, equipping them with information necessary for a better understanding of the world around them. It is noted that excursions should be organized at a high level and the educator with the help of visual images should educate the children feelings of patriotism, diligence, caring and love for nature, mercy, cooperation, and so on.



**JURNAL AZƏRBAYCAN RESPUBLİKASI**

**PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA**

**KOMİSSİYASININ QƏRARI İLƏ TÖVSİYƏ**

**OLUNAN NƏŞRLƏR SİYAHISINA**

**DAXİL EDİLMİŞDİR.**

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ASUDƏ VAXTLARININ SƏMƏRƏLİ TƏŞKİLİ YOLLARI

**Arzu Səlimova,**
Bakı Mühəndislik Universitetinin magistrantı



**açar sözlər:** asudə vaxt, ibtidai sinif şagirdi, gün rejimi, oyunlar, tərbiyə, təbiətlə tanışlıq, valideyn, ekskursiya, əmək tərbiyəsi, mütaliə, rəsm, rəqs, musiqi, idman;

**ключевые слова:** свободное время, ученик начального класса, режим дня, игры, воспитание, знакомство с природой, родитель, экскурсия, трудовое воспитание, чтение, рисование, танец, музыка, спорт;

**key words:** leisure time, primary school student, daily schedule, games, upbringing, online nature, parent, excursion, labor education, reading, drawing, dance, music, sports.

Asudə vaxt nədir? Asudə vaxt insanların məşğuliyyətlərindən fərqli olaraq, istirahət etmək və iş prosesində sərf olunan enerjini bərpa etmək, dincəlmək üçün ayrılan vaxtdır. İnsan bütün yaş dövrlərində asudə vaxtdan səmərəli və düzgün istifadə etməyi bacarmalıdır.

İbtidai sinif şagirdləri üçün də asudə vaxtın səmərəli təşkili mühüm əhəmiyyət kəsb edir. Asudə vaxtı təşkil edərkən uşaqların yaşını, inkişaf səviyyələrini, maraq və meyillərini, səhhətini, qüvvəsini nəzərə almaq lazımdır.

İbtidai sinif şagirdlərinin asudə vaxtlarının səmərəli təşkili üçün gün rejiminə düzgün əməl edilməlidir. Bütün işləri vaxtında yerinə yetirmək üçün gün rejimi düzgün planlaşdırılmalıdır.

Şagirdin gün rejiminin tələblərini həyata keçirməsi məktəbdə və evdə dərs məşğələlərinə sərf olunan vaxtın düzgün bölünməsindən asılıdır. Məhz buna görə təlim məşğələlərinin saatları ciddi müəyyənləşdirilməlidir. Pedaqoji ədəbiyyatda göstərilir ki, dərs günü və evdə tapşırıqların yerinə yetirilməsi vaxtı hər bir sinifdə müxtəlifdir. Bu vaxt I sinifdə 4 saat, II–III siniflərdə 5 saat, IV sinifdə 5,5 saatdan artıq olmamalıdır. Məktəblinin və valideynin bu vaxt bölgüsünə riayət etmələri asudə vaxtın səmərəli təşkilində böyük rol oynayır.

Şagirdin başlıca vəzifəsi təlim və ev tapşırıqlarının yerinə yetirilməsidir. Valideynlərin uşağa bir sıra müxtəlif əlavə işlər tapşırmaları məcburi məşğuliyyət hesab olunur. Şagird üzərinə düşən məcburi öhdəliklərini yerinə yetirdikdən sonra onun boş vaxtı qalır. Həmin boş vaxt ərzində göstərilən səmərəli fəaliyyət ibtidai sinif şagirdlərinin həyat və fəaliyyətində xüsusi yer tutur, hərtərəfli inkişafında böyük rol oynayır.

Asudə vaxtın səmərəli təşkili üçün **oyunlardan** istifadə etmək çox faydalıdır. Oyunlar uşaqlara sevinc gətirir. Bunun əsas səbəbi oyun zamanı əldə edilən uğurların uşağı fərəhləndirməsidir. Bununla yanaşı, oyun uşaqların fantaziyasını, emosiyalarını, təxəyyülünü, bacarıqlarını inkişaf etdirir, həyatı anlamalarına, təcrübə toplamalarına, şəxsiyyət kimi formalaşmalarına, onlara təşkilatçılıq vərdişlərinin aşılanmasına, kollektivə uyğunlaşmalarına kömək göstərir, təlimə və əməyə hazırlayır. Oyun həm də uşaqlarda səbrlilik, dözümlülük, qayğıkeşlik, mehribanlıq, dostluq, yoldaşlıq, əməksevərlik kimi mühüm əxlaqi keyfiyyətlər tərbiyə edir. Oyun zamanı uşaq böyüklərin jest və mimikalarını, davranışlarını, danışıqlarını, qarşılıqlı münasibətlərini təqlid edir, öz fəaliyyətində canlandırır, bu yolla da böyüklərin həyat təcrübəsini mənimsəyir.

Görkəmli pedaqoq A.S.Makarenko demişdir: "Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun o qədər vacib və əhəmiyyətlidir. Uşaq oyunda necədirsə, sonra işdə də bir çox cəhətdən elə olacaqdır. Ona görə də gələcək xadimin tərbiyəsi, hər şeydən əvvəl, oyun prosesində keçir" [5, səh. 376].

İbtidai məktəb dövründə istifadə edilən oyunları *süjetli-rollu, didaktik, hərəkətli, intellektual*

və s. növlərə ayırmaq olar. Oyun prosesində uşaq elə aludə olur ki, ətrafdakı hər şeyi (yeməyi, yuxunu, dərsləri, yorğunluğu və s.) unudur. Uşaqları oyun aləmindən qəflətən ayırmaq olmaz. Bu zaman onlar əsəbilik, gərginlik keçirir, hətta ağlayırlar. Buna görə də onlara oyunlarını nə vaxt bitirmələri barədə əvvəlcədən xəbərdarlıq etmək lazımdır ki, digər fəaliyyətə rahat keçə bilsinlər. Valideynlər uşaqların oyunlarına yerli-yersiz müdaxilə etməməyə çalışmalıdırlar. Əgər oyun zamanı mübahisə yaranarsa, müdaxilə etmək, uşaqları düzgün istiqamətləndirmək lazımdır.

İbtidai sinif şagirdlərinin asudə vaxtının səmərəli keçirilməsində mühüm məşğuliyyətlərdən biri də **rəsmdir**. Uşaqlar rəsm çəkməyi çox sevirlər. Onlar çəkdikləri rəsmlər vasitəsilə hisslərini, valideynlərinə, həmyaşıdlarına münasibətlərini ifadə edirlər. Rəsm çəkmək uşaqları çox sevindirir, onlarda müsbət əhvali-ruhiyyə yaradır.

Rəsmlə məşğul olan uşaqlarda təxəyyül, estetik qavrama, emosional hisslər, bədii zövq, yaradıcılıq qabiliyyəti, fərqli dünyagörüşü və ictimai bacarıqlar inkişaf edir. Rəsm uşaqların özlərini tanımalarına kömək edir, fiziki, zehni və ruhi sağlamlıqlarına müsbət təsir göstərir, hisslərini asanlıqla ifadə etmələrinə şərait yaradır.

Uşaqlar ətraf aləmin, doğma vətən və onun təbiətinin gözəlliklərini dərk edir, gördüklərini öz rəsmlərində əks etdirməyə çalışırlar. Bu da onlarda vətənə məhəbbət, iftixar hissi oyadır.

Bütün uşaqlarda rəssamlıq istedadı ola bilməz, lakin çoxunun rəsm çəkmək bacarığı olur. Daha yaxşı çəkə bilmələri üçün onlara bir qədər təkan vermək lazım gəlir. Bu işdə valideynlərin köməyi də çox vacibdir.

Bəzən uşaqlar əşyaya uyğun olmayan rəng çalarlarından istifadə edirlər. Bu zaman valideynlər, müəllimlər müdaxilə etməli və onlara düzgün rəng seçimini öyrətməlidirlər.

Uşağın rəsmlə məşğul olmasına, öz daxili potensialını dərk etməsinə şərait yaratmaq lazımdır, çünki bu həvəs gələcəkdə onun peşə seçiminə də təsir göstərə bilər.

Rəsmdən əlavə şagirdlər asudə vaxtlarında gil və plastilindən istifadə edərək **yapma** ilə məşğul olmağı çox sevirlər. Rəngbərəng plastilin və gildən yapmalar uşaqların yaradıcılığını, təxəyyülünü inkişaf etdirməkdə mühüm vasitə ola bilər. Uşaqlar plastilin və gildən əsasən meyvə, tərəvəz, göyərti, oyuncaqlar, müxtəlif heyvanlar, qab-qacaq, təbiətdə gördükləri əşyaları, cizgi filmlərindəki qəhrəman obrazlarını düzəltməyi xoşlayırlar.

Uşaqlar texniki yaradıcılığın müxtəlif növləri, xüsusən **quraşdırma** ilə məşğul olmağı da sevirlər. Kağız və kartonu kəsib, müxtəlif model və fiqurlar düzəltmək, taxta və plastik konstruksiyalardan bina quraşdırmaq uşaqların maraq dairəsini inkişaf etdirir, onları əməyə hazırlayır.

Uşaqların asudə vaxtlarının səmərəli təşkilində bir vasitə də **musiqi** ilə məşğul olmaqdır. Musiqi insan həyatının ayrılmaz tərkib hissəsidir. İnsanın dünyaya gəldiyi ilk gündən musiqi güclü təsir göstərərək onun mədəni həyatında, duyğularının zənginləşməsində, sinir sisteminin, estetik qavrayışının inkişafında böyük rol oynayır. Musiqi daxildəki mənfi enerjinin azalmasına səbəb olur, uşaqları səbrliliyə, dözümlülüyə alışdırır. Hər bir valideyn uşaqların yaradıcılıq seçimlərinə böyük məsuliyyətlə yanaşmalıdır. Nənələrin oxuduğu laylalar, uşaq nəğmələri, rəqs melodiyaları uşaqlara milli dəyərləri tanımaqda kömək edir. Uşağın eşitdiyi hər bir musiqi nümunəsi onun psixologiyasına, daxili aləminə təsir göstərir. Bu mahnılar sayəsində uşaq özünü dərk etdikcə musiqi seçimində çətinlik çəkmir.

Mütəxəssislər bildirirlər ki, musiqi alətlərində ifa edən uşaqların yaddaşı digər uşaqlara nisbətən güclü olur, dinləmə mədəniyyəti, ritm tutma, melodiyanı qavrama qabiliyyəti, diqqəti inkişaf edir. Onlar dərslərini daha yaxşı oxuyurlar. Musiqi ilə məşğul olan uşaqların tənəffüs imkanları genişlənir, səs telləri möhkəmlənir.

Valideynlər uşaqlar üçün musiqi aləti seçərkən onların yaşını, marağını nəzərə almalıdırlar. Hər alətlə məşğul olmaq üçün müəyyən yaş həddi mövcuddur.

**Pianino (fortepiano)**. Bu klassik musiqi alətini çoxlarının seçmələri tamamilə düzgündür. Fortepianoda ifa etmək uşağın musiqi duyumunu inkişaf etdirir, diqqəti cəmləşdirmək bacarığını yaxşılaşdırır. Bu alətdə musiqi təhsilinə başlamaq üçün ideal dövr 3–4 yaşdır.

**Simli alətlər** (tar, saz, kamança, gitara, arfa, skripka, violençel və s.) ürək və qan-damar sisteminin işini normallaşdırır. Bu alətlərdə çalmağı öyrənməyə 6–8 yaşlarından başlamaq məsləhətdir.

**Nəfəs alətləri** (tütək, balaban, zurna, truba, saksafon, trombon, klarnet və s.) tənəffüs sisteminin fəaliyyətinə kömək etməklə, ağ ciyərləri və bronxları təmizləyir, qan dövranına müsbət təsir göstərir. Bu alətlərdə ifa etmək üçün musiqi duyumu ilə yanaşı, uşağın tənəffüs sisteminin də sağlam olması şərtdir. Nəfəs alətləri üzrə musiqi təhsilinə başlamaq üçün11–12 yaş uyğun dövrdür.

**Zərb alətlərində** ifa ürək ritminin bərpa edilməsinə, qan-damar sisteminə və qara ciyərə müsbət təsir göstərir. Bu alətlərdə ifa etməyi öyrənmək üçün ideal yaş 8–10 arasıdır.

Uşaqların asudə vaxtlarının səmərəli təşkili yollarından biri də **rəqsdir**. Rəqs uşaqların ruhunu canlandırır, bədən əzələlərini inkişaf etdirir, əhvalını yüksəldir, yorğunluqlarını aradan qaldırır və sağlamlıqlarını möhkəmləndirir. Uşaqların rəqsə 6 yaşdan başlamaları tövsiyə olunur, çünki məhz bu yaşda onların sümük və əzələ sistemi formalaşır. Rəqslə məşğul olmaq onurğa sütununa müsbət təsir edir, bədəni və əzələ sistemini formalaşdırır. Rəqslə məşğul olan uşaqlar asanlıqla sosiallaşır, kollektiv fəaliyyət göstərməyi bacarırlar. Uşaqların öz milli rəqslərinə bələd olmaları onları xalqımızın milli-mədəni dəyərləri ilə tanış edir, bu dəyərlərin təmsili və təbliği imkanlarını genişləndirir.

Şagirdlərin asudə vaxtlarının səmərəli təşkilinin ideal vasitələrindən biri də **mütaliədir.** Mütaliə uşaqların şəxsiyyət kimi formalaşmalarında böyük rol oynayır. O, məktəblinin biliyini artırmaqdan əlavə, onun qavrama, təxəyyül və mənəviyyatını, dünyagörüşünü, həyat təcrübəsini, gündəlik hadisələrə baxış tərzini, insanlara münasibətini formalaşdırır, yaradıcılıq qabiliyyətini, nitq mədəniyyətini inkişaf etdirir, təhsildə daha çox uğur qazanmasına gətirib çıxarır. Mütaliə edən məktəblinin özünəinam hissi də artır. Buna görə şagirdlər asudə vaxtlarında müəllimlərin tövsiyə etdikləri, özlərinin maraqlandıqları kitabları oxumalıdırlar.

Uşaqlara mütaliəyə alışqanlığı kiçik yaşlardan aşılamaq lazımdır. Mütaliə edən uşaqlar başqalarında da xoş təəssüratlar yaradır, hörmət və etibar qazanır, həyatda daha çox nailiyyətlər əldə edirlər. Bunun üçün valideynlər evdə kitab guşələri yaratmalı, uşaqları kitabxanalara, müxtəlif kitab mağazalarına aparmalı, onlara sərbəst kitab seçmə vərdişi aşılamalıdırlar. Bununla da kiçikyaşlılarda kitaba maraq, həvəs və sevgi oyanır. Kitab seçərkən onun həcm və dil cəhətdən uşaqların yaşlarına uyğunluğuna, parlaq, şəkilli, rəngarəng, cəlbedici, məzmunca tərbiyəvi, bədii olmasına fikir verilməlidir. Həm ciddi, həm gülməli, həm şən, həm kədərli mövzularda, fərqli janrlarda (nağıl, təmsil, şeir, hekayə və s.) kitablar seçilməlidir.

Xalq yaradıcılığı tərbiyə sahəsində əsrlər boyu əldə edilmiş təcrübəni, ideyaları özündə birləşdirən mənəvi sərvətdir. I–IV sinif şagirdlərinin mütaliəsində Azərbaycan folklor nümunələri geniş yer tutmalıdır. Burada nağıl qəhrəmanlarının nümunəvi və yaddaqalan obrazları uşaqlarda vətənə, xalqa sevgi, yalana, pisliyə, xəyanətə nifrət, ədalətli olmaq, xeyirxahlıq, mehribanlıq, səmimilik, qorxmazlıq kimi mənəvi keyfiyyətlər formalaşdırır.

"Cırtdan", "Tıq-tıq xanım", "Məlikməmməd", "Göyçək Fatma", "Şəngülüm, Şüngülüm, Məngülüm", "Yeddi nar çubuğu", "Sehrli üzük" kimi Azərbaycan nağılları kiçikyaşlı məktəblilərin zövqünü oxşayır, qəhrəmanları onlara sevdirir, yaxşı ilə pisi ayırmalarına yardımçı olur, xeyirin şər üzərində qələbəsinə inamı artırır.

II sinifdən başlayaraq uşaqların intellektual qabiliyyətini artıran, onların dünyagörüşlərini genişləndirən kitabların mütaliəsinə yer verilməlidir. Bunun üçün uşaq ensiklopediyaları ("Yeni uşaq ensiklopediyası", "Mən dünyanı öyrənirəm", "İnsan bədəni", "Bunları bilmək istəyirəm", "Planetin qəribə quşları", "Ağıllı oğlan və qızların ensiklopediyası", "Həşəratlar", "Nəqliyyat və maşınlar" və s.) faydalı ola bilər. Asudə vaxtın ailə üzvləri ilə birlikdə, açıq havada, təbiət qoynunda, parklarda, çəmənlikdə, meşədə, dağda, göl və dəniz kənarlarında keçirilməsi də uşaqlar üçün maraqlı ola bilər. Bu zaman uşaqlara getdikləri, gördükləri yerlər haqqında valideynlərin məlumat vermələri lazımdır. Təbiətlə tanışlıq uşaqların körpə yaşlarından başlayır və onların dünyagörüşlərinin formalaşmasında müstəsna rol oynayır. O, uşaqların lüğət ehtiyatını zənginləşdirir, onlara müşahidə aparmağı, hadisə və əşyalara münasibət bildirməyi öyrədir. Təbiətlə tanışlıq zamanı şa-

girdlər təbiəti sevməyə, onun zənginlik və gözəlliklərini duymağa başlayır, baş verən dəyişiklikləri görür, onların səbəblərini araşdırırlar. Ətraf mühitlə tanışlıq zamanı uşaqlar bitkinin hər fəsildə necə dəyişdiyinə, çiçəklərin rənginə, quşların nəğmələrinə, xəzəlin və qarın ayaq altında xışıldamasına diqqət yetirir, təbiət hadisələrini dərk edirlər.

Çiçək və bitkilərin, heyvanların müşahidəsi üçün ən ideal vasitə **ekskursiyalardır.** Uşaqlar nəbatat bağına, heyvanxanaya ekskursiyalar zamanı bitki və heyvanlarla daha yaxından tanış ola bilərlər. Şagirdlər heyvanxanada heyvanları müşahidə edir, onların əlamətləri, davranışı, hərəkətlərini öyrənirlər. Uşaqlar bağlar, parklar, meşələr, kənd təsərrüfatı sahələrində bitkilərlə tanış olmaq imkanı əldə edə bilərlər. Burada şagirdlər bitkinin forması, gövdəsi, yarpaqlarının quruluşunu müşahidə edir, digər bitkilərlə müqayisə aparır, onlara qulluq qaydalarını öyrənirlər. Bu, uşaqları fərəhləndirir, onlarda şən əhvali-ruhiyyə yaradır. Beləliklə, uşaqlarda təbiətə maraq, məhəbbət, qayğıkeş münasibət formalaşır.

Şəhidlər Xiyabanına, dahi şəxsiyyətlərin ev muzeylərinə də ekskursiyalar təşkil edilə bilər. Belə gəzintilər yalnız istirahət kimi yadda qalmır, eyni zamanda həyatı hərtərəfli öyrənməkdə şagirdlərə kömək göstərir, onlarda vətənpərvərlik, insanpərvərlik, tarixi və mədəniyyət abidələrini qorumaq kimi keyfiyyətlər formalaşdırır.

Asudə vaxtın səmərəli təşkili vasitələrindən biri də **idmandır.** O, uşağın fiziki və əqli inkişafına kömək edir. Bu səbəbdən uşaqlar erkən yaşlardan idmana cəlb edilməlidirlər. Fiziki cəhətdən zəif uşaq tez yorulur və xəstələnirsə, idman onun bədənini möhkəmləndirəcək, immunitetini artıracaqdır. İdman sayəsində uşaqlar enerjini düzgün paylamağı öyrənirlər. İdman uşaqların bədəninin möhkəmlənməsi, sağlamlığının qorunması, normal psixoloji durumunun, fəal həyat tərzinin formalaşdırılması, yuxu pozulmalarının qarşısının alınmasında əvəzsiz vasitə hesab olunur.

Asudə vaxtın səmərəli təşkili üçün idman növlərini seçərkən yaş səviyyəsi nəzərə alınmalıdır. Bu zaman onların fəallıq və fiziki inkişaf səviyyəsi əsas götürülür. İdmana, əsasən, 4 yaşdan başlamaq olar. 4–6 yaşlı uşaqlar fərdi idman növlərindən daha çox qrup idman növlərinə maraq göstərirlər. Onlar üçün üzmə, gimnastika, atletizm, buz üzərində sürüşmə, velosiped sürmə, 7–10 yaşlı uşaqlar üçün gimnastika, üzmə, futbol, basketbol, voleybol, velosiped, tennis və s. idman növləri faydalıdır.

Qızlar və oğlanlar üçün idman növlərinin düzgün seçimi mühüm rol oynayır. Qızlara üzgüçülük, gimnastika, onlardan daha enerjili olan oğlanlara isə futbol, basketbol, voleybol kimi idman növləri uyğun gəlir.

Asudə vaxtın düzgün təşkili uşaqların əmək tərbiyəsinə də geniş imkanlar yaradır. Valideynlər övladlarını müxtəlif məişət işlərinə (birlikdə yemək bişirmək, süfrəni hazırlamaq, toxum əkmək, bayramlarda otağı bəzəmək, güclərinə müvafiq başqa əmək tapşırıqları vermək, əmək alətlərindən istifadə etmək və s.) cəlb edə bilərlər. Bu yolla valideynlər erkən yaşlardan uşaqlarda əməyə maraq oyatmağa nail olurlar. Nəticədə uşaqlar özlərinin yetkin, bacarıqlı, lazımlı olduqlarını hiss edir, “Mən hazırladım, buna görə də gözəl alındı” hissini yaşayırlar. Bundan əlavə, onlarda əlaqələndirmə, uyğunlaşdırma, sosial bacarıqlar, özünəinam duyğuları inkişaf edir, səbrli olmağı öyrənirlər.

Adı çəkilən vasitələr asudə vaxtın səmərəli və maraqlı təşkilinə xidmət edir, şagirdin dünyagörüşünü artırır, onu gələcəyə hazırlayır.

**Ədəbiyyat**

1. Asudə vaxt və mənəvi tərbiyə . Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1981.
2. Həmzəyev M. Ailədə uşaqların oyunlarına rəhbərlik. Bakı: “Maarif”,1965.
3. Məktəblinin gün rejimi. Bakı: “Uşaqgənçnəşr”,1959.
4. Məmmədova S.Sinifdənxaric oxu. Bakı, “Bakınəşr”, 2014.
5. Makarenko A. S. Seçilmiş pedaqoji əsərləri. Bakı, “Maarif”, 1983.
6. Dotsenko V. S. Uşaqlarla məktəbdənkənar iş. Bakı, 1973.

**Пути рациональной организации досуга учеников начальных классов**
**резюме**
В статье определяются возможности и рациональные пути организации досуга учеников начальных классов. Отмечается, что для правильной организации досуга школьников в зависимости от уровня развития следует принимать во внимание факторы семьи и школьного коллектива. Рассказывается о способах организации досуга учеников.
**Ways of the rational organization of leisure of pupils of primary classes**
**summary**
The article defines the opportunities and rational ways of organizing the leisure of primary school pupils. It is noted that for the proper organization of leisure for schoolchildren, depending on the level of development, the factors of the family and the school collective should be taken into account. Describes ways to organize the leisure of students.

# OXU DƏRSLƏRINDƏ ƏDƏBİ TƏLƏFFÜZ VƏRDİŞLƏRİNİN AŞILANMASI YOLLARI

**Günel Şərifova,**
ADPU-nun magistrantı



**açar sözlər:** kurikulum, nitq və təfəkkür, nitq bacarıqları, məzmun, oxu, ifadəli oxu;
**ключевые слова:** куррикулум, речь и мышление, речевые способности, содержание, чтение, выразителное чтение;
**key words:** contens, reading, expressive reading, speech and thinking, speech abilities, curikulum.

Oxu prosesində söz, ifadə və cümlələri səlis eşitmədən, mahiyyətini başa düşmədən hekayənin məzmununu dərindən mənimsəmək, hər hansı personajın xarakterini dərk etmək mümkün deyil. Deməli, oxu dərslərində ədəbi tələffüz vərdişlərinin mənimsənilməsi üzrə işə diqqət yetirilməlidir. Bu işə I sinifdən başlanılır. Tələffüz normalarının öyrədilməsi üzrə işin xüsusi sistemlə, müntəzəm aparılması zəruridir. İfadəli oxu və rabitəli nitq prosesində ədəbi tələffüz vərdişlərinin mənimsədilməsi mühüm əhəmiyyət kəsb edir. Bu, təlimin keyfiyyətinin yüksəldilməsinə təkan verir, uşaqların təfəkkürünü inkişaf etdirir, bədii oxu materiallarının mənimsənilməsini asanlaşdırır.

İfadəli oxu prosesində mətndəki  ayrı-ayrı obrazların hərəkəti, hadisələr məntiqi ardıcıllıqla baş verir. İfadəli oxu prosesində canlı ifadə vasitələrinin köməyi ilə obrazların xarakteri açılır, əsər haqqında dinləyicidə bitkin təsəvvür yaranır. İfadəli oxu ədəbi tələffüz qaydalarına əməl etməklə aparılır. Müəllim ifadəli oxu bacarıqlarına, ədəbi tələffüzə əməl etməklə  mətnin məzmununu, obrazların təsvirini, daxili aləmini açmağı bacarmalıdır.

F.İ.Şalyapin göstərirdi ki, ifadəli oxu əsl yaradıcılıqdır. O, bütün hisslərin ahəngdarlığını tələb edən kompleks prosesdir.

İbtidai siniflərdə şagirdlərin ifadəli oxu üzrə ilkin vərdişlərə yiyələnmələri müəllimin özünün bu vərdişlərə nə dərəcədə yiyələnməsindən, şagirdlərə necə nümunə olmasından asılıdır. Müəllimin gözəl, ifadəli, canlı oxusu şagirdlərə böyük sevinc gətirir, onların zövqünü oxşayır, ruhunu canlandırır. Belə müəllimin şagirdləri də ifadli oxu vərdişlərinə yiyələnməyə, oxunmuş materiala öz münasibətlərini bildirməyə alışırlar. İfadəli oxu vərdişlərinin aşılanması müəllimdən səbrli, diqqətli olmağı, müntəzəm və sistemli iş aparmağı tələb edir. Emosional, ifadəli nitqə birdən-birə yiyələnmək mümkün deyildir. Bunun üçün ilk növbədə nitq texnikası üzrə iş aparılmalıdır.

*Nitq texnikası* anlayışına oxu və danışıq prosesində tələffüz, səs, diksiya, tembr, vurğu, fasilə və s.  daxildir. Müəllimin nümunəsi, bədii, obrazlı ifadələrin mənasının açılması, nitq texnikasının inkişaf etdirilməsi, bədii qiraət ustalarının nümunələri, təlimin texniki vasitələrindən, İKT-dən istifadə ifadəli oxu üzrə bacarıq və vərdişlərin formalaşmasına, inkişafına şərait yaradır.

Son zamanlara qədər bəzi müəllimlər ədəbi tələffüz vərdişlərinin inkişafından söz açarkən ancaq orfoepik qaydaların aşılanması üzrə işləri nəzərdə tuturdular ki, bu da prosesin tamamilə birtərəfli şəkildə getməsinə səbəb olurdu.

Ədəbi tələffüz vərdişlərinin inkişafı dedikdə, şübhəsiz, orfoepiya mühüm əhəmiyyət kəsb edir, lakin iş bununla məhdudlaşmır. Ədəbi tələffüz üzrə işlər daha geniş məzmuna malikdir. Buraya həm orfoepiya, həm də intonasiya (diksiya, melodika, səsin gücü, tembri, vurğu, fasilə, ritmik bölgülər, nitq sürəti və tonu) daxil edilir.

Azərbaycan dili və oxu dərslərində, habelə sinifdənxaric ünsiyyətdə intonasiya, fasilə və cümlələrin ritmik bölgüləri üzrə işə xüsusi diqqət yetirilməlidir.

I sinifdən başlayaraq bu məsələlərlə bağlı praktik işlər həyata keçirilir və yuxarı siniflərdə davam etdirilir. İntonasiya, fasilə və cümlələrin ritmik bölgüləri üzrə nəzəri-praktik işlər ancaq sintaksis bölməsinin tədrisi ilə başlanır.

Cümlənin intonasiyası danışanın məqsədinin dəqiq anlaşılmasına şərait yaradır. Danışanın məqsədindən asılı olaraq eyni sözlərin birləşməsindən ibarət cümlə həm sual intonasiyası, həm də adi intonasiya ilə tələffüz edilə bilər. Əgər danışan hər hansı cavabı almaq məqsədini izləyirsə, cümləni sual intonasiyası ilə tələffüz edir.

İbtidai siniflərdə cümlənin məqsəd və intonasiyaya görə növlərini öyrədən müəllim onun nə olduğunu anlatmaqla işini bitmiş hesab etməməli, sual və ya həyəcan bildirmək vasitələrinin arasındakı incə fərqləri şagirdlərə başa salmalıdır ki, onlar dilimizin bu rəngarəng vasitələrindən istifadə edə bilsinlər.

Azərbaycan dilində sual cümləsi yalnız sual intonasiyası ilə yox, sual əvəzlikləri, sual ədatları vasitəsilə də ifadə oluna bilər. Əmr və nida cümlələrinin də ifadə olunması vasitələri müxtəlifdir. Bütün bunları uşaqlara yalnız praktik yolla çatdırmaq kifayət deyil. Belə məsələlərin öyrədilməsində görkəmli bədii qiraət ustalarının lent yazılarının təhlili daha faydalı olar.

Bəzən məktəblilərə nöqtə və vergül haqqında məlumat verərkən bunlar cümlələr, sözlər arasında fasilənin müddəti ilə fərqləndirilir. Vergül işarəsi cümlənin elə ritmik bölgülü yerində qoyular ki, burada nöqtə qoyulmuş yerdəkindən çox fasilə edilə bilər. Ritmik bölgüdən asılı olaraq, nöqtə və ya vergül işarəsinin işlənmədiyi yerdə daha çox fasiləyə yol verilə bilər.

Bunları nəzərə alaraq, cümlənin ritmik bölgüsü üzərində aparılan işlərə xüsusi diqqət yetirilməlidir. Hər bir söz tələffüz zamanı hecalarla deyildiyi kimi, cümlələr də ritmik bölgülərlə –sintaqmlarla tələffüz olunur. Bu ritmik bölgülər böyük və kiçik fasilələrlə ola bilər, məsələn: *Mən məktəbdən gəlirəm.* Cümlədə *mən* sözündən sonra kiçik fasiləli bir ritmik bölgü vardır. *Həmişə yoldaşlarına qayğı ilə yanaşan Əhməd Nərimana qoşulduqdan sonra laqeydləşdi* cümləsində *Əhməd* və *sonra* sözlərində ritmik bölgülər tamamlandığından daha böyük fasilə edilir. Ritmik bölgülər üzərində iş müəllimin nümunəsinə istinadən praktik şəkildə aparılır.

Sintaqmların (ritmik bölgülərin) ünsiyyət üçün əhəmiyyətini anlamaqda da görkəmli bədii qiraət ustalarının lent yazılarını təhlil etmək daha çox fayda verə bilər. Bunun üçün xarakterik parçalar seçilməli, müəllim də belə təhlilə nəzəri və praktik cəhətdən hazır olmalıdır. Təhlil üçün yalnız düzgün deyil, yanlış nitq parçaları da seçilməlidir.

**Vurğu.** Şifahi nitqin dəqiq, aydın, anlaşıqlı və təsirli olmasında vurğu da böyük əhəmiyyətə malikdir. Vurğunun üç növü vardır: *heca vurğusu, məntiqi vurğu* və *həyəcanlı vurğu.* Heca vurğusu haqqında nəzəri-praktik məlumat fonetika bölməsində verilir. Çox vaxt müəllimlər vurğunun öyrədilməsinə ayrılan dərs saatından səmərəli istifadə edə, praktik əhəmiyyətli məsələləri şagirdlərə çatdıra bilmirlər. Bəzən isə bu, "Azərbaycan dilində vurğu, əsasən, sözün son hecasının üzərinə düşür" şəklində izah olunduğu üçün şagirdlər bir çox sözlərdə vurğunun yerini düzgün müəyyənləşdirə bilmirlər. Vurğuya həsr edilmiş dərs saatında sözün mənasını dəyişməkdə vurğunun rolu barədə şagirdlərə praktik məlumat verildiyi kimi, Azərbaycan dilində vurğu qəbul etməyən nitq vahidləri də öyrədilməlidir. Belə olduqda nəzərdə tutduğumuz sözlərin düzgün vurğu ilə tələffüzünün bünövrəsi qoyulmuş olar.

Bəzən şagirdlər dilimizə başqa dillərdən keçmiş sözlərin vurğusunu müəyyənləşdirməkdə çətinlik çəkirlər. Belə sözlərin tələffüzü əyani vasitələrin köməyi ilə nümayiş etdirilməlidir.

**Məntiqi vurğu** haqqında məlumat IV sinifdə, sintaksisin tədrisi ilə əlaqədar verilir. Danışanın məqsədinin müəyyənləşdirilməsində məntiqi vurğunun böyük rolu vardır. Məntiqi vurğu haqqında məlumat cümlə üzvlərinin sıralanması və sintaqmlardakı fasilələrlə əlaqədar şəkildə öyrədilsə, daha yaxşı nəticə əldə edilər. Müəllim məntiqi vurğudan danışarkən **həyəcanlı vurğu** haqqında da məlumat verməli, sonralar bu fikir, yeri gəldikcə, oxu dərslərində dərinləşdirilməlidir. Vurğunun şifahi nitqdəki rolunu şagirdlərə əyani şəkildə çatdırmaq üçün görkəmli bədii qiraət ustalarının lent yazılarından istifadə etmək çox faydalı olardı.

Ədəbi tələffüz vərdişlərinin aşılanması, inkişafı üzrə işlər müntəzəm aparılmalıdır. Şagirdlərə ədəbi tələffüz vərdişlərini bir neçə gündə mənimsətmək mümkün deyil. Bu işlər bütün siniflə, xarakterik çalışmalar vasitəsilə aparılmalıdır. Məktəb təcrübəsi göstərir ki, sagirdləri yalnız çoxlu oxutmaq, danışdırmaqla kifayətlənmək olmaz. Onlar xarakterik bədii mətnləri şərti işarələrlə qeyd etməyi öyrənməli, durğu işarələrinin işlənmə məqamlarını dəqiq bilməlidirlər.

Ümumiyyətlə, ibtidai siniflərin "Azərbaycan dili" dərsliklərində verilən bədii və elmi-kütləvi mətnlər ədəbi tələffüz vərdişlərinin mənimsədilməsi sahəsində geniş imkanlara malikdir.

**Ədəbiyyat**

1. Abdullayev N.Ə. Ədəbi tələffüz təliminin metodikası. Bakı: "Maarif" 1986.
2. Azərbaycan dilinin orfoepiya sözlüyü. Bakı: "Elm", 1982.
3. Azərbaycan dili. I sinif üçün dərslik. Bakı: "Altun-kitab", 2012.
4. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: ADPU, 2015.
5. İsmayılov R.,Orucova G.,Xəlilov Z.,Cəfərova D. Azərbaycan dili (II sinif ). Bakı: "Altun Kitab", 2009.
6. İsmayılov R.,Orucova G.,Cəfərova D., Xəlilov Z. Azərbaycan dili (III sinif ) Bakı: "Altun Kitab", 2010.
7.İsmayılov R.,Abdullayeva S.,Cəfərova D.,Qasımova X.Azərbaycan dili (IVsinif ). Bakı:"Altun Kitab", 2015.
8. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: "Nasir", 2003.

**Содержание работы по присвоению навыков литературного произношения на уроках чтения**

**резюме**

В статье рассказывется о содержании работы по присвоению навыков литературного произношения на уроках чтения. Отмечается, что в начальных классах преподается ни только нормы обучения чтению и литературного произношения, но в целом и азербайджанский язык. Это дает возможность охватить многие отрасли языковых правил. В связи с этим создается тесная связь между уроками чтения и языка. Реализуя какую то тему по чтению проводится лексическая работа, решаются конкретные задачи по орфографии и орфоэпии. Доводится до сведения учеников, что в текстах по чтению написания и произношения некоторых слов отличаются.

**The content of the work on the assignment of literary skills pronunciation in reading lessons**

**summary**

The article tells about the content of the work on assigning the skills of literary pronunciation in reading lessons. It is noted that in the primary classes there are taught not only the norms of teaching reading and literary pronunciation, but in general the Azerbaijani language as well. This makes it possible to cover many branches of language rules. In this regard, a close relationship between the lessons of reading and language. Realizing some sort of topic on reading, the lexical work is carried out, specific tasks on spelling and orthoepia are solved. It is brought to the attention of the students that in the texts on reading the spelling and pronunciation of certain words are different.

# İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRDLƏRƏ İNGİLİS DİLİNİN ÖYRƏDİLMƏSİNİN PSİXOLİNQVİSTİK ƏSASLARI

**Ülviyyə Mehdiyeva,**
ARTİ, kurikulum şöbəsinin fəlsəfə doktoru
proqramı üzrə qiyabi doktorantı,
mehdiyevaulviyya@gmail.com



**açar sözlər:** ibtidai sinif, ingilis dili, linqvistika, psixoloji əsaslar, kommunikasiya, inkişafetdirici fəaliyyət, ünsiyyət;
**ключевые слова:** начальные классы, английский язык, лингвистика, психологические основы, коммуникация, развивающая деятельность, общение;
**key words**: primary classes, the english language, linguistics, psychological bases, communication, developing activity, intercourse.

Müasir inkişaf mərhələsində Azərbaycanda təhsilin modernləşdirilməsi xarici dilin tədrisində innovativ proseslərin tətbiqi ilə bağlıdır. Bu gün diqqət mərkəzində şagird şəxsiyyəti və onun daxili aləmidir. Ona görə də təlim prosesində şəxsiyyətin inkişafına yönəlmiş məqsədəmüvafiq optimal forma, metod və priyomların seçilməsi zəruridir. Son illərdə ibtidai siniflərin ingilis dili dərslərində yeni təlim texnologiyalarının tətbiqindən tez-tez söhbət açılır. Bu, həm də yeni forma və metodların tətbiqi, təlim prosesinə yeni yanaşmadır.

Dilin səs sistemini, lüğət ehtiyatını və qrammatik quruluşunu dərindən mənimsəmədən ona hərtərəfli ünsiyyət vasitəsi kimi yanaşmaq mümkün deyil. Dil dərslərində sadəcə qaydaların əzbərlənməsi heç də arzu olunan nəticəni vermir. Bu, təlim prosesində nitq fəaliyyətinin kommunikativ funksiyasının aparıcı amilə çevrilməsini ön plana çəkir və tədqiqatın aktuallığını sübut edir.

Beləliklə, ibtidai siniflərdə ingilis dili təliminin əsas məqsədi dili mənimsəməklə şagirdin xarici dildə kommunikativ bacarıqlarının formalaşdırılması və inkişafıdır.

Psixoloji ədəbiyyatda nitq fəaliyyəti insanların verbal ünsiyyət prosesində ictimai-kommunikativ fəaliyyətin reallaşdırılması kimi müəyyənləşdirilir. Nitq fəaliyyətinin növləri aşağıdakılardır:

- dinləmə və anlama;
- danışma;
- oxu;
- yazı.

Fəaliyyətin bu növləri nitq kommunikasiyasının əsasını təşkil edir. İnsanın ünsiyyət səriştəliliyi nitq fəaliyyəti növlərinin nə dərəcədə formalaşmasından asılıdır. Nitq fəaliyyətinin formalaşmasının səviyyəsi dilin mənimsənilmə dərəcəsinin qiymətləndirilməsinin meyarı və ümumi mədəniyyətin göstəricisidir.

Verbal ünsiyyət prosesində nitq fikrin dil vasitəsilə formalaşdırılması qabiliyyəti kimi şərh olunur. Nitq fəaliyyətinin əsas cəhətləri bunlardır:

- kommunikativ məzmun (fikir, informasiya mübadiləsi);
- maddi, linqvopsixoloji fəaliyyət (eşitmə, görmə, hərəki analizatorların funksiyası və nitq aparatının aparıcı rolu olmaqla onların mürəkkəb qarşılıqlı təsiri).

Nitq fəaliyyətinin və onun kommunikativ funksiyasının reallaşdırılması metodundan asılı olaraq nitq fəaliyyətinin növləri aşagıdakı kimi şərh olunur:

- *Produktiv (ekspressiv)* fəaliyyətdə fikirlər başqaları üçün şifahi, yaxud yazılı şəkildə formalaşdırılır və ifadə olunur.
- *Perseptiv* fəaliyyətdə fikirlər və informasiyalar şifrələşdirilir, şifahi formada qavranılır.

Nitq fəaliyyətinin ekspressiv növündə insan fikrin ifadə olunması üçün dil vasitələrindən istifadə edir. Perseptiv növdə isə diqqət dil vasitələrində ifadə olunan məzmuna yönəlir.

Müəyyən nitq fəaliyyəti üçün analizatorlardan biri aparıcı olmaqla, onların mürəkkəb qarşılıqlı təsiri müşahidə edilir. Nitq prosesində nitq–motor analizatoru aparıcı rol oynayır, eşitmə analizatoru onu müşayiət edir. Dinləmədə isə proses əksinə gedir. Oxu prosesində aparıcı analizator görmə, onu müşayiət edən isə eşitmə və nitq–motor analizatorlarıdır. Yazı prosesində aparıcı analizator hərəki, müşayiət edən isə görmə, eşitmə və nitq–motor analizatorlarıdır.

Xarici dilin mənimsənilməsinin əsasını eşitmə və nitq–motor analizatorlarının birgə fəaliyyəti kimi tezislər, fizioloji əsasını dilin bütün səviyyələrində nitqin dinamik əlaqələrinin (fonetik, leksik, qrammatik) vahidliyi təşkil edir. İnsanın fərdi nitq təcrübəsi onun inkişafı prosesində əldə olunur. Xarici dilin qeyri-fəal mənimsənilməsi nitq təcrübəsində, avtomatlaşdırılmış nitq əlaqələrində baş vermir. Dil hadisələrinin tanınmasının avtomatlaşdırılmış prosesləri, nümunələrin görmə yaddaşında qorunan müqayisəli qavranılması və başa düşülməsi onun əsasını təşkil edir.

Psixoloji ədəbiyyatda nitq fəaliyyətində aşağıdakı proseslərin zəruriliyi müəyyənləşdirilir:

- motivasiya;
- tədqiqatçılıq;
- təhlil-tərkib;
- nitq fəaliyyətinin produktiv növlərində icra.

Təlim prosesində aşağıdakı amillərin də nəzərə alınması vacib şərtləndəndir:

- həvəsləndirici amil;
- fikri formalaşdıran amil;
- səviyyələri formalaşdıran amil.

**Motivasiya mərhələsinin** məzmunu, kommunikativ niyyətin nəticəsi kimi, hərəkətlərin motiv və məqsədlərinin mürəkkəb qarşılıqlı təsirindən ibarətdir. Dildən ünsiyyət vasitəsi kimi istifadə edərkən nitq fəaliyyətinin produktiv və reseptiv növlərində motivasiyanın müxtəlif xarakterə malik olmasını göstərmək məqsədəuyğundur.

Motiv nitq fəaliyyətinin xarakterini ifadə edir. Kommunikativ niyyət isə danışanın dinləyənə bu və ya başqa formada təsir edəcəyini planlaşdıraraq, hansı kommunikativ məqsədi izlədiyini bildirir. Nitq fəaliyyətinin başlıca motivi oxu və ya dinləmə zamanı insanın yeni informasiyanı qəbul etməsi üçün daxili ehtiyacının və marağının yaranmasıdır. Mükəmməl nitq ünsiyyəti üçün onun kommunikativ-idraki əhəmiyyəti və marağı zəruridir. Şagirdlərin yaşından, xarici dil biliklərinə yiyələnməsindən asılı olaraq, motivasiya yolları müxtəlifdir:

- situativ-rollu oyunlar;
- kommunikasiyanın məzmun tərəfi.

Motivlə yanaşı, reallaşacaq ifadənin ümumi məzmunu da yaranır.

**Formalaşdırıcı mərhələ** nitq hərəkətlərinin həyata keçirilməsi üçün vasitələrin seçilməsi və təşkilini özündə ehtiva edir. Bütövlükdə bu, nitq fəaliyyətinin proqramlaşdırılması, daxili nitqin təşkili, ifadənin leksik, artikulyativ və qrammatik qurulması prosesidir.

**İcra mərhələsi** nitqin reallaşma səviyyəsi olub, hərəkətlərin, tərtibatların və əqli əməliyyatların məcmusudur. Nitqdə fikrin reallaşdırılması mexanizmi proqramda verilən ifadələrin reallaşdırılmasını təmin edən müəyyən avtomatlaşdırılmış proseslərin məcmusundan ibarətdir. Bu mexanizm aşağıdakı mərhələlərdən ibarətdir:

- tələffüz;
- intonasiya;
- ifadənin, dil normalarına uyğun olaraq, daxili qrammatik tərtibi.

Sözlərin tərtibi və əməliyyatlar nitqin təkmilləşdirilməsinin müəyyən səviyyəsinə, yəni danışıq prosesində ifadənin məzmununa yönəlmiş diqqəti təmin edən vərdişlərə qədər davam etdirilir.

Xarici dilin tədrisi metodikası linqvistikaya əsaslanır, dilin linqvistik qanunlarının, qrammatik quruluşunun, fonetik, leksik sisteminin xüsusiyyətlərini özündə daşıyan materallardan bəhrələnir.

Xarici dilin öyrənilməsində şagirdlərin şüurunda, iki dil (ana dili, xarici dil) sisteminin qarşılıqlı təsiri özünü büruzə verir. Dil və nitq fərqləndirilir, lakin onlar bir fəaliyyətin iki tərəfi olmaqla vəhdət təşkil edir. Onlar təbiətinə görə bir-birini tamamlayan əlamətlərlə xarakterizə olunur. Dil və nitq dialektik xarakter daşıyır, daim bir-birinə uyğunlaşdırılır, lakin eyniləşdirilmir. Akademik L.V. Şerbanın fikrincə, dil hadisələrinin üç aspektini müəyyən etmək olar:

- nitq fəaliyyəti;
- dil sistemi;
- dil materialı.

O, danışma və dinləmə prosesini nitq fəaliyyəti adlandırarkən qeyd edir: "Dinləmə və təfsir işarələri proseslərinin fəallığı və vacibliyi dil adlandırdığımız həmin hadisənin məcmusundan o qədər də aşağı deyil". [6, səh.24]

L.V.Şerba dil ilə nitq arasında fərqi izah edərək bildirmişdir ki, dil – ünsiyyət münasibətlərinin qurulması qaydalarının yaradılması yollarının mücərrədləşdirilmiş sistemidir. Hər hansı dildə danışmaq insanın nizamlanmış dil təcrübəsinə yiyələnməsini və onun sistemini bilməsini tələb edir. Bu proses nizamlanmış linqvistik təcrübə sayəsində baş verir.

Xarici dildə nitq fəaliyyəti o zaman baş verir ki, şagirdlərdə beyinə daxil olan informasiyanın işlənməsi və sistemləşdirilməsi nəticəsində əmələ gələn qrammatik və leksik qaydalar yaranır.

Kommunikasiya prosesində nitqin əsas funksiyası fikrin ifadə olunmasıdır.Yuxuda olduğu vaxtdan başqa insan bütün gün ərzində düşünür, fikir formalaşdırır. Nitq fikirlə sıx bağlıdır. L.S.Vıqotski bildirmişdir ki, nitq fikrin sözə çevrilməsi, sözlərin materiallaşdırılması prosesidir.

Təfəkkürdə nitq anlayışlarının rolu böyükdür. Düşünmək fikri əməliyyatlar aparmaq deməkdir. Düşünmək üçün fikirləri ifadə edən sözləri bilmək zəruridir. Ona görə də, təfəkkürün inkişafı və idrak fəaliyyətinin tədricən mürəkkəbləşməsinin əsas şərti dil vasitələrinin (söz ehtiyatının, qrammatik forma və konstruksiyaların) mənimsənilməsidir. Məşhur rus psixoloqu N.İ.Jinkin qeyd edirdi ki, nitq intellektin inkişaf kanalıdır. Dil nə qədər tez mənimsənilərsə, biliklər də bir o qədər asan və tam əldə edirlər.

Nitq, insan fəaliyyətinin əsas növlərindən biri kimi, məqsədyönlülüyü ilə xarakterizə olunur. O, bir neçə mərhələdən ibarətdir: *oriyentir, planlaşdırma, reallaşdırma və nəzarət*. Hər bir nitq aktı bu mərhələlərə uyğun həyata keçirilir. İkinci dilin təlimində bunun nəzərə alınması mühümdür.

Hər bir nitq aktının başlanğıc nöqtəsi nitq situasiyasıdır. Bu zaman elə şərait yaradılmalıdır ki, (rollu oyunlar, sinif otağının tərtibatı, yeni təlim texnologiyalarının tətbiqi, görülən işlərin nəticələri haqqında məlumatın verilməsi, dostlarla ünsiyyət və s.) insanı danışmağa təhrik etsin. Nitq situasiyası danışmaq üçün motiv yaradır və bu aktın yerinə yetirilməsində ifadə seçimini təmin edir.

Nitq aktının mərhələləri aşağıdakılardır:

- **ifadənin hazırlanması:** motivlərin, ehtiyacların, məqsədlərin dərk edilməsi, şəraitdən asılı olaraq ifadələrin proqnozlaşdırılması;
- **ifadənin qurulması:** sözlərin seçimi, onların qrammatik cəhətdən formalaşdırılması, lazımi ardıcıllıqla düzülməsi;
- **xarici nitqə keçid:** ifadənin səs və qrafik tərtibatı. Bu, ifadənin nəticəsinin müsbət və ya mənfi olduğunu müəyyən etməkdə çox məsuliyyətli mərhələdir. Əgər daxili nitqin xarici nitqə keçməsi hər hansı bir səbəbə görə pozulursa, daxili nitq xarici nitqdə kifayət qədər dolğun ifadə olunmursa, bu cür nitq çətin anlaşılır. Nitq aktının nəticələri onun qavranılması və əks təsirinin necəliyi ilə izah edilir. Nitqin qavranılması aşağıdakı mərhələləri özündə ehtiva edir:

- akustik və ya qrafik koddan daxili nitq koduna keçid;
- sintaktik strukturların və qrammatik kodun açılması;
- ifadənin ümumi planının başa düşülməsi;
- ifadənin niyyətinin və motivinin anlaşılması;
- alınmış informasiyanın (məzmunu, ideyaları, danışanın mövqeyi və s.) qiymətləndirilməsi.

Dərketmə, qavrama prosesinin tərkib hissəsi kimi, iki səviyyədən ibarətdir: dil və məzmun. Deyiləni tam başa düşmək həmişə mümkün olmur. Qavrayanın öz müsahibinin ifadələrini dərk etməyə fəal istəyi olduqda səmərəli qavrama baş verir.

Əks-əlaqə, ifadəyə reaksiya olmaqla, nəticəni qiymətləndirməyə imkan verən nitq aktının mühüm elementidir. Əks-əlaqə dialoji nitqdə daha fəal ifadə olunur.

Zəruri informasiyanın dərk edilməsinin keyfiyyəti bir sıra amillər kompleksindən – kommunikasiyanın həyata keçirildiyi müxtəlif şəraitlərdən asılıdır. Belə şəraitlərin məcmusu *kontekst* adlanır. Ünsiyyətin ümumi kontekstinin məlum və gizli tərəfləri mövcuddur. Məlum kontekst *verbal* və *qeyri-verbal* növlərə ayrılır, gizli kontekstdə isə müşahidə mümkün olmur. Gizli kontekstə kommunikasiyanın motivləri, məqsədləri, niyyətləri, quruluşları və insanın şəxsi xarakteristikaları (bilik səviyyəsi, sosial vəziyyət, xarakter və s.) aid edilir.

Kontekstdən asılı olaraq, fikrin ifadəsi müxtəlif nəticələrə gətirib çıxara bilər. Nitq ünsiyyətinin əsas məqsədi informasiya mübadiləsi olduğundan insan qarşısındakı müsahibini həmişə anlamağa çalışır. Buna görə də ünsiyyət prosesinə təsir edən faktorlardan düzgün istifadə zəruridir və nitq kommunikasiyasının müxtəlif forma və tipləri müəyyənləşdirilmişdir.

Nitq kommunikasiyasının *şifahi* və *yazılı* formaları mövcuddur. Bu formaların tiplərini müəyyənləşdirmək üçün hər formanın aşağıdakı əlamətləri vardır:

**Ünsiyyət şəraiti:** fəal əks-əlaqə ilə birbaşa və ya *bilavasitə ünsiyyət* (dialoq) və yazılı əks-əlaqə; *vasitəçi ünsiyyət* (radio, televiziya və müxtəlif informasiya vasitələrində çıxışlar).

**İştirakçıların sayı:** *monoloq* (bir nəfərin nitqi); *dialoq* (iki nəfər arasında danışıq); *poliloq* (bir neçə nəfər arasında danışıq).

**Ünsiyyətin məqsədi:** informasiyanı paylaşma; inandırma, həvəsləndirmə; əyləncə.

**Şəraitin xarakteri:** işgüzar ünsiyyət (məruzə, diskussiya və s.); məişət ünsiyyəti (yaxın insanlarla ünsiyyət).

Kommunikasiyanın hər bir forması üçün xüsusi dil vasitələri (sözlər, qrammatik konstruksiyalar və s.), davranış taktikası mövcuddur ki, nitq prosesində müvəffəqiyyətin əldə edilməsi məhz bu faktorlardan asılıdır. İnformasiyasız nitq kommunikasiyası ola bilməz.

O.Y.Qoyxman və T.M. Nadeina qeyd edirlər ki, nitq kommunikasiyası hansı şəraitdə həyata keçirilməsindən, informasiyaların hansı vasitələrlə verilməsindən, ünsiyyətdə neçə nəfərin iştirak etməsindən asılı olmayaraq, onun əsasını vahid sxem və ya model təşkil edir. Müəlliflər nitq kommunikasiyası modelini aşağıdakı kimi təqdim etmişlər:

*informasiya ötürücüsü* – danışan, yaxud yazan;
*informasiyanı qəbul edən* – dinləyən, yaxud oxuyan;
*məlumat* – (şifahi və ya yazılı mətn) modelin ayrılmaz hissəsi.

Hər bir nitq aktı (kommunikasiya fraqmenti, dialoqda müsahiblərdən birinin replikası) ayrılıqda *kommunukativ akt* adlanır. Kommunikativ akt çərçivəsində informasiya ötürücüsü onu motivə uyğun olaraq daxili nitqində formalaşdırır, xarici nitqə çevirəndə isə səsləri şifrələyir. İnformasiyanı qəbul edən isə daxil olan siqnalı qavrayaraq şifrəni açıqlayır və ifadənin mənasını dərk edir. Bu zaman da fikir mübadiləsi gedir, danışmaq üçün motiv, əks-əlaqə yaranır. Başqa sözlə – ötürücü və qəbuledici yerlərini dəyişsələr də, kommunukativ aktın sxemi əvvəlki kimi qalır. Beləliklə, nitq kommunikasiyası – yalnız danışıq və söhbət deyil, eyni zamanda informasiya mübadiləsi məqsədi ilə qarışılıqlı təsirdir.

Ünsiyyət sosial hadisədir. Nitq fəaliyyətinin sosial xarakteri fəaliyyət göstərdiyi şəraitlə, ünsiyyətə sövq edən motivlərlə, hansı məqsədlərə xidmət etməsi ilə müəyyən olunur.

Xarici dilin öyrədilməsinin nəzəri məqsədlərini anlamaq üçün onun sisteminin dərk olunması vacibdir. İbtidai siniflərdə xarici dilin öyrədilməsi məqsədilə dil materialı elə həcmdə mənimsənilməlidir ki, münasib şəraitdə kommunikativ məqsədlərə xidmət etməklə onun tətbiqi reallaşır və dil materialı xarici dilin öyrədilməsində kommunikativ məqsədə və yanaşmaya uyğun seçilir. Bu tələblərə cavab verən dil materialının seçimi kompleks xarakter daşıyır. Belə ki, yalnız cümlə səviy-

yəsində nitq vahidində dilin aspektlərinin kompleks birləşməsi nitq kommunikasiyasının əsasını təşkil edir.

Şagirdlər nitq vahidini mənimsəyərək, onlardan nəzəri öyrənmə obyekti kimi deyil, kommunikasiya məqsədi ilə istifadə etməyi bacarırlar. Cümlə səviyyəsində nitq vahidini *nitq nümunəsi*, yaxud *nitq modeli* də adlandırırlar. Onun strukturuna, məzmununa və mənasına müvafiq nümunələr tərtib etmək olur. Belə *nitq vahidinin* metodik dəyəri ondadır ki, burada dilin bütün səviyyələrinin əlaqəsi ünsiyyət və təfəkkür vasitəsi kimi sadə nitq fəaliyyətində reallaşır.

Cümlə modeli metodik məqsədlərdən asılı olaraq, dilin morfoloji və sintaktik mənimsənilməsi, həmçinin müvafiq qrammatik vərdişlərin formalaşdırılmasına xidmət edir. Dilin leksikası, stilistik və semantik normaları sözlərarası əlaqələrin yaranmasını təmin edir.

Dialoji və monoloji nitq nitqin əsas formalarıdır.

Yuxarıda qeyd etdiklərimiz göstərir ki, xarici dilin təlim fənni kimi spesifikliyi həm də psixoloji prinsiplərin nəzərə alınmasını zəruri hesab edir:

• təlimin kommunikativliyi (kommunikativ vəzifələrin, qarşılıqlı təsir forması kimi ünsiyyətin təlim prosesinə daxil edilməsi);

• şagirddə problemə, mövzuya, fənnə və ünsiyyətə maraq;

• ünsiyyət situasiyalarının (tərəf-müqabil, mövzu, proses və nəticə) şagirdi təmin etməsi;

• öyrənənin refleksiyası (o, xarici dildə fikirlərin formalaşdırılması üçün vasitə və yolların adekvatlığını qiymətləndirərək prosesi idarə edir);

• əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi amili kimi şagirdin ünsiyyətdə müvəffəqiyyət qazanmasının pozitivliyi;

• xarici dildə ünsiyyət qurmağa imkan verməyən maneənin, sosial maneənin (rol, status, səriştəlilik səviyyəsi və s.) olmaması.

Kiçikyaşlı məktəblilər ünsiyyəti və emosionallığı ilə yuxarı sinif şagirdlərindən fərqlənirlər. Onlarda psixi proseslər (təfəkkür, qavrama, diqqət və yaddaş) intensiv inkişaf edir, lakin mükəmməl deyil. Bu yaşda uşaqlarda təlimə iradi səy göstərmək və adekvat özünüqiymətləndirmə kifayət qədər inkişaf etməmişdir. Ona görə də təqdim olunan fəaliyyət növü onlar üçün maraqsız olduqda və ya düzgün qiymətləndirilmədiklərini hiss etdikdə intizamsızlığa yol verir, küskün, bədbin olurlar. Uşaqlar arasında yoldaşlıq və dostluq əlaqələrinin təlim prosesində nəzərə alınması vacibdir. Onlar bu dövrdə oyunlara, qiraətə, maraqlı hekayə və nağıllar dinləməyə həvəs göstərirlər.

Yuxarıda qeyd olunanları nəzərə alaraq belə qənaətə gəldik ki, ibtidai siniflərdə ingilis dilinin tədrisindən məqsəd şagirdlərin həmin dildə rabitəli nitqinin inkişaf etdirilməsi, onlara oxu və yazı vərdişlərinin aşılanması, müxtəlif situasiyalarda kommunikativ ünsiyyətin təmin edilməsidir. Ayrı-ayrı söz və ifadələrin əzbərlənməsi və təkrarı müsbət nəticə vermir. Dilin əlaqələndirici vasitələri üzərində iş nəticəsində ayrı-ayrı cümlələr tam məntiqi fikir kimi formalaşır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil Proqramı (kurikulumu, I–IV siniflər) .
2. Əlizadə Ə.Ə. Müasir dərsin konseptual modelinə dair. “Kurikulum”, 2012, №4.
3. Выготский Л.С. Мышление и речь. Москва: “Лабиринт”, 1934.
4. Гойхман О.Я., Надеина Т.М. Речевая коммуникация. (учебник, 2-е издание). Москва: ИНФРА, 2008.
5. Зимняя И.А. Психология обучения иностранным языкам в школе. Москва: “Просвещение”, 1991.
6. Щерба Л. В. Языковая система и речевая деятельность. Ленинград: “Наука”, 1974.

**Психолингвистические основы обучения английскому языку учащихся начальных классов**

**резюме**

В статье излагаются психолингвистические основы обучения английскому языку учащихся начальных классов, с опорой на мысли классиков, а также современных психологов. Автор отмечает активный и пассивный вид усвоения иностранного языка и обосновывает единство динамических связей речи на всех уровнях языка (фонетический, лексический, грамматический, развитие связной речи) как физиологическую основу активного усвоения. Раскрываются структура и компоненты речевой деятельности. Предлагаются формы и типы речевой коммуникации при обучении английскому языку учащихся начальных классов.

**Psycholinguistic fundamentals of teaching english to primary school pupils**
**summary**

The article presents questions of psycholinguistics, drawing on the ideas of the classics as well as contemporary psychologists. The author notes the active and passive form of mastering a foreign language, and proves the unity of the dynamic relations of speech at all levels of language (phonetic, lexical, grammatical, coherent speech development) as the physiological basis of active learning. It reveals the structure and components of speech activity. Forms and types of speech communication are offered in the article when teaching English to primary school students.

# İBTİDAİ SİNİFLƏRDƏ LÜĞƏT ÜZRƏ İŞ

**Nuridə Nəcəfova,**
Bakı Mühəndislər Universitetinin magistrantı
Nuride.necefova@mail.ru



**açar sözlər**: lüğət ehtiyatı, söz, lüğətin zənginləşdirilməsi, lüğətin fəallaşdırılması, lüğətin təmizliyi, lüğətin dəqiqləşdirilməsi, metodlar və priyomlar;

**ключевые слова:** словарный запас, слово, обогащение словарного запаса, активизация словарного запаса, чистота словарного запаса, уточнение словарного запаса, методы и приемы;

**key words:** vocabulary, word, vocabulary enrichment, vocabulary activation, vocabulary purity, vocabulary clarification, methods and techniques.

Uşaq anadan olduqdan bir qədər sonra, təxminən 2 yaşına çatanda dildəki ən sadə sözləri öyrənməyə, cümlə qurmağa can atır. Uşağı əhatə edən ətraf aləm onun yeni sözlər öyrənməsinə şərait yaradır və nitqini nisbətən təmin edir. 6 yaşınadək uşaqların lüğət ehtiyatındakı sözlərin sayı 3000–3500-ə çatır. O, ana dilində sərbəst danışa bilir. 6 yaşından sonra məktəbə gedən uşaqlarda yeni fikir ifadə etmə ehtiyacları yaranır, onlar çatdırmaq istədikləri fikri daha dəqiq və anlaşılan şəkildə bildirmə problemləri ilə qarşılaşırlar. Bu cəhətdən şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsi və nitq inkişafı üzrə aparılan işlər müəllimlərin ümdə vəzifələrindən biri hesab olunur.

Ana dili dərslərində lüğət ehtiyatının zənginləşdirilməsi həmişə böyük pedaqoq və elm xadimlərinin diqqət mərkəzində olmuşdur. Pedaqoqların fikrincə, hər bir sözü şagirdə mənimsətmək üçün əvvəlcə onun leksik və qrammatik mənasını izah etmək vacib şərtlərdəndir. Bunsuz dili mənimsətmək olmaz. Söz ehtiyatı zəngin olan uşaqlar fikirlərini aydın, səlis ifadə edə, düşündüklərini dinləyənlərə çatdıra bilirlər. Onların bilikləri də hərtərəfli olur.

Məlumdur ki, söz nitqin əsas vahididir. Onun məzmununun şagird tərəfindən mənimsənilməsi lüğət işini asanlaşdırır. Lüğət tərkibinin əsas hissəsi dilimizdə yeni sözlərin yaranması üçün bazadır. Əsas lüğət fonduna daxil olan sözlər zəruri, həyati məfhumları ifadə edən, hamı tərəfindən anlaşılan sözlərdir. Dildə daim yeni sözlər yaranır, bəziləri isə köhnələrək əsas fonddan çıxır. Əsas lüğət fondundan müəyyən sözlər daim uşaqların fəal lüğət ehtiyatına daxil olmalıdır. Elmi terminlər, dialektizmlər, jarqonlar, arxaik sözlər, yeni sözlər dilimizin lüğət tərkibinin əlavə hissəsinə daxildir. Bu sözlərin şagirdlərin lüğət fonduna daxil olması və ya onların mənalarının anlaşılması üçün dil dərslərində xüsusi iş aparılmalıdır. Bəzən uşaqların lüğət ehtiyatında müntəzəm istifadə etdikləri sözlərdən başqa, mənasını bilib, lakin nitqlərində az işlətdikləri və ya heç işlətmədikləri sözlər də olur. Belə sözlər şagirdlərin qeyri-fəal lüğət fondunu təşkil edir. Onların mənası şagirdlərə tədricən məlum olur. Beləliklə, qeyri-fəal lüğətin hesabına da uşaqların lüğət ehtiyatı zənginləşir. Ümumiyyətlə, lüğət üzrə işlərə aşağıdakılar daxildir:

- şagirdlərin dilimizin lüğət ehtiyatına yiyələnmələri;
- yeni sözün mənası üzərində iş;
- tanış sözün mənasının dəqiqləşdirilməsi üzərində iş;
- şagirdlərin sözün üslubi funksiyasını hiss etmək və nitq təcrübəsində ondan düzgün istifadə olunması vərdişinin inkişafı üzrə iş;

- lüğətin fəallaşdırılması üzrə iş;
- leksik səhvlər üzərində iş.

Lüğət işinin aparılması aşağıdakı tələblərə cavab verməlidir:

İlk növbədə, lüğət işi nitq inkişafının digər sahələri ilə əlaqəli aparılmalıdır, yəni hər bir dərsdə lüğət işi nitqin səs mədəniyyəti, qrammatik anlayışların formalaşması, ədəbi əsərlərin oxunması, rabitəli nitqin inkişafı ilə əlaqələndirilməlidir.

Lüğət işini xüsusi məşğələlərlə məhdudlaşdırmaq olmaz. Bu iş bütün fənlərin tədrisində, sinifdənxaric məşğələlərdə, hətta istirahət zamanı da diqqət mərkəzində olmalıdır. Lüğət üzrə iş prosesində müxtəlif metod və priyomlardan istifadə edilməlidir.

Lüğət üzrə işdə əsas məqsəd sözün mənasını izah etmək və şagirdin nitqinin lüğət fondunu zənginləşdirməkdir. Azərbaycan dili dərslərində söz yaradıcılığı üzrə aparılan praktik işlər prosesində sözdüzəldici şəkilçilərin praktik imkanlarını müəyyənləşdirməkdən başlamaq lazımdır. *Üzümçü, üzgüçü, məktəbli, suçu* və s. düzəltmə sözlərdə söz kökünün ifadə etdiyi mənalar şagirdlərə tanışdır. Bunu nəzərə alaraq, şagirdlərə aşağıdakı tipli çalışmalar vermək onların idraki fəallığını artırır.

- Uyğun gələn sözlərdən istifadə etməklə mətni zənginləşdirin.
- Verilmiş sözlərdən (*qorxu, nəzakət, mədəniyyət*) sifət düzəldib, cümlədə işlədin.
- Verilmiş sözlərdən birləşmələr düzəldib yazın: *Nizami, əsər, oxu, kitab, Nəzrin, kukla.*

Lüğət üzrə iş şagirdin fəaliyyətini asanlaşdırır. Şagird fikrini aydın, səlis ifadə etdiyi üçün ona özünüifadə də asan gəlir. Şagirdlə yanaşı, lüğət üzrə iş valideynlərin də işini asanlaşdırır. Lüğət üzrə işdə əsas məsələ sözün leksik mənasını izah etməklə şagirdin lüğət fondunu zənginləşdirməkdir.

Lüğət ehtiyatını mürəkkəb sözlərlə zənginləşdirərkən onları komponentlərə ayırmağı nəzərdən qaçırmaq olmaz. Təhlil zamanı şagirdlər mürəkkəb sözün ifadə etdiyi məna ilə yanaşı daxilindəki komponentlərin də yeni mənalarını öyrənir, əmin olurlar ki, mürəkkəb sözün ifadə etdiyi məna ilə onu yaradan sözlərin mənaları müxtəlifdir. *Çobanyastığı, kəklikotu, itburnu* kimi sözlərin təhlili bunu aydın göstərir.

Lüğət üzrə iş qrammatikanın tədrisi prosesində hər an nəzərə alınmalıdır. Belə ki, şagirdlərin dilin qrammatik formalarını şüurlu dərk etmələri, dil vahidlərini şüurlu mənimsəmələri lüğət ehtiyatının zənginləşməsi üçün geniş imkanlar yaradır. Lüğət üzrə iş prosesində lüğəvi- məntiqi, lüğəvi-orfoqrafik, lüğəvi-qrammatik çalışmalar mühüm yer tutur.

İbtidai sinif şagirdlərinin şifahi nitqinin formalaşmasına və onların lüğət fondunun zənginləşdirilməsilnə xidmət edən məntiqi çalışmaların tətbiqi şagirdlərdə müsbət nəticələr formalaşdırır: Verilmiş kvadratda əks olunan çap hərflərini taparaq sözlər düzəldin.



**Nümunə:** ***xala, ilxı, saz***

**Elmi-kütləvi mətnlərin tədrisində lüğət üzrə işin təşkili.** Şagirdlər I sinifdən başlayaraq müxtəlif sadə kitablar (dərsliklər, bədii, elmi kitablar) oxuyurlar. Onlar müxtəlif sahələrə aid kitablar oxuduqca yeni-yeni söz və terminlərlə qarşılaşırlar. Bəzən elə hallar olur ki, şagirdlər sözün mənasını başa düşmür, lakin həmin sözü cümlədə işlətdikdə məzmunu mənimsəyə bilirlər. Bütün bunlar məzmunun qavranılmasını asanlaşdırdığı kimi, şagirdlərin lüğət ehtiyatının yeni sözlər hesabına zənginləşməsinə, eləcə də leksik mənanın anlaşılmasına kömək edir. Belə mətnlər uşaqlarda əşya və hadisələr haqqında obrazlı təsəvvür yaradır. Onlar haqqında söhbət gedən əşyanın, hadisənin sözlərlə "şəklini çəkirlər". Bəzən sözün mənasının başa düşülməsinə cümlə də kömək etmir. Belə hallarda əyani vəsaitlərdən istifadəyə ehtiyac yaranır və şagirdlər natural əşya, şəkillər, modellər, müqəvvalar, kolleksiya və herbarilərin köməyi ilə məzmunu mənimsəyə bilirlər. İbtidai siniflərdə elmi-kütləvi mətnlərin oxusu zamanı şagirdlər pambıq qozası, barama qurdu, cırcırama və başqa həşərat herbariləri ilə tanış olurlar. Dağ keçisi, ceyran, aslan, köpək balığı şəkilləri, qartal, qaraquş, ağacdələn müqəvvaları da yeni söz və ifadələrin mənasının anlaşılmasını asanlaşdırır.

**Bədii mətnlərin tədrisində lüğət üzrə işin təşkili.** Bədii əsərlər də şagirdlərə ətraf aləm, varlıqlar haqqında zəngin məlumat verir. Bu əsərlər varlığı obrazlı əks etdirməsinə görə digərlərindən

fərqlənir. Bədii əsərlərdə qəhrəmanlar, onların münasibətləri, fikir və hissləri, əməyi, mübarizəsi təsvir edilir. Bu əsərlərin tədrisində müxtəlif terminlərdən (*iştirak edən şəxs, bədii obraz, qəhrəman, personaj, obrazlı söz, obrazlı ifadə, obrazlı təsvir* və s.) istifadə olunur, lakin bəzən bu anlayışların məzmunu açıqlanmır.

İbtidai siniflərdə bədii obraz üzərində iş lüğət üzrə iş prosesinin bir hissəsidir. Belə ki, bədii əsəri oxuyarkən əsərdə təsvir olunan həyati faktların, hadisələrin, hərəkətlərin, doğma vətənin təbiət təsvirlərinin hərtərəfli qavranılması və ifadə olunması şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsində mühüm rol oynayır. Elmi-kütləvi materiallardan fərqli olaraq, bədii əsərlər üzərində işin öz xüsusiyyətləri var. Ədəbiyyatın söz sənəti olması, şagirdləri doğma dilimizin söz xəzinəsi ilə, yazıçı və şairlərin ədəbi dili ilə tanış etməsi bütövlükdə şəxsiyyətin formalaşmasının mühüm vəzifələrindəndir. İbtidai siniflərdə oxu üçün xüsusi mətnlər seçilməlidir. Burada bütün janrlarda (hekayə, bədii oçerk, lirik şeirlər, təmsillər, nağıllar, yanıltmaclar, hətta dastanlardan parçalar) mətnlər verilir. Oxu prosesində belə bir ardıcıllığın gözlənilməsi vacibdir:

- müsahibə, ilkin oxu;
- müsahibə, təkrar oxu;
- mətnə başlıqların verilməsi;
- oxu və nəqletmə;
- yekun müsahibəsi.

Belə müsahibə və nəqletmələrə əsər üzərində işdən artıq vaxt sərf olunur. Şagirdlərin oxusuna daha çox vaxt ayrılmalıdır. Bu, həm şagirdlərin nitq inkişafına yaxşı təsir göstərər, həm də lüğət üzrə işin daha səmərəli təşkilinə imkan verər.

Əsərin hissə-hissə oxunub təhlil edilməsi lüğət üzrə işin inkişafında mühüm mərhələdir. Bu mərhələdə hətta ən zəif şagirdlər də oxu texnikası üzrə müəyyən vərdişlərə yiyələnir, yeni sözləri və onların mənalarını öyrənməyə çalışırlar.

I–II siniflərdə mövzu ilə əlaqədar suallar, izahlar çox xırdalanmalı, hissələrə başlıqlar verilməli, əsərin məzmununun nəql olunmasına ciddi diqqət yetirilməlidir. Mətnin məzmununun necə nəql olunması şagirdlərin fərdi xüsusiyyətlərindən də asılıdır. Şagirdlərin nitqindəki leksik, fonetik, qrammatik qüsurlar nəqletmə prosesində daha aydın şəkildə görünür. Lüğət ehtiyatı zəngin olmayan şagirdlər məzmunu kitabda olduğu kimi, nitqi inkişaf etmiş şagirdlər isə öz sözləri ilə danışırlar.

Şagirdlərin nəqletmə sahəsində bacarıqlarını inkişaf etdirmək məqsədilə onlara yaradıcı nəqletmə də öyrədilir.Yaradıcı nəqletmə lüğət ehtiyatının zənginləşməsində mühüm rol oynayır, o, mətnin məzmununu yenidən işləməyi, əlavələr olunmasını tələb edir. Bu məqsədlə ibtidai siniflərdə yaradıcı nəqletmənin müxtəlif növlərindən (şəxsi dəyişməklə nəqletmə, mətndə təsvir olunan hadisənin sonunu dəyişməklə nəqletmə və s.) istifadə olunur. Yaradıcı nəqletmə şagirdlərin rabitəli nitqinin inkişafına da güclü təsir göstərir, onların oxunmuş hekayəyə oxşar yeni bir hekayə hazırlayaraq danışmalarına imkan verir. Hekayələrin, nağılların, təmsillərin öyrənilməsi üzrə iş uşaqların lügətini zənginləşdirir.Təmsillərin dili üzərində iş şagirdlərin həvəslə iştirak etdikləri vacib bir prosesdir. Müəyyən personajın xasiyyətnaməsini verərkən, əsas xüsusiyyətlərini göstərərkən onun öz dilində işlənən sözlərdən istifadə olunur. Dərs prosesində şagirdlərə təmsilə sözlə şəkil çəkmək, ona aid atalar sözü və məsəllər söyləmək kimi tapşırıqlar vermək də məqsədəmüvafiqdir.

**Lüğət üzrə işin formaları, sözlərin izahı yolları.** Dilin başlıca leksik vahidi olan söz üzərində iş düzgün təşkil olunmazsa, uşaqların lügət ehtiyatı zənginləşdirilməzsə, onların nitqi, ünsiyyət bacarıqları və təfəkkürləri inkişaf edə bilməz. Altıyaşlılar məktəb dövründə fikirlərini ifadə etmək üçün daha çox və mürəkkəb dil vahidlərindən istifadə etməli olurlar. Şagirdlərlə aparılan sistemli iş, məqsədyönlü ünsiyyət onların lügət ehtiyatının zənginləşdirilməsinə güclü təsir göstərir. Lüğət üzrə iş prosesində sözlər seçilərkən aşağıdakı tələblər nəzərə alınmalıdır:

- sözün çoxmənalılığı;
- omonim, sinonim, antonim olması;
- sözün həqiqi və məcazi mənası;

• sözün çoxişləkliliyi;
• sözün morfoloji quruluşu;
• sözü izah və təhliletmə imkanları;
• sözün orfoqrafiyası;
• sözün dilimizə məxsus və ya alınma olması;
• sözün termin olub-olmaması.

Müəllim şagirdlərin nitqinin səlisliyini inkişaf etdirmək üçün onların fəal lüğətində olan sözlərin mənasının başa düşülməsinə, fikrin ifadəliliyini artırmaq üçün dəqiq dil vahidlərini seçə bilmək bacarığına yüksək tələblər verməlidir. Çoxmənalı, məcazi mənalı sözlər üzərində iş aparılarkən buna xüsusilə fikir vermək lazımdır. Müəllim şagirdlərin lüğətinin fəallaşdırılması, təmizliyi istiqamətində də iş aparmalı, ədəbi tələffüz normalarının pozulduğu söz və ifadələrin işlənməsinə yol verməməlidir.

Azərbaycan dili omonim, sinonim və antonim sözlərlə zəngindir, lakin uşaqlar belə sözlərdən az istifadə edirlər. Bu sözlər mənası aydın olmayan digər sözlərin mənasının açılmasında, eyni zamanda şagirdlərin lüğət ehtiyatının yeni sözlərlə zənginləşdirilməsində mühüm rol oynayır. Bəzi şagirdlər bu sözlərdən, xüsusilə, sinonimlərdən şifahi və yazılı nitqdə yerli-yerində istifadə edə bilmirlər. Bu da onların nitqinin qeyri-səlisliyi və kasad olması ilə nəticələnir.

Lüğət üzrə iş prosesində şagirdlərə anlatmaq lazımdır ki, müəyyən sözün lüğəvi mənasının dəyişməsi qrammatik mənanın dəyişməsinə də səbəb ola bilər. Y*az* sözünü bir neçə mənada işlətməklə, biz onun qrammatik mənasını da dəyişə bilərik:

*a) Gəl-gəl, a yaz günləri,*
*İlin əziz günləri.*
*b) Sən dayanma, inşa yaz.*

Şagirdlərin lüğət ehtiyatı oxu və dil dərslərində, əlavə məşğələlərdə zənginləşdirilməli və dəqiqləşdirilməlidir. Lüğət üzrə iş dörd istiqamətdə aparılır:

1. **Lüğətin zənginləşdirilməsi** dedikdə, yeni sözlərin mənimsənilməsi nəzərdə tutulur. Uşaqlar hər gün öz lüğətlərinə yeni sözlər daxil etməklə söz ehtiyatlarını zənginləşdirə bilərlər. Ayrı-ayrı əşya və hadisələr haqqında konkret təsəvvürlər ümumiləşdirmə aparmağa imkan verir.

**2. Lüğətin dəqiqləşdirilməsi** dedikdə, sözün mənasının dəqiqləşdirilməsi və yadda saxlanması başa düşülür. Şagirdlərin lüğətinə daxil olan sözlərin möhkəmləndirilməsi və dəqiqləşdirilməsi dedikdə, mücərrəd sözlər, orfoqrafiya və orfoepiya üzrə iş getməlidir.

**3. Lüğətin fəallaşdırılması** lüğət işinin çətin vəzifələrindəndir. Əgər şagird mənasını anladığı sözlərdən getdikcə daha çox istifadə edirsə, onun lüğəti fəallaşır. Şagird mənaca uyğun sözü yerində işlətməyi bacarmalıdır.

**4. Lüğətin təmizliyi** ədəbi dilə mənsub olmayan söz və ifadələri nitqdə işlətməməyi tələb edir. Şagirdlərin nitqinin dialekt, vulqar sözlərdən təmizlənməsinə erkən yaşlardan başlamaq vacibdir.

Lüğət üzrə işin bütün sahələri bir-biri ilə vəhdətdədir. Ona görə də müəllim onları əhatə etməyi unutmamalı, lüğət işinin digər dil sahələri ilə əlaqəsini nəzərdən qaçırmamalıdır.

**Ədəbiyyat**


1. Abdullayev A.Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 1962.
2. Kərimov Y. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: "RS Poliqraf" MMC, 2013.
3. Quliyeva S., Balıyev H. Ana dilinin tədrisi metodikası. Bakı: "Maarif", 1990.


**Работа над словарным запасом учеников в начальных классах**


**резюме**

В статье рассказывается о работе над словарным запасом учеников в начальных классах. Автор рассказывает о путях, принсипах, методах и принсипах обогашения словарного запаса учеников начальных классов. Отмечается так же, о важности обогашения, уточнения, чистоты и активизации словарного запаса учеников.


**Work on the vocabulary of pupils in primary school**


**summary**

The article describes the work on the vocabulary of pupils in primary school. The author tells about the ways, princis, methods and principles of enriching the vocabulary of primary school pupils. It is also noted about the importance of enrichment, clarification, purity and activation of the vocabulary of pupils.

# AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNDƏ NİTQİN SİNONİM VƏ ANTONİMLƏRLƏ ZƏNGİNLƏŞDİRİLMƏSİ İMKANLARI

**Sevda Abbasova,**
Azərbaycan Pedaqoji Universitetinin dosenti;
**Nərmin Həsənli,**
Bakı Slavyan Universitetinin doktorantı





**açar sözlər:** dərsliklərin tərtibi prinsipləri, nitq inkişafı, söz ehtiyatı, təfəkkürün inkişafı, tapşırıqlar, nəticələr;
**ключевые слова:** принципы составления учебников, развитие речи, словарный запас, развитие мышления, задания, результаты;
**key words:** principles of textbooks compilation, speech development, vocabulary, development of thinking, tasks, results.

Məlum olduğu kimi, mövcud proqram təlimin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir. Dövlət təhsil standartları əsasında hazırlanmış dərslik isə şagirdlərə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişləri aşılayan, demokratik dünyagörüşünün formalaşmasına imkan verən, məntiqi təfəkkürü inkişaf etdirən, tətbiqi xarakter daşıyan, inteqrativ xüsusiyyətlərə malik materialların toplandığı vəsaitdir.

İbtidai siniflərin Azərbaycan dili dərslikləri şagirdlərin nitqinin sinonim, antonimlərlə zənginləşdirilməsi üçün geniş imkanlar yaradır. Bu imkanların nəzəri istiqamətlərini müəllimlərə şərh etməklə təcrübənin yolunu işıqlandırmış olarıq.

Məqalədə müasir "Azərbaycan dili" dərslikləri əsasında şagirdlərin nitqinin sinonim və antonimlərlə zənginləşdirilməsi imkanlarını açıb göstərməyi qarşıya məqsəd qoymuşuq.

İbtidai təhsildə Azərbaycan dili kurikulumunun tətbiqinə 2008-ci ildən başlanmışdır. Həmin vaxtdan şagird və müəllimlər yeni dərslik komplektlərindən istifadə edirlər. Ümumiyyətlə, yeni dərsliklərin tərtibi təhsil islahatının mühüm istiqamətlərindən sayılır. Belə ki, ümumtəhsil sistemində dərslik siyasəti təhsil sahəsində Azərbaycan dövlətinin strateji fəaliyyət dairəsinə daxil olan əsas istiqamətlərdən biridir.

Dərslik siyasəti həyata keçirilərkən Azərbaycan Respublikasının Konstitusiyası,Təhsil qanunu, Azərbaycan Respublikasının müvafiq qanunvericilik aktları və "Ümumtəhsil sistemində dərslik siyasəti" sənədi əsas götürülmüşdür.

Müasir təhsildə dərslik anlayışı daha da inkişaf etdirilərək dərslik komplekti formasına salınmışdır. Komplekt 3 əsas vəsaitdən (dərslik, müəllim üçün metodik vəsait və şagirdlər üçün iş dəftəri) ibarətdir.

Yeni dərslikləri səciyyələndirən əsas cəhətlərə aşağıdakı tələblər verilir:

• Dərslik təlim marağını gücləndirməli, şagirdləri axtarışlara, yeni məlumatlara yiyələnməyə sövq etməlidir.
• Dərslik komplekti məntiqi və yaradıcı təfəkkürü inkişaf etdirməlidir.
• O, şagirdlərdə zəruri həyati bacarıqların formalaşmasına zəmin yaratmalıdır.
• Dərslik komplekti fəndaxili və fənlərarası inteqrasiya imkanlarını genişləndirməlidir.
• Komplekt fəal təlim şəraitinin yaradılmasını təmin etməlidir.
• Komplekt həmçinin şagirdlərin fərdi idraki imkanlarının nəzərə alınmasına şərait yaratmalıdır.

Bütün bunlarla yanaşı, dərslik komplektindən gözlənilənləri saymaqla qurtarmaq olmaz. "Dərslik komplekti şagirdlərin Azərbaycan xalqının milli, mənəvi və mədəni dəyərləri ruhunda tərbiyə olunmalarına, ailələrini, xalqını, vətənini sevmələrinə, insan hüquqlarına və bəşəri dəyərlərə hör-

mət göstərmələrinə yönəldən ideyalarla zənginləşdirilməlidir. Dərsliklərdə şagirdlərin yaş psixologiyası və fizioloji xüsusiyyətləri nəzərə alınmalı, dünyəvilik prinsipinə riayət edilməlidir. Onlarda elmin, texnikanın və mədəniyyətin müasir nailiyyətləri haqqında yoxlanılması mümkün olan və səlahiyyətli mənbələrdən götürülmüş məlumatlar öz əksini tapmalıdır. İllüstrasiyalar mövzulara uyğun olmalıdır”. [1, səh.80]

Dərsliklərdə Azərbaycan Respublikasının Konstitusiyasına, ölkənin qoşulduğu beynəlxalq hüquq konvensiyalarına zidd olan fikirlərə, elmi mübahisə doğuran məsələlərə yer verilməməli, siyasi, milli, dini, irqi, cinsi ayrı-seçkilik təbliğ edən, mübahisə doğuran məlumatlar olmamalıdır.

Dərsliklər elmlərin əsaslarını tam şəkildə açmır, yalnız material üzərində araşdırma aparmaq bacarıqlarını formalaşdırır. Dərslik təhsil prosesində müəllim-şagird fəaliyyətinin tam təmin olunmasını və əsaslı şəkildə əlaqələndirilməsini təmin edir.

Müasir dərsliyin funksiyalarından bəhs edərkən aşağıdakıları nəzərə almaq lazımdır: məlumatlandırma, sistemləşdirmə, həvəsləndirmə, inkişaf etdirmə, inteqrasiyaetmə, tərbiyələndirmə və s. Dərsliklərdə təlim materiallarının mənimsənilməsi və uyğun fəaliyyət növlərinin tətbiqi dörd əsas metodoloji mərhələyə bölünür:

- ilkin təsəvvürlərin formalaşdırılması;
- onların inkişaf etdirilməsi;
- qazanılan bilik və bacarıqların tətbiqi;
- onların qiymətləndirilməsi.

I–IV siniflərin “Azərbaycan dili” dərsliklərini mövzu baxımından təhlil edərkən aşağıdakılar aşkarlanır:

Yeni dərsliklər “Dinləyib–anlama”, “Oxu”, “Yazı” və “Dil qaydaları” məzmun xətlərinə uyğun tərtib olunmuşdur. Dinləmək bacarığı başqalarını anlamaq, onlardan məlumat almaq, danışmaq, yazmaq, şagirdlərin biliklərini və düşündüklərini başqalarına anlatmaq məqsədi daşıyır. Dinləyərkən, danışarkən istifadə edilən söz və cümlələr səslərlə ifadə olunur. Dinləmə və danışma şifahi nitqə aid olan bacarıqlardır. Hərflərlə ifadə olunmuş mətnləri isə şagirdlər oxuyur və yazırlar. Odur ki, yazı və oxu bacarıqları yazılı nitqə aid edilir.

Hər dərsdə nitq bacarıqlarından istifadə olunur. Şagird müəllimi dinləyir, dərsi danışır, kitab oxuyur, düşündüklərini yazıda ifadə edir. Azərbaycan dili dərslərində şagirdlər nitq bacarıqlarına daha dərindən yiyələnirlər. Dil qaydaları onlara nitqi ədəbi dil normalarına uyğun qurmaqda kömək göstərir. Beləliklə, uşaqlar sözləri düzgün yazmağı və tələffüz etməyi öyrənir, onları cümlələrdə öz mənasına uyğun işlədirlər. Bu qarşılıqlı əlaqələr aşağıdakı sxemdə öz əksini tapmışdır:




Leksik semantizasiya istiqamətində şagirdlərin nitqinin inkişafına, o cümlədən, lüğət ehtiyatının zənginləşdirilməsinə dair vərdişlərin aşılanması üçün sinonim və antonimlər üzrə sistemli şəkildə qurulmuş tapşırıqlardan istifadə olunur. Onları nəzərdən keçirək.

**I sinif “Azərbaycan dili” dərsliyi [2, səh.70 –159].**

104-cü səhifədə 2-ci tapşırıqda sual qoyulur: “Şeirdə hansı rənglə verilmiş sözlər yaxınmənalıdır?” (“Ana yurdum” şerində *vətən* və *yurdum* sözləri qırmızı rənglə, *şən, qəm, mavi, bucağın, torpağın* sözləri isə yaşıl rənglə verilmişdir).

118-ci səhifədə 2-ci tapşırıq belədir: “Şeirdə altından xətt çəkilmiş sözlərin mənasını izah et” (burada *bacasından, çardaqdan, sobada* sözlərinin mənası cümlələrdə izah olunur).

120-ci səhifədə 1-ci tapşırıq belədir: “*Şərikli* sözünün mənasını izah et”.

129-cu səhifədə 1-ci tapşırıq belədir: “*Xeyirxah* sözünü izah et”.

142-ci səhifədə 2-ci tapşırıq belədir: “*Sarsılmaq* sözünü hansı sözlə əvəz etmək olar?”

144-cü səhifədə 8-ci tapşırıq belədir: "*Dodaqları qaçdı* ifadəsini necə başa düşürsən?". 9-cu tapşırıq isə belədir: "*Təbəssüm* sözünü yaxınmənalı sözlə izah et".

145-ci səhifədə 14-cü tapşırıq belədir: "*Nikbinlik* sözünü izah et".

147-ci səhifədə 1-ci tapşırıq belədir: "Altından xətt çəkilmiş sözü yaxınmənalı sözlə əvəz et." (Burada "yekə" sözünü sinonimləri ilə əvəz etmək nəzərdə tutulur).

150-ci səhifədə 1-ci tapşırıq belədir: "Altından xətt çəkilmiş sözü yaxınmənalı sözlə əvəz et" (Burada "dirçəldi" sözünü "cana gəldi", "özünə gəldi" sözləri ilə əvəz etmək nəzərdə tutulur. ).

**II sinif "Azərbaycan dili" dərsliyi [3, səh.3, 37,65].**

8-ci səhifədəki sözlükdə "fərman" sözünün izahı olaraq "dövlət başçısının verdiyi qərar" göstərilir.

37-ci səhifədə *sədaqətli, səbrli, mehriban*; 43-cü səhifədə *etiraf etmək* (boynuna almaq); 45-ci səhifədə *təvəllüd, anket*; 47-ci səhifədə *araşdırmaq, dözüm, təmkin*; 49-cu səhifədə *xəstə, dəfinə, bahar, məhsul, xəzinə, bar, naxış, yaz;* 50-ci səhifədə *zinət* sözü, 56-cı səhifədə *açıqca, riyakar, təvazökar;* 61-ci səhifədə *tərəddüd etmək, israr etmək;* 65-ci səhifədə *arif* – ağıllı, hər şeyi bilən, başa düşən; *him-cim etmək* – işarələrlə, əl və mimika hərəkətləri ilə nəyi isə anlatmaq və s. tapşırıqlar şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsinə xidmət edir.

65-ci səhifədə 2-ci tapşırıqda sual belə qoyulur: "*Maneken* sözünü hansı sözlə əvəz etmək olar?"

a) *heykəl* b) *kukla* c) *müqəvva*

Beləliklə, dərsliyin 101, 102, 106, 107, 112, 113, 118, 119, 120, 132, 134, 136-cı səhifələrindəki tapşırıqlarda *səf, xaqan, pişvazına çıxmaq, dəmir at, dalğalanmaq, sürfə, fədakarlıq, mum, şan, iradə, qeyri-müəyyən, zəngin, orman, agah olmaq* kimi söz və ifadələrin mənaları izah olunur.

Bütün bunlar göstərir ki, şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək baxımından II sinif "Azərbaycan dili" dərsliyinin imkanları daha genişdir. Müəllim bu şəraitdən maksimum yararlanmağa çalışmalıdır.

**III sinif "Azərbaycan dili" dərsliyi [4, səh. 68]**

Əksmənalı sözlərlə bağlı didaktik material, təxminən, aşağıdakılardan ibarətdir:

Əksmənalı sözlər, əsasən, əlamət və ya hərəkət bildirən kateqoriyalarda olur: *ağ – qara, acı – şirin, oturmaq – durmaq* və s.

Bir çox sözlərə şəkilçi artırmaqla əks məna yaradan sözlər düzəltmək olur, lakin belə sözlər əks mənalı hesab olunmur, məsələn, *rəhmli – rəhmsiz; getmək – getməmək* və s. Əksmənalı sözlərin kökləri fərqli olur: *rəhmli – qəddar, getmək – gəlmək* və s.

Hesablamalara görə, III sinif "Azərbaycan dili" dərsliyinin verdiyi bu imkanları lüğətlər vasitəsilə daha da zənginləşdirmək olar. Burada ən azı 150-dən artıq sinonim və antonim sözlərin cümlələrdə işlədilməsi imkanlarından istifadə etmək mümkündür. Təcrübədə bunları nəzərə almaq tədqiqatın əhəmiyyətini daha da artırmış olardı.

**IV sinif "Azərbaycan dili" dərsliyində** yaxınmənalı sözlərlə əlaqədar çalışmalarda (5, səh.15) oxuyuruq:

1) Mavi boşluğun yerinə hansı söz uyğun gəlir?

A) *pişik* B) *keçi* C) *quş*

2) Mavi rənglə yazılmış sözləri hansı sözlərlə əvəz etmək olar?

3) *Köksünü ötürmək* ifadəsi ilə yaxın mənalı ifadələr hansılardır?

A) *nəfəs almaq* B) *ah çəkmək* C) *hay-küy salmaq*

4) 18-ci səhifədə *aludəçilik* və *yeniyetmə* sözlərinin mənasını araşdırmaq tələb olunur.

5) Göy rənglə verilmiş *qulaq asar* ifadəsi mətndə hansı mənada işlənir?

A) *dinləyər* B) *başa düşər* C) *əməl edər*

Ümumiyyətlə, bu dərslikdə lüğət üzrə tapşırıqlarda *möhtəşəm, divanxana, türbə, xəlifə, darğa, rəmz, dolab, miz, ədib, redaksiya* sözləri ilə birlikdə, 60-a yaxın sözün sinonimini öyrətmək imkanları mövcuddur.

"Sözün mənasını necə izah etməli?" mətnində oxuyuruq: "Sözün mənasını müxtəlif yollarla izah etmək olar:

• yaxınmənalı sözlərin köməyi ilə: *alışmaq – alovlanmaq, odlanmaq;*

• əşyanın əlamətlərini və aid olduğu məna qrupunu müəyyən etməklə: *kirpi – dərisi tikanla örtülmüş heyvan.*"

Şagirdlər bu imkanlar əsasında hansı bilik və bacarıqlara yiyələnirlər? Bəzən eyni varlığı, əşyanı, əlaməti və ya hərəkəti bir neçə sözlə ifadə etmək olur, məsələn: "Şəkildə gördüyünüz bu əşyanın adı *eynəkdir*. Ona *gözlük* və ya *çeşmək* də deyilir." Qaçan adam haqqında *qaçır* da demək olar, *yüyürür* də. Belə sözlər *eynimənalı* sözlər adlanır. Cümlədə bu sözlərdən birini o biri ilə əvəz etdikdə, məna dəyişmir. Elə sözlər də var ki, yaxınmənalıdır, məsələn, *abidə* və *heykəl.* "Məktəblilər Heydər Əliyevin abidəsi önünə tər çiçəklər qoydular" cümləsində *abidə* sözünü *heykəl* sözü ilə əvəz etmək olar. "Bakı şəhəri memarlıq abidələri ilə zəngindir" cümləsində isə *abidə* sözünü *heykəl* sözü ilə əvəz etmək olmur. Deməli, eynimənalı sözlərdən fərqli olaraq, yaxınmənalı sözlər həmişə bir-birini əvəz edə bilmir.

IV sinif ibtidai təhsilin son mərhələsi hesab olunur. Bu mərhələdə nitqin sinonim və antonimlərlə zənginləşdirilməsi bazası genişlənməli, nitq inkişafında, lüğət ehtiyatının artırılmasında bu məsələ ilə bağlı bütün təsəvvürlər aydınlaşdırılmalıdır. Şagirdlərin cümlə qurmaq bacarıqları inkişaf etməli, mətn tərtibetmə bacarığının nəticələri özünü göstərməlidir.

Beləliklə, tədqiqat göstərir ki, I–IV siniflərin "Azərbaycan dili" dərsliklərində, həmçinin həmin dərsliklərə dair metodik vəsaitlərdə lüğət ehtiyatını zənginləşdirmək məqsədilə sinonim və antonimlər üzərində işin məzmunu çox geniş, forma və metodları olduqca rəngarəngdir. Dərsliklərin verdiyi didaktik imkanlar, prinsip etibarilə, müəllimlərin vəzifələrini konkretləşdirməli və onları müvafiq standartların reallaşdırılmasına sövq etməlidir.

**Ədəbiyyat**

1. Kurikulumların hazırlanması və tətbiqi məsələləri (metodik tövsiyə). Bakı: "Kövsər", 2008.
2.İsmayılov R., Abdullayeva S., Orucova G., Cəfərova D. Azərbaycan dili. (I sinif üçün dərslik). Bakı:" Altun kitab", 2012.
3.İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili. (II sinif üçün dərslik) Bakı: "Altun kitab", 2009.
4.İsmayılov R., Orucova G., Xəlilov Z., Cəfərova D. Azərbaycan dili. (III sinif üçün dərslik). Bakı: "Altun kitab", 2010.
5.İsmayılov R., Abdullayeva S., Cəfərova D., Qasımova X. Azərbaycan dili. (IV sinif üçün dərslik). Bakı: "Altun kitab", 2011.

**Возможности обогащения речи учащихся синонимами и антонимами**
**в учебниках азербайджанского языка**
**резюме**

В статье расказывается о возможностях обогащения речи учащихся синонимами и антонимами в учебниках по азербайджанскому языку в начальных классах. Отмечается, что учебники Азербайджанского языка с 1 по 4 класс, составленные по программе куррикулума, уже восемь лет в действии. В этих учебниках имеются практические возможности по обогащению речи учащихся синонимами и антонимами. Поэтому учителя должны учитывать все возможности, чтобы получить высокие результаты от обучения тем про синонимов и антонимов.

Статья посвящена характеру и анализу практических задач учебника.

**Possibilities of enriching students' speech with synonyms and antonyms**
**In the textbooks of the Azerbaijani language**
**summary**

The article shows the possibilities of enriching students' speech with synonyms and antonyms in textbooks on the Azerbaijani language in primary classes. It is noted that the textbooks of the Azerbaijani language from the 1st to the 4th grade, compiled according to the curriculum, have been in effect for eight years already. In these textbooks there are practical opportunities for enriching students' speech. Therefore, teachers should consider all the opportunities to get high results from the training of synonyms and antonyms.

The article is devoted to the nature and analysis of the practical tasks of textbooks.

# İSTEDADLI UŞAQLARIN MÜƏYYƏNLƏŞDİRİLMƏSİNİN PRİNSİPLƏRİ VƏ METODLARI HAQQINDA

**Elxan Bəylərov,**
ARTİ-nin psixologiya şöbəsinin müdiri,
psixologiya üzrə elmlər doktoru,
E-mail: el_4444@mail.ru



**açar sözlər:** istedad, istedadın dərəcəsi, istedadın müəyyənləşdirilməsi, psixodiaqnostik metodlar, intellektual səviyyə, nailiyyət testləri, anket və sorğular, psixofizioloji metodlar, psixoloji profilin aspektləri, kreativ qabiliyyətlər və maraqlar;
**ключевые слова:** талант, степень таланта, идентификация таланта, методы психодиагностики, интеллектуальный уровень, тесты достижения, анкеты и опросы, психофизиологические методы, психологические аспекты профиля, креативные способности и интересы;
**key words:** talent, talent level, talent identification, psychodiagnostics methods, intellectual level, achievement tests, questionnaires and surveys, psychophysiological methods, psychological aspects of the profile, creative abilities and interests.

Uşaq istedadı bəzən istedad əlamətlərinin yüksək təzahür səviyyəsi ilə, bəzən də onun əldə etdiyi konkret nəticələrin yüksək əhəmiyyətlilik səviyyəsi ilə özünü büruzə verir. İstedadın dərəcəsinin müəyyənləşdirilməsi üçün aşkar edilən səviyyələr müvafiq yaş dövrünə uyğun olaraq orta göstərici ilə müqayisə edilir. İstedadlı uşaqların müəyyənləşdirilməsi xüsusi diqqət və peşəkar yanaşma tələb edən çoxmərhələli, uzunmüddətli bir prosesdir. Bu işdə birdəfəlik və ya qısamüddətli vasitələrin axtarışı səhvlərlə dolu, riskli və səmərəsiz bir yoldur. İstedadlıların müəyyənləşdirilməsində ən çox istifadə edilən vasitələrdən biri psoxodiaqnostik metodikalardır.

Psixodiaqnostik metodikalar şərti olaraq dörd qrupa ayrılır:

– intellektual səviyyənin müəyyənləşdirilməsinə imkan verən testlər (İK(istedadlılıq koeffisenti) testləri;

– nailiyyət testləri;

– anket və sorğular (Bu vasitələrin köməyi ilə fərdin münasibətləri, maraq və meylləri müəyyənləşdirilir);

– psixofizioloji metodlar (Buraya sinir sisteminin fəaliyyətinin fərdi təzahürlərini, psixikanın dinamik xüsusiyyətlərini, fəaliyyət sürətini, başqa sahəyə asan keçidi, fəal iş qabiliyyəti müddətini və s. müəyyən etməyə yönəlmiş metodlar aid edilir).

Psixodiaqnostik və qabiliyyət testləri üzrə hər hansı bir sahədə əldə edilmiş yüksək göstəricilər hələ istedaddan xəbər vermədiyi kimi, aşağı göstəricilər də onun olmamasına tam əminlik yarada bilməz. Bu göstəricilərin istedadla şərtlənməyən obyektiv və subyektiv səbəbləri ola bilər.

İstedadlı uşaqların seçimi ilə əlaqədar psixodiaqnostika və qabiliyyət testləri aşağıdakı xüsusiyyətlərə malikdir:

- Bir çox intellekt testləri və onların modifikasiya edilmiş variantları yüksək intellektuallığın deyil, intellektual inkişafda geriliyin müəyyənləşdirilməsinə uyğunlaşdırılmışdır.
- Bəzi testlər (Amtxauerin intellekt strukturu testi) inkişafın yüksək səviyyəsini deyil, onun inkişaf istiqamətlərini müəyyənləşdirilməyə xidmət edir.
- Psixodiaqnostik və qabiliyyət testlərinin əksəriyyəti ayrı-ayrı komponentlərin inkişaf səviyyəsini müəyyənləşdirir, lakin onlar arasında əlaqələrin xüsusiyyətləri barədə informasiya vermir. İstedadın tədqiqində belə əlaqələr olduqca vacibdir.

• Test keçirilməsinin prosedur qaydaları, sınaq şəraiti, iştirakçıların emosional, fiziki vəziyyəti və s. onun nəticələrinə ciddi təsir edir. İstedadlı uşaqlar bu məsələlərdə yüksək həssaslığa malik olduqlarından onların nəticələri belə təsirlərə daha çox məruz qalır.

• Ənənəvi testlər, bir qayda olaraq, nəticəni qiymətləndirir. İstedad isə bir çox hallarda insanların fəaliyyət yollarında və xüsusiyyətlərində özünü daha dolğun ifadə edir. İstedadlı uşağın fəaliyyətinin bu aspektlərə görə fərqlənməsi labüddür. Bu, özünüinkişafın özəl üslublarının təzahüründə – informasiyanın kodlaşdırılması və emalı üslubunda, problemin müəyyənləşdirilməsi və həlli yolunda, ətraf mühitə qavrayıcı münasibətdə özünü daha aydın göstərir. Başqa sözlə, ənənəvi testlər fəaliyyət prosesində fərdi-özünəməxsus üslubların keyfiyyət tədqiqinə uyğunlaşdırılmayıb.

Deməli, istedadlı uşaqların diaqnostikası üçün məzmunca və keyfiyyətcə yeni yanaşmalara və metodlara ehtiyac var.

İstedadlı uşaqlar müəyyən edildikdən sonra psixodiaqnostik testlərin aşağıdakı hallarda tətbiqi daha səmərəli ola bilər:

• istedadlı uşaqların güclü və zəif cəhətlərinin müəyyənləşdirilməsi, ona fərdi psixoloji-pedaqoji köməyin təşkilində;

• istedadlı uşaqların ayrı-ayrı qabiliyyətlər baxımından psixoloji fəaliyyətinin, meyillərinin və s. fərdi keyfiyyətlərinin özünəməxsusluğunun müəyyənləşdirilməsində;

• istedadlı uşaqların psixoloji inkişafının müxtəlif göstəricilərinin inkişaf dinamikasının izlənilməsində.

**Yadda saxlamaq lazımdır** :

• İstedadlı uşaqların heç də hamısı böyüyəndə istedadlı olmur.

• Dünyanın bir çox tanınmış dahiləri uşaqlıqda "fərsiz", "bacarıqsız" və "yarıtmaz" olmuşlar.

• Uşaqların istedadlılıq məsələsində heç kəsin diaqnoz qoymaq səlahiyyəti yoxdur.

• Səhvən seçilmiş və ya seçilməmişlərin bütün sonrakı problemlərinə görə məsuliyyət bu diaqnostika məşğul olanların üzərinə düşür.

İstedadlı uşaqların seçimi zamanı aşağıdakı məsələlərə xüsusi diqqət yetirilməlidir:

• Uşağın fəaliyyəti, davranış qabiliyyətinin mümkün qədər çox istiqamətləri tədqiq edilməlidir.

• Davranış və fəaliyyətlər müxtəlif aspektlərdə, kompleks şəkildə qiymətləndirilməlidir.

• Mümkün qədər müxtəlif informasiya mənbələrindən istifadə edilməlidir.

• Uşağın qabiliyyətlərinə uyğun, çoxsaylı və fərqli psixodiaqnostik metodlar tətbiq edilməlidir.

• İdentifikasiya prosesi çoxsaylı mərhələlərdə, mümkün qədər fərqli şəraitlərdə və uzun müddət ərzində keçirilməlidir.

• Uşağın davranışı onun maraq və meyillərinə maksimum yaxın fəaliyyət sahələrində təhlil edilməlidir.

• Uşağın fənn olimpiadalarında, konfrans, festival, müsabiqə və yarışlarda iştirakı, real nailiyyətləri təhlil edilməlidir.

• Uşağın fəaliyyət məhsulunun bu sahədə yüksək səviyyəyə malik mütəxəssislər, ekspertlər tərəfindən qiymətləndirilməsi təmin edilməli, bu zaman həmin mütəxəssislərin mühafizəkar nöqteyinəzərdən çıxış edə biləcəkləri nəzərə alınmalıdır.

• Uşaqların istedadlılıq əlamətlərini yalnız onların aktual psixi inkişaf səviyyəsinə nəzərən deyil, həm də yaxın inkişaf zonası (zənginləşdirilmiş fənlər, innovativ təlim şəraiti) nəzərə alınmaqla tədqiq edilməlidir.

• İstedadlı uşaqların seçilməsi məqsədilə aparılan diaqnostik müayinə layihə metodları, fənn, peşə sınaqları və s. vasitəsilə mümkün qədər təbii eksperiment şəraitinə yaxınlaşdırılmalıdır.

• Ekoloji cəhətdən valid psixodiaqnostik metodlara üstünlük verilməlidir. Real həyat şəraitində uşağın davranışı, fəaliyyət məhsulları, valideyn və müəllim müşahidələri təhlil edilməlidir.

• Elə situasiyalardan istifadə olunmalıdır ki, uşağı tədqiqatçılıq fəaliyyətinə istiqamətləndirsin, fəaliyyətin mənimsənilməsində, inkişafinda maksimum müstəqil hərəkət etmək imkanı versin.

İstedadlı uşaqları müəyyənləşdirərkən aşağıdakıları nəzərə almaq zəruridir:

• cari yaş mərhələsində istedadın nail olduğu inkişaf səviyyəsi;

● istedadın müxtəlif fəaliyyət sahələrinə istiqamətlənmiş aktuallaşma cəhdləri ilə bağlı konkret təzahürlərin xüsusiyyətləri;

● uşağın potensial inkişaf imkanları.

İstedadlı uşaqların seçilməsi prosedurlarında bu işlə xüsusi hazırlığa malik yüksək səviyyəli mütəxəssislər məşğul olmalıdırlar.

**İntellektual və yaradıcılıq qabiliyyətlərinin diaqnostikası.** Dünya təcrübəsi göstərir ki, istedadlı uşaqların identifikasiyası üçün qeyri-valid metodlardan istifadə edilməsi ciddi mənfi təsirlərlə müşayiət olunur. XX əsrin birinci yarısında bir çox ölkələrdə intellekt və onun inkişafının diaqnostikasının koqnitiv metodları xüsusi nəzəri-eksperimental tədqiqatların predmetinə çevrilmişdir.

Bəzi mütəxəssislər intellekti istedadın mənşəyi hesab edirlər. Onun səviyyəsinin müəyyənləşdirilməsi üçün əqli inkişafı qiymətləndirən testlərdən istifadə olunur, lakin yüksək intellekt həmişə istedadın müjdəçisi deyil. Yüksək intellekt istedadın əsas tərkib hissələrindən biri olan yaradıcılıqla mənfi korrelyasiyaya malikdir.

Ümumi qabiliyyətlərin tədqiqi sahəsində əldə edilmiş müasir və klassik nəzəri, təcrübi məlumatları, həmçinin, müasir diaqnostikanın imkanlarını, vasitələrini nəzərdən keçirək. Onların strukturunu belə bir sxemlə vermək olar:




Ayrı-ayrı xüsusi qabiliyyətlərin müəyyənləşdirilməsindən fərqli olaraq, ümumi qabiliyyətlərin diaqnostikasında bir prosedur vasitəsilə müxtəlif sualları cavablandıran məsələlər ümumi şəkildə həll edilir. Bəzi tədqiqatçıların fikrincə, ümumi qabiliyyət üzrə göstəricilər istənilən növ fəaliyyət zamanı müvəffəqiyyətin həlledici şərtlərindən biridir. Bu baxımdan Q.Perkinsin korrelyasiya tədqiqatlarına əsaslanan *intellektual hədd nəzəriyyəsi* olduqca səciyyəvidir. Bu nəzəriyyəyə əsasən, istənilən növ fəaliyyət sahəsinin mənimsənilməsində ümumi intellekt səviyyəsinin zəruri və kafi hədləri mövcuddur. Əgər fərdin ümumi intellektual səviyyəsi bu zəruri həddən aşağıdırsa, həmin fəaliyyət sahəsini mənimsəyə bilməz. Fərdin ümumi intellekt səviyyəsinin bu fəaliyyət üçün kafi və ya həddən artıq olması məhsuldarlıq artımı ilə müşaiyət edilmir. Bu halda məhsuldarlıq artımı şəxslərin intellektual səviyyəsi ilə deyil, onların motivləri və fərdi keyfiyyətləri ilə şərtlənir. Əhəmiyyətlisi odur ki, bu xüsusiyyət istənilən əmək, tədris və s. fəaliyyət növü üçün özünü doğruldur.

C.Gilford, E.P.Torrens və D.B.Boqoyavlenskayanın kreativlik konsepsiyası da analoji ideyalara istinad edir. Bu ideyalara əsasən, kreativlik fərdin ümumi xüsusiyyətlərindən olub, hansı fəaliyyət sahəsində çalışmasından asılı olmayaraq, onun məhsuldarlığına əhəmiyyətli təsir göstərir. Orta və ali məktəb təhsilində uğurun proqnozlaşdırılması problemləri üzrə tədqiqat aparan psixoloqların bir çoxu belə qənaətə gəlmişlər ki, intellektdən və kreativlikdən asılı olmayan, fərdin öyrənmə potensialını müəyyən edən ümumi bir qavrama, mənimsəmə qabiliyyəti mövcuddur. Digər tərəfdən, empirik tədqiqatların nəticələrinə görə akademik davamiyyətlə kreativlik arasında korrelyasiya olduqca zəifdir və *ideal əlaçı* ilə *yaradıcı şəxsin* fərdi keyfiyyətləri bir-birinin diametral əksidir. Ümumi intellekt səviyyəsi ilə akademik uğur arasındakı korrelyasiyanın isə böyük ehtiyatları mövcuddur. Onun dərəcəsi intellektin diaqnostika metodikasından, seçimin xüsusiyyətlərindən asılıdır.

İntellektlə kreativliyin münasibətini təhlil edək. D.Qilford kreativliyin strukturuna divergent təfəkkürdən başqa dəyişilmə qabiliyyətini, həll dəqiqliyini və başqa intellektual parametrləri daxil etmişdi. Bunun nəticəsində də intellektlə kreativlik arasındakı müsbət əlaqə postulat şəklində irəli sürülmüşdü. D.Qilford təcrübələrlə aşağıdakıları müəyyən etmişdi:

• İntellektual səviyyəsi yüksək olan sınananlar test həlli zamanı yaradıcılıq keyfiyyətləri nümayiş etdirməyə bilərlər.

• İntellekt səviyyəsi aşağı olanlar yaradıcı şəxsiyyət ola bilməzlər.

E.P.Torrens kreativliklə intellekt təzahürü arasındakı əlaqələrə dair apardığı tədqiqatlar nəticəsində model tərtib etmişdir. Bu modelə əsasən, sınananın İK göstəricisi 120 bala qədər olduqda intellektlə kreativlik eyni faktoru, səviyyəni təşkil edirlər. Sınananın İK göstəricisi 120 baldan yuxarı olduqda kreativlik intellektdən asılı olmayan faktora çevrilir.

Rusiya Təhsil Akademiyası Psixologiya İnstitutunun Qabiliyyətlərin Psixologiyası laboratoriyasının əməkdaşları tərəfindən aparılan tədqiqat işləri nəticəsində belə bir paradoksal asılılıq müəyyən edilmişdir: yüksək kreativliyə malik şəxslər reproduktiv təfəkkürə dair çalışmaları (bütün intellekt testləri) digər sınananlara nisbətən daha çətinliklə həll edirlər. Kreativliyin intellektlə (universal adaptiv qabiliyyətlə) ziddiyyətindən irəli gəlir ki, yaradıcılıq qeyri-adaptivdir, yəni yaradıcı şəxslərdə uyğunlaşma qabiliyyəti zəif inkişaf edir. Bu səbəbdən də yüksək kreativliyə malik olanların praktikada sadə intellektual məsələləri həll edə bilməmələri müşahidə olunur. (Nyutonun ana pişik və balalarının bayıra sərbəst çıxmaları üçün qapıda iki deşik (bir böyük və bir balaca) açması faktı).

Mütəxəssislər hesab edirlər ki, təlimdə vacib olan amillərdən biri də təlim üslubudur. Bu anlayışa fərqli mənalar verilsə də, o, ümumilikdə şagirdin mövcud şəraitdə təlim prosesini asanlaşdırmaq üçün istinad etdiyi fikirləri, üstünlük verdiyi amilləri, davranış xüsusiyyətlərini müəyyən edir.

Təlim üslubları üç sahəni əhatə edir: *koqnitiv, fizioloji* və *affektiv*. *Koqnitiv üslub* – şagirdin necə anlaması, yadda saxlaması, fikirləşməsi və problemi həll etməsi baxımından müəyyənləşdirilir. *Fizioloji üslub* – insan orqanizminin bioloji xüsusiyyətləri ilə bağlı olub onun fiziki mühitə reaksiyasını səciyyələndirərək, öz növbəsində təlim prosesinə təsir göstərir (gecə çalışmaq, isti və ya sərin otaq şəraitinə meyillilik və s.). *Affektiv üslub* – inadkarlıq, fərdi və ya qrup halında çalışmağa üstünlük verilməsi, kənardan köməyi qəbul edib-etməməsi kimi emosional xüsusiyyətləri özündə cəmləşdirir. Müxtəlif üslublar bu parametrlərdən bir neçəsini özündə ehtiva edə bilər.

Koqnitiv üslub daha çox ətraf mühitdən asılılıqla, psixoloji diferensiasiya ilə müəyyən edilir. Şagirdin ətraf mühitə həssaslığı onun koqnitiv üslubuna mənfi təsir göstərir. Mühitdən asılı olmamaq isə uğurlu nəticə ehtimalını artırır. Bu üslub, adətən, şəkildə gizlədilmiş fiqurun aşkarlanmasına həsr olunmuş testlərlə müəyyənləşdirilir. Koqnitivlikdəki fərqlər eyni səviyyəli uşaqların fərqli nəticələr göstərmələrinə səbəb ola bilir.

Digər koqnitiv üslub anlama sürəti ilə bağlıdır. Burada impulsiv və düşünməyə meyilli uşaqlar fərqləndirilir. Burada da *qızıl hədd* orta həddir. Çətin məsələlərin uğurlu həllini hər iki keyfiyyətin sintezi təmin edə bilər.

Üçüncü koqnitiv üslub, Qreqorka görə, düşüncə tərzidir. Qreqork düşüncəni təhlil edərkən iki amili fərqləndirir: konkret-mücərrəd və ardıcıl-təsadüfi. Mümkün olan üslub kombinasiyaları aşağıdakılardır:

- konkret-ardıcıl düşüncə tərzi (təlim materialı ilə işləməyə üstünlük verilən hal);
- konkret-təsadüfi düşüncə tərzi (eksperimental yanaşmaya üstünlük verilən hal);
- mücərrəd-ardıcıl düşüncə tərzi (simvollarla işləməyə meyilli hal);
- mücərrəd-təsadüfi düşüncə tərzi (nizamsız öyrənmə mühitinə üstünlük verilən hal).

Müəllimin təlim zamanı həmişə hər hansı bir eyni konkret üsluba istinad etməsi fərqli üsluba malik olan uşaqlar üçün dərsin maraqsız keçməsinə səbəb ola bilər.

Affektiv üsluba aşağıdakılar aid edilir:

• Təlim üslubunun elementləri, xarici amillərin, sosial şəraitin, fiziki stimulların təsirləri nəzərə alınır.

• Anlamanın modallığı vizual anlama və incə kinestetik mexanizmin olması ilə fərqləndirilir.

**Diaqnostika məsələləri**. Məlumdur ki, tədqiqatlar nəticəsində əldə edilmiş kreativlik və intellekt göstəricilərinin korrelyasiyasının əks olunduğu kəmiyyətlərin tətbiq edildiyi diaqnostik prosedurlardan asılıdır. D.Qilford və E.P.Torrens tərəfindən aparılan eksperimentlərdə intellekt testləri

kreativlik testlərindən fərqləndirilmişdir. Bu sınaqlarda sınananlar suallara istənilən sayda və istənilən variantda cavab verə bilərdilər. Tapşırıqların yerinə yetirilməsi vaxtı məhdudlaşdırılmışdı. Tapşırıqlar sınananlar tərəfindən seçilmir, ekspert tərəfindən təklif edilirdi. Cavabların dəqiqlik meyarı, test normaları müəyyən olunmuşdu.

M.Vollax və N.Koqan isə həll vaxtı üçün qoyulan məhdudiyyətdən, nailiyyət motivasiyasından, yarış və sosial təqdir amillərindən imtina etdilər. Kreativliyin diaqnostikası və oyun konteksti bu şərtlərlə tətbiq edildikdə isə kreativliklə intellektin korrelyasiyasının sıfra yaxınlaşması müşahidə edilmişdir. Sınananlara çalışmaları seçmək ixtiyarı verildikdə kreativliklə intellektin korrelyasiyası, az da olsa, mənfiləşdi, onlar ən azı iki ortoqonal faktor kimi çıxış etdilər. Deyilənlərə əsasən, ehtimal etmək olar ki, diaqnostika prosesinin reqlamentləşmə səviyyəsi və ya sınananın fəaliyyət azadlığı, diaqnostika şəraiti və şərtləri kreativliklə intellektin təzahürünə əhəmiyyətli dərəcədə təsir göstərir.

Qeyd etmək lazımdır ki, intellekt təbiətinə görə adaptivdir. Yaradılmış bərabər şəraitlər mühitində müəyyən tapşırıqlar qrupunun səhv həlli intellekt səviyyəsinin aşağı olmasına dəlalət edir. Bəzi tapşırıqlar qrupunun düzgün həlli sınananın məşq təcrübəsinin, təsadüfün, *mədəniyyətə bələdliyin*, kənar köməyin nəticəsi ola bilər. Deyilənlərə o da əlavə edilməlidir ki, sınananla sınaqçının ünsiyyəti əlavə faktorları aktuallaşdıra bilər, məsələn, gərgin şərait yaranarsa, sınağın nəticələri pisləşə bilər. Ümumiyyətlə, intellekt testləri mənfi meyarlar üzrə daha yaxşı "işləyir". Bu testlər intellektual qabiliyyətləri normadan aşağı olan əqli zəifliyin səviyyələrini daha yaxşı təsnifləşdirir, normadan yüksək səviyyələrin təsnifatında isə zəif vasitə hesab olunur. Digər tərəfdən, kreativlik, ümumi yaradıcılıq qabiliyyəti kimi, uyğunlaşan deyil. Reqlamentləşdirilmiş test şəraitində tapşırıqların həllində adaptivlik əhəmiyyətli rol oynadığından kreativ fərd həmin xüsusiyyəti nümayiş etdirməyə bilər. Bu səbəbdən də aparılan tədqiqatların nəticələrində kreativliklə intellektin müsbət korrelyasiyası həmişə müşahidə edilmir. Kreativliyə dair çalışmaların həlli zamanı sınananın məhsuldar yaradıcılıq xüsusiyyətləri nümayiş etdirməsi onda yaradıcılıq qabiliyyətinin olmasına dəlalət edir, lakin sınaq prosesində kreativliyin qeydə alınmaması sınananın yaradıcılıq qabiliyyətinin olmaması demək deyildir. Deyilənlərdən aydın olur ki, kreativlik testləri müsbət amillərlə "işləyir". Beləliklə, bu nəticə hasil olur ki, təcrübə zamanı sınananın kreativlik nümayiş etdirməsi onun kreativ olmasına dəlalət edir, bunun əksi isə doğru deyil. Bu səbəbdən istedadlı uşaqların seçimi prosesində kreativlik testlərinin tətbiqi məqsədəuyğun sayılmır, çünki o halda istedadlı uşaqların kənarda qalmaları ehtimalı böyük olur.

Əgər testləri sınananların davranışlarını reqlamentləşdirmə dərəcəsinin azalmasına görə düzsək, bu sıranın əvvəlində yüksək sürətli intellekt testləri, sonunda isə kreativliyin diaqnostikası üçün nəzərdə tutulmuş testlər yerləşəcək. Belə düzülmüş testlərin empirik korrelyasiyasını nümayiş etdirən sistemləşdirilmiş cədvəl tərtib edilməsə də, alınan nəticələrin belə cədvələ kifayət qədər uyğun olacağı ehtimalına əsaslar çoxdur. N. Koqan və M.Vollax kreativliklə sürətli intellekt faktorlarının bir-birindən asılı olmadığını müəyyənləşdirdilər. D.Qilford və E.P.Torrens intellekt testləri ilə D.Vekslerin kreativlik testlərinin 0.03-dən 0.04-ə qədər korrelyasiyasını almışlar. Dəqiqləşdirmələr apardıqdan sonra bu modeldən ümumi qavrama qabiliyyətlərini tədqiq edən testlər arasında mümkün korrelyasiyaları proqnozlaşdırmaq üçün istifadə etmək mümkündür.

Reqlamentləşmə səviyyəsi aşağı düşdükcə ideal intellekt testləri ilə real intellekt testləri arasındakı korrelyasiya azalır. Əksinə, ideal kreativlik testi ilə real kreativlik testləri arasındakı korrelyasiya artır. Rusiya Təhsil Akademiyası Psixologiya İnstitutunun Qabiliyyətlərin Psixologiyası laboratoriyasında aparılan tədqiqatların nəticələri göstərir ki, sınaq şəraitinin parametrləri kreativ və qeyri-kreativ sınananların davranışına və məhsuldarlığına müxtəlif cür təsir göstərir. Burada sınaqlar iki şəraitdə aparılmışdır:

– yarış amilinin və vaxt məhdudiyyətinin tətbiqi ilə (qrup halında müayinə);

– yarış amilinin və vaxt məhdudiyyətinin aradan qaldırılması ilə (fərdi qaydada müayinə).

Kreativliyin testləşdirilməsində S.Mednikin RAT testindən istifadə edilmişdir. Sınaq nəticəsində vaxt məhdudiyyəti ilə yarış şəraitinin aradan qaldırılmasının kreativ şəxslərə müsbət təsiri barə-

də N.Koqan və M.Vollaxın məlumatları təsdiqlənmiş, lakin şəraitin müxtəlifliyi aşağı kreativliyə malik şəxslərin nəticələrinə təsir göstərməmiş, onlar praktiki olaraq fərqlənməmişdir. Yüksək kreativliyə malik şəxslərin göstəriciləri vaxt məhdudiyyəti olmadan aparılan fərdi sınaqlar zamanı əhəmiyyətli dərəcədə yüksək olmuşdur.

Deyilənlərə əsasən, belə bir qənaətə gəlmək olar: yüksək kreativlilər spontan fəaldırlar; reqlamentləşmənin aradan qaldırılması onların qabiliyyətlərinin daha yaxşı nümayişinə şərait yaradır; xarici motivasiya kreativliyin nümayiş etdirilməsinə təsir göstərmir.

Aşağı kreativlilər haqqında onu demək olar ki, yaradıcılıq keyfiyyətlərinin aşağı olması xarici motivasiya ilə əvəz oluna bilər, reqlamentləşmənin aradan qaldırılması isə bu halda əhəmiyyətli təsir göstərə bilmir.

Nəzəri və təcrübi məlumatları yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, kreativliklə intellekt ortoqonal faktorlardır, yəni bir-birindən asılı deyildirlər. Təzahür şəraitləri baxımından onlar bir-birinin əksidirlər, yəni intellektin daha yaxşı təzahür etdiyi şərait öz xüsusiyyətlərinə görə kreativliyin daha yaxşı təzahür etdiyi şəraitin əksidir.

**Yaradıcı təfəkkürün inkişaf xüsusiyyətləri.** Yaradıcı təfəkkürün tədqiqi üçün E.E.Tunikin metodu tədbiq edilə bilər. E.E.Tunikin istifadə etdiyi testlər, əsasən, D.Gilfordun və E.P.Torrensin testlərinin modifikasiya edilmiş formalarıdır. Bu testlər yaradıcı təfəkkürün müxtəlif parametrlərini – verbal və obrazlı yaradıcılıq qabiliyyətlərini qiymətləndirməyə; müxtəlif faktorların – təfəkkürun sürəkliliyi, çevikliyi, orijinallığının göstəriciləri arasındakı qarşılıqlı korrelyasiyanı öyrənməyə imkan verir.

Yaradıcılıq təfəkkürünün qiymətləndirilməsi üçün istifadə olunan göstəricilər bunlardır:

*1. Sürəklilik.* Yaradıcı təfəkkürün yüngüllüyü, asanlığı, məhsuldarlığı onun sürəkliliyini səciyyələndirir və sadalanan obyektlərin sayı ilə müəyyən edilir.

*2. Çeviklik.* Bu faktor təfəkkürün çevikliyini, yəni keçidlərin sürətliliyini səciyyələndirir və sadalanan obyektlərin aid olduqları təsnifat siniflərinin sayı ilə müəyyən edilir.

*3. Orijinallıq.* Bu faktor təfəkkürün özünəməxsusluğu, yəni problemə yanaşmaların qeyri-adiliyi ilə səciyyələnir və verilən cavabların sayı, elementlərin qeyri-adi istifadəsi, cavabın orijinallığı ilə müəyyən edilir.

*4. Dəqiqlik.* Bu faktor təfəkkürün nizamlılığını, yaradıcı təfəkkürün məntiqiliyini, qoyulmuş məqsədə müvafiq, adekvat həllin seçilməsini səciyyələndirir.

Əldə edilmiş məlumatlar psixoloq və pedaqoqlar tərəfindən uşaqların yaradıcı təfəkkürünün təbiətini, səviyyəsini müəyyənləşdirərkən, zəruri hesab etdikləri korreksiya işlərini apararkən, uşaqlara məsləhət verərkən, onları istiqamətləndirərkən, istedadlı uşaqları seçərkən və digər hallarda səmərəli istifadə oluna bilər. V sinifdən başlayaraq təfəkkürün orijinallığının, mütəhərrikliyinin və sürəkliliyinin inkişaf etdirilməsi üçün alternativ tapşırıqların tətbiqi məqsədəduyğundur.

**Ədəbiyyat**

1. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. Bəylərov E.B. İstedadın psixoloji diaqnostikası. Bakı: “Təhsil”, 2008.
3. Bəylərov E.B. İntellektual testlər probleminin tarixi və müasir vəziyyəti. Bakı: ARTPİ, “Elmi əsərlər”, 2007, № 1.
4. Əlizadə Ə.Ə. İsdedadlı uşaqlar. Pedaqoji məsələlər, esselər, etüdlər. Bakı: ADPU-nun nəşriyyatı, 2005.
5. Гилфорд Д. Три стороны интеллекта. Технология мышления. Москва, 1965.
6. Туник Е.Е. Психодиагностика творческого мышления. Креативные тесты. 2002.

**О принципах и методах выявления одаренных детей**
**резюме**

В статье рассказывается о принципах и методах выявления одаренных детей. Автор разъясняет такие понятия как талант, степень таланта, идентификация таланта. Так же рассказывает о методах психодиагностики, о психофизиологических методах, о методах выявления интеллектуального уровня ребенка. Отмечается , что такие показатели как продолжительность, гибкость, оригинальность и точность используются для измерения творческого мышления. В конце также отмечается, что олученная информация может быть эффективно использованы психологами и педагогами для выявления уровня детского творческого мышления, для ведения работ коррекционного характера, для консультации детей и т.д.

**On the principles and methods for identifying gifted children**
**summary**

The article describes the principles and methods for identifying gifted children. The author explains such concepts as talent the degree of talent, the identification of talent. He also talks about the methods of psychodiagnostics, about psychophysiological methods, about methods of revealing the intellectual level of a child. It is noted that such indicators as duration, flexibility, originality and accuracy are used to measure creative thinking. In the end, it is also noted that the information received can be effectively used by psychologists and educators to identify the level of children's creative thinking, to conduct correctional work, to counsel children, etc.

# AUTİZM SİNDROMLU KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN VALİDEYNLƏRİNİN QARŞILAŞDIQLARI PROBLEMLƏR

**Aynur Abullayeva,**
ARTİ-nin dissertantı
E-mail:veliyeva_86aynur@mail.ru



**açar sözlər**: cəmiyyət, təhsil, fiziki və əqli inkişaf, sağlamlıq imkanları məhdud olan uşaqlar, autizm sindromu, valideynlər, problemlər;
**ключевые слова**: общество, образование, физическое и психическое развитие, дети с ограниченными возможностями, аутистический синдром, родители, проблемы;
**кey words**: society, education, physical and mental development, children with disabilities, autistic syndrome, parents, problems.

Millətin gələcəyi böyüməkdə olan nəsil, yəni uşaqlardır.Təəssüflər olsun ki, heç də bütün uşaqların fiziki və əqli inkişafı eyni səviyyədə olmur. Gələcək nəslin nümayəndələri arasında sağlam uşaqlarla yanaşı, sağlamlıq imkanları məhdud olan uşaqlar da böyüyür. Buna baxmayaraq, hər bir uşaq təhsil almaq hüququna malikdir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial adaptasiyası, cəmiyyətə inteqrasiya olunmaları, onlarda özünəxidmət bacarıqlarının inkişaf etdirilməsi, valideynlərin maarifləndirilməsi pedaqoq və psixoloqların diqqət mərkəzindədir.

Bir qadının problemli uşaq dünyaya gətirməsi ehtimalı 2%-dirsə, autizm sindromlu uşaq dünyaya gətirməsi ehtimalı 0,5%-dir. Autizmli uşağı olan ailənin növbəti doğulacaq uşağında da bu sindromun olması ehtimalı 3%-dir.

Autizm sindromu oğlanlarda, qızlara nisbətən, 4 dəfə çox müşahidə edilir. Autizmin əlamətləri və inkişaf səviyyələri müxtəlif ola bilər. Buna görə də autizmin dərəcələrini təsnif etmək çətindir.

Autizmi olan uşaqların valideynləri "Niyə bu, məhz mənim uşağımda baş verdi?", "Bunun qarşısını almaq olardımı?" suallarına cavab tapmağa çalışırlar. Belə suallara cavab tapmaq hələlik çətindir. Autizmin müxtəlif yaranma səbəbləri vardır, lakin bunlardan heç biri sübut olunmayıb. Belə güman olunur ki, autizmin səbəbi beyinin inkişaf pozğunluqları, xromosom anomaliyaları və ya gen mutasiyaları ola bilər. Autist uşaqların təxminən 30%-i orta səviyyədən yuxarı intellektə malik olur. Bəzilərində müxtəlif sahələrdə nəzərə çarpan bacarıqlar da özünü göstərir, lakin əqli inkişafdan geri qalanlar da var.

Bəzən elə görünür ki, autizm sindromlu insanlara heç kim lazım deyil, onlar təklikdə özlərini daha rahat hiss edirlər, lakin bu, belə deyil. Onların cəmiyyətə, ünsiyyətə ehtiyacları var, insanlar tərəfindən başa düşülmək istəyirlər, lakin bunu necə edəcəklərini bilmirlər. Valideynlərin vəzifəsi onlara ətraf mühitlə əlaqə yaratmaqda kömək etməkdir. Buna necə nail olmaq mümkündür? Belə uşaqların davranışlarında korreksiya aparmaq üçün bir sıra proqramlar işlənib hazırlanmışdır. Müsbət nəticələr əldə etmək üçün uşağın həyatının bir hissəsi olan proqram tapşırıqları müntəzəm yerinə yetirilməlidir. Valideynlər yadda saxlamalıdırlar ki, autist uşaqlar, belə demək mümkündür-

sə, *ləng* uşaqlardır. Gözləmək lazım deyil ki, dəyişikliklər tezliklə özünü göstərəcək. İlk nəticələr bir neçə ay, hətta bir il sonra görünə bilər.

Autizm sindromlu kiçikyaşlı məktəblilərin valideynləri ilə aparılan söhbətlər zamanı aşağıdakı təmayüllər aşkara çıxır:

- Valideynlərin çoxunun autizm sindromu haqqında ətraflı məlumatı yoxdur.
- Bəzi valideynlər öz autist uşaqlarını cəmiyyətə yararsız bir insan kimi görərək, onların təhsil almalarının tərəfdarı deyillər.
- Bəzi valideynlərin anlayışı olsa da, övladları üçün heç bir mütəxəssis yardımı almırlar.

Çox vaxt valideynlər hər şeyə tez nail olmaq üçün dərmanlardan istifadə edirlər. Məqsədləri odur ki, müalicədən sonra uşaqlar sakit olsun, göstərişləri sözsüz yerinə yetirsinlər. Onlar uşaqların sağlamlığına nə qədər zərər vurduqlarının fərqinə belə varmır, bilmirlər ki, tez-tez istifadə edilən dərmanlar belə uşaqların sinirlərini keyləşdirir. Bəzən orqanizm həmin dərmanlardan asılı vəziyyətə düşür. Bu, uşaqların nə fiziki inkişafına, nə də sosiallaşmalarına kömək göstərir.

Valideynlər inklüziv təhsilin həyata keçirilməsində və uşaqların inkişafında aparıcı qüvvədirlər. Uşaqların günün çox hissəsini evdə keçirdiklərini nəzərə alsaq, onlar üçün inkişafetdirici mühitin yaradılmasında valideynlərin necə böyük rol oynadıqlarını təsəvvür etmək mümkündür. Valideynlər autizm sindromlu uşaqlar üçün nəzərdə tutulmuş yeni yanaşmaların vacibliyini qəbul etməli və ona uyğun fəaliyyət göstərməlidirlər. Fiziki imkanları məhdud olan uşaqların normal uşaqlarla eyni hüquqlara malik olmaları valideynlər tərəfindən hörmətlə qarşılanmalıdır.

Valideyn övladı ilə qarşılıqlı münasibət yaradarkən, ona nəyi isə öyrədərkən diqqətli olmalıdır. Elə etməlidir ki, uşağın göstərəcəyi reaksiya, verəcəyi cavab daha çox müsbət məzmunlu olsun. Uşağın zəif cəhətlərini üzə çıxarmağın mümkün metodlarını valideynlərə öyrətmək lazımdır ki, onları aradan qaldırmaq üçün bir iş görmək olsun.Yadda saxlamaq lazımdır ki, bu problemlə məşğul olmağa nə qədər erkən başlanılarsa, uğurlu nəticələr daha tez əldə olunar.

Valideyn övladının xüsusi ehtiyaclarını necə qarşılamaq lazım gəldiyini ixtisaslı pedaqoq və psixoloqlardan, bu sahədə təcrübəsi olan valideynlərdən öyrənməlidir. Eyni zamanda, yadda saxlamaq lazımdır ki, uşağı ömür boyu bitib-tükənməyən müalicələrlə yükləmək də olmaz.

Özünə qapanmış bir uşaq üçün nitq və ünsiyyət bacarıqlarının aşağı səviyyəsi hər zaman narahatlıq yarada bilər.Təcrübə göstərir ki, autizm sindromlu uşaqlara yanaşmada səbr, sevgi və qayğıkeşliyin böyük köməyi olur.

Valideynlər autizmli övladlarına yardım edə biləcək texnologiyalar barədə məlumatlandırılmalıdırlar. Bu, autizm sindromlu uşaqlara ehtiyac və istəklərini dilə gətirmələrində kömək edə bilər.

Valideyn öz uşağının təlim qabiliyyətləri və ehtiyaclarını nəzərdə tutan təhsil proqramlarının işlənib hazırlanması üçün mütəxəssislər və müəllimlərlə əməkdaşlıq etməlidir. Bu proqramlar, lazım gəldikdə, müvafiq xidmətlərin və əlavə yardımın göstərilməsi, yardımçı texnologiyaların müsbət davranışlara dəstək olmasını təmin edir.

Valideynlər səbrli, nikbin, dözümlü olmalıdırlar. Bütün uşaqlar kimi, autizm sindromlu uşaqların da qarşısında öyrənmək və inkişaf etmək məqsədi olur. Bunun üçün aşağıdakı qaydalara riayət olunmalıdır:

- Əgər valideyn öz uşağında autizm sindromunun əlamətlərini müşahidə edirsə, vaxt itirmədən psixoloqa müraciət etməlidir. İlkin, düzgün və vaxtında qoyulmuş diaqnoz çox əhəmiyyətlidir. Valideynin uşağın davranışını müşahidə etməsi, problemləri erkən fərqləndirə bilməsi çox əhəmiyyətlidir. Əvvəl uşağın inkişaf pillələrini, oyun formalarını, yaşıdları ilə əlaqəsini, maraq dairəsini, şifahi və emosional ünsiyyətini müşahidə etməli, onun inkişafında diqqəti çəkən əsas problemləri öyrənməlidir.
- Autizm sindromlu uşaqların inkişafının ümumi qanunauyğunluğu ondan ibarətdir ki, onların təfəkkürlərinin inkişafında əks olunan bəzi psixoloji funksiyalar inkişaf edə, bəziləri isə inkişafdan qala bilər. Bəzi uşaqlar rəngləri çox böyük dəqiqliklə seçib, mürəkkəb naxışlar çəkə bildikləri halda, sadə özünəxidmət vərdişlərinin öhdəsindən gəlməkdə, böyüklərin tapşırıqlarını yerinə yetir-

məkdə çətinlik çəkirlər. Autizmli uşaqların bəziləri çətin riyazi təmrinləri yerinə yetirmə, şeir əzbərləmə kimi xüsusi qabiliyyətlərə malik olurlar.

- Autizm sindromlu uşaq da, hər bir insan kimi, şəxsiyyətdir. Buna görə də, onunla işləyərkən ümumi tövsiyələrdən istifadə etmək, uşağın özünəməxsus reaksiyalarını nəzərə almaq lazımdır. Autizmli uşaq böyüyərkən kiçik yaş dövründən aludə olduğu sahədə işləyə, peşə və sənətlərə yiyələnə bilər.
- Uşağın alışdığı bəzi qaydalara riayət etmək lazımdır.
- Uşaqla hər gün məşğul olmaq, çətin olsa da, müntəzəm məşğələlər vasitəsilə uğurlu nəticələr əldə etmək mümkündür. Gün ərzində məşğələnin vaxtını 5 dəqiqədən başlayaraq tədricən 2–3 saata qədər uzatmaq lazımdır. Belə uşaqların müxtəlif fobiyaları olur. Onlar real təhlükəni (maşın yolunu baxmadan keçmək, isti əşyalara toxunmaq və s.) görməyə bilərlər. Uşaqlara “Dayan!” sözünün nə məqsədlə deyildiyini öyrətmək lazımdır. Əgər uşaq “Dayan!” sözünün mənasını dərk etsə, bu, onu təhlükəli vəziyyətlərdən qoruyar. Bunu belə etmək olar: birdən hər hansı bir hərəkəti dayandırıb, ucadan “Dayan!” demək lazımdır. Uşaq tədricən böyüklərin ondan nə istədiklərini başa düşəçək.
- Autizmli uşaqlar, adətən, televiziya verilişlərini seyr etməyi çox xoşlayırlar. Buna məhdudiyyət qoymaq lazımdır.
- Onları normal uşaqlarla ünsiyyətdən məhrum etmək düzgün deyil. Çox yaxşı olardı ki, belə uşaqlar uşaq bağçasına getsinlər. Onlar gün ərzində 2–3 saat uşaq bağçasında ola bilərlər.
- Uşağı mənasız, stereotip hərəkətlərdən yayındırmaq lazımdır.
- Uşaqla mümkün qədər çox söhbət etmək və yadda saxlamaq lazımdır ki, autizmli uşağın digər uşaqlardan daha çox ünsiyyətə ehtiyacı var.
- Normal insanlar da bəzən tək qalmaq istəyirlər. Autizmli uşaqlar bu mənada istisna deyillər. Uşağa “gizli” güşə yaratmaq lazımdır. Bu, elə bir yer olmalıdır ki, uşaq orada öz fikirləri ilə təkbətək qala bilsin, ona heç kim mane olmasın.
- Autizmli uşaqlar da, digər uşaqlar kimi, yelləncəyi çox xoşlayırlar. Bu marağı gücləndirməklə vestibulyar aparatın inkişafına nail olmaq mümkündür.
- Uşağın ev heyvanları ilə ünsiyyətinə ehtiyatla yanaşmaq lazımdır, çünki autizmli uşaqlar heyvanlara qarşı, heç bir səbəb olmadan, aqressiya nümayiş etdirə bilərlər. Heyvanı evə gətirməzdən əvvəl uşağa onun yumşaq oyuncağını hədiyyə etmək olar.
- Uşağı müxtəlif inkişafetdirici mərkəzlərə aparmaq lazımdır. Məhz bu mərkəzlərdə valideyn öz uşağı ilə necə işləmək barəsində məlumat əldə edə bilər.
- Uşaqla onun bütün vəziyyətlərini, narahatlıqlarını birgə yaşamaq lazımdır. Bu zaman valideyn öz uşağını başa düşməyi öyrənər.
- **Valideyn** [illegible] almaq lazımdır.
- Heç bir zaman ümidini itirməmək, qalibiyyətə inanmaq, uşağı olduğu kimi qəbul etmək lazımdır. Autizmli uşaq hər hansı bir uşaqdan nə pis, nə də yaxşıdır, o, sadəcə fərqlidir. Autizmli övladı olan valideynlər heç vaxt neqativ düşünməməli, həyata nikbin yanaşmalıdırlar.

Unutmayaq ki, tarixdə iz qoymuş dahilərin əksəriyyəti (XVII əsrin ingilis fiziki, riyaziyyatçı və astronomu İsaak Nyuton, İtaliya intibah dövrünün memarı, musiqiçi, anatomist, ixtiraçı mühəndis, heykəltəraş, geometrist və rəssam Leonardo da Vinçi, hollandiyalı məşhur rəssam Vinsent Van Qoq, XIX əsrin klassik alman bəstəkarı Lüdviq van Bethoven, atom nəzəriyyəsinin banisi sayılan yəhudi əsilli alman nəzəriyyəçi fiziki Albert Eynşteyn, XX əsrin ispan əsilli rəssamı Pablo Pikasso və s.) autizmli insanlar olmuşlar.

**Ədəbiyyat**

1. Azərbaycanda Sağlamlıq İmkanları Məhdud olan Uşaqlara Təhsil Xidmətlərinin Göstərilməsi Haqqında Tədqiqat. Müasir Təhsilə və Tədrisə Yardım Mərkəzi. 2009.
2. İsmayılova Leyla və b. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar: Yanaşmaların, siyasətlərin və təcrübənin təkmilləşdirilməsi. Qiymətləndirmə hesabatı. 2005.
3. Children with Disabilities – Inclusive Education Project. Second Year Evaluation Report. Eyyub Hajiyev. 2006,
4. Inclusive Education Initiative in Azerbaijan: Project Evaluation. Final Report, Jim Lesco, 2007, Classroom Observations, Teachers' Interviews and Interviews with Kindergarten Directors.
5. Education for Some more than Others? A Regional Study on Education in Central and Eastern Europe and the Commonwealth of Independent States (CEE/CIS), YUNİCEF, 2007.

.

**Проблемы, с которыми сталкиваются родители детей младшего школьного возраста с синдромом аутизма**

**резюме**

В статье рассказывается о проблемах , с которыми сталкиваются родители детей младшего школьного возраста с синдромом аутизма. Отмечается, что родители должны помнить, что дети с аутизмом, медленные дети. не нужно ждать изменений, которые покажут себя в ближайшее время. Первые результаты может получаться через несколько месяцев, даже через год.

Так же отмечается, что социальная адаптация детей с особыми потребностями, их интеграция в общество, закрепление навыков самообслуживания, а также обучения их родителей, должно быть в центре внимания педагогов и психологов.

**Problems faced by parents of children in primary school age with autism syndrome**

**summary**

The article describes the problems faced by parents of children of primary school age with autism syndrome. It is noted that parents should remember that children with autism, slow children. Do not wait for changes that will show themselves soon.

The first results can be obtained in a few months, even after a year.It is also noted that the social adaptation of children with special needs, their integration into society, the maintenance of self-service skills, as well as the education of their parents, should be the focus of educators and psychologists.

***BİR ELMİ ÖYRƏNMƏK İSTƏDİKDƏ SƏN,***

***ÇALIŞ Kİ, HƏR ŞEYİ KAMİL BİLƏSƏN.***

***KAMİL BİR PALANÇI OLSA DA İNSAN,***

***YAXŞIDIR YARIMÇIQ PAPAQÇILIQDAN.***

**NİZAMİ GƏNCƏVİ**

# ŞAGİRDLƏRDƏ VƏTƏNƏ MƏHƏBBƏT HİSSİNİN TƏRBİYƏSİ

**Sevil Abdinova,**
ARTİ-nin doktorantı,
sevil/_1978@mail.ru



**açar sözlər:** pedaqoji tərbiyə işi, ibtidai sinif şagirdi, müəllim, Vətənə məhəbbət, milli qəhrəmanlar, sinifdənxaric və məktəbdənkənar tədbirlər, təqlid, inşa;
**ключевые слова:** педагогическая воспитательная работа, учащийся начальных классов, учитель, любовь к Родине, национальный герой, внешкольные и внеклассные мероприятия, имитация, сочинение;
**key words:** pedagogical educational work, primary school pupil, teacher, love for the Motherland, national heroes, extracurricular events, imitation, essay.

İnsanın şəxsiyyəti və xarakterinin formalaşmasında, inkişafında onunla məqsədyönlü şəkildə aparılan tərbiyə işi də həlledici rol oynayır.

Aparılmış müşahidələr, pedaqoji eksperimentlər, təcrübi və nəzəri təhlillər əsasında müəyyənləşdirilmiş nəticələrə istinadən cəmiyyətin tarixi inkişafı prosesində formalaşmış meyarlar baxımından bütövlükdə tərbiyə anlayışını əqli, mənəvi, əmək, fiziki, mülki, vətənpərvərlik, etik, estetik və s. növlərə ayırmaq olar. Sözsüz ki, insanın müxtəlif yaş dövrlərində tərbiyənin hər növünün payı olsa da, həmin dövrə uyğun konkret normalar mövcuddur. Digər tərəfdən, hər hansı bir insanın (və ya kollektivin) tərbiyə olunması prosesində onun mövqeyi, inkişaf istiqamətləri, həmin şəxsin məskunlaşdığı bölgənin təbiəti, adət-ənənələri və s. amillər də müəyyən rol oynayır. Uzun illərin təcrübəsi göstərir ki, tərbiyə prosesində bu amillərin təsirini nəzərə almaq lazımdır.

Bununla belə, istənilən halda tərbiyənin məqsədyönlü və səmərəli şəkildə həyata keçirilməsini yalnız bu istiqamətdə aparılan, etibarlı elmi-metodik prinsiplərə əsaslanmaqla təşkil olunmuş pedaqoji fəaliyyət vasitəsilə təmin etmək mümkündür.

Ürəyində Vətən məhəbbəti digər hisslərdən daha güclü olan insan, əsl vətənpərvər, tərbiyə etmək təhsil sisteminin ən mühüm vəzifələrindəndir. Bu prosesdə ibtidai sinif müəllimləri tərəfindən həyata keçirilən tərbiyə işi daha böyük və həlledici əhəmiyyətə malikdir. İbtidai sinif şagirdləri ilə aparılan vətənpərvərlik, əsl vətəndaşlıq hisslərinin tərbiyəsi işinin başlıca məqsədi uşaqlarda vətənin füsunkar təbiətinə, milli incəsənət və ədəbiyyatına, görkəmli elm, təhsil və ictimai xadimlərinə olan sevgi deyil, həm də onun dövlətçiliyinə, ərazi bütövlüyünə, maddi və mənəvi sərvətlərinə,xalqına, tarixi şəxsiyyətlərinə hörmət və iftixar hisslərini birləşdirən pozitiv keyfiyyətlərin formalaşdırılması olmalıdır.

Kiçikyaşlı ibtidai sinif şagirdlərində vətənpərvərlik hisslərinin şəxsi keyfiyyət kimi formalaşması ətraf mühitin, ictimaiyyətin obyektiv təsiri ilə yanaşı, həm də uşağın təhsil aldığı sistemin əhatə etdiyi ictimai qurumların subyektiv təsirinin səviyyəsindən, pedaqoq və valideynlərdən asılıdır. Bununla belə, həmin prosesdə məktəbin, ailənin və ictimai təşkilatların azyaşlının tərbiyəsinə təsirinə daha diqqətlə yanaşmaq lazımdır. Belə ki, ibtidai sinif şagirdlərində vətənə məhəbbət hissi tərbiyəsinin məzmunu onların müəllimlərinin, valideynlərinin, müxtəlif peşə sahiblərinin pozitiv fəaliyyətlərinə, qəhrəmanlıq sayılan əməllərə məhəbbət hissi formalaşdırmaq sahəsindəki işlərin nəticəsindən asılı olur. Hər bir ibtidai sinif şagirdi məktəbdə ona dərs deyən pedaqoqların nəzarətində olmaqla yanaşı, dərsdən sonrakı vaxtlarını ailədə, ictimai təşkilatlarda keçirir. Bu, şəxsiyyətin formalaşmasına təsir göstərir.

Vətənə məhəbbət hissi şəxsi keyfiyyət kimi, ilk növbədə, hər bir şəxsin doğulduğu torpağa sadiqliyi ilə təsdiq olunur, daha geniş mənada vətənə aid edilir.Vətənə məhəbbət onu təcavüzlərdən, düşmən hücumlarından və bədxahların əməllərindən hifz etmək, suverenliyi, müstəqilliyi uğrunda əzmlə mübarizə aparmaq, milli-mənəvi sərvətlərini var gücü ilə qorumaqda özünü göstərir. Vətənə məhəbbətin əsasında insanın öz vətəninə, torpağına, xalqına, təbiətinə, maddi və mənəvi sərvətlərinə, nüfuzuna, şərəfinə olan sevgisi durur.

İbtidai sinif şagirdlərində vətənə məhəbbət hissinin, tərbiyəsi tədris və dərsdənkənar vaxtlarda, müxtəlif fəaliyyət formaları və metodları ilə həyata keçirilir. Müəllimlik fəaliyyəti dövründə apardığım çoxsaylı müşahidələr, eksperimentlər sayəsində belə qənaətə gəlmişəm ki, ibtidai sinif şagirdlərində vətənə məhəbbət hissinin tərbiyəsində dövlət rəmzlərinin (gerb, bayraq, himn), xalq ənənələrinin, elm, təhsil, mədəniyyət, incəsənət və əmək adamlarının nailiyyətlərinin, xalqın azadlığı, müstəqilliyi, sərhədlərin toxunulmazlığı, bütövlüyü uğrunda mübarizə apararaq şəhid olan milli qəhrəmanların həyatının öyrənilməsi mühüm əhəmiyyətə malikdir.

Yuxarıda sadalanan mənəvi keyfiyyətlərə malik insan tərbiyə etmək məqsədi ilə müxtəlif yollardan istifadə edərək çatmaq mümkündür. İbtidai sinif şagirdlərində vətənə məhəbbət hissinin tərbiyə edilməsində humanitar fənlər daha böyük imkanlara malikdir. Belə ki, doğma diyarın təbiətini, onun tarixi keçmişini öyrənmək uşaqda qürur hissi ilə yanaşı, həm də vətənə məhəbbət hissini inkişaf etdirir.

Uşaqlarda vətənə məhəbbət hissinin tərbiyə olunmasında ölkənin elm, texnika, mədəniyyət sahəsindəki nailiyyətləri barədə təsəvvürlərin yaradılması da həlledici əhəmiyyətə malikdir. Bu məqsədlə onlara görkəmli alim, yazıçı, rəssam, konstruktor, aktyor, müğənni və b. həmvətənlərimizin nailiyyətləri barədə məlumat vermək lazımdır. Təəssüflə qeyd etmək lazımdır ki, mövcud ibtidai sinif dərsliklərində bu problem öz əksini lazımınca tapmayıb. Şagirdlərə həmin mövzulara dair bədii ədəbiyyat oxumaq, dərsdən kənar vaxtlarda onlarla söhbət aparmaq, sərbəst mövzularda esse yazdırmaq və s. metodlardan istifadə etmək lazımdır. Pedaqoq gözlənilən nəticənin alınacağına əminlik yaradan, elmi müddəalarla əsaslandırılmış pedaqoji tərbiyə prinsipləri və metodlarına yiyələnməlidir. Bu məqsədlə, o, tərbiyə etmək istədiyi şagirdlərlə qarşılıqlı ünsiyyət yaratmağı bacarmalıdır. Tərbiyə prosesini təşkil edən pedaqoq nəzərə almalıdır ki, planlaşdırdığı tərbiyə işinin həyata keçirilməsi prosesində şagirdlərlə qarşılıqlı əlaqə yaratmalıdır. Elə ssenari qurmalıdır ki, şagirdlər də təşəbbüs göstərməyə sövq edilsinlər.

Mən, yeri gəldikcə, XX əsrin 80–90-cı illərində Azərbaycanın dövlət müstəqilliyinin bərpası, vətənimizin tarixi və ayrılmaz hissəsi olan Dağlıq Qarabağ ərazisinin düşmənlərdən azad edilməsi uğrunda şəhid olmuş, hazırda cəbhədə işğalçılara sinə gərən qəhrəman Azərbaycan oğulları barədə ədəbi əsərlərdə, bədii və sənədli filmlərdə, kütləvi informasiya vasitələrində şərh olunan məlumatları şagirdlərə nümayiş etdirməklə yanaşı, həm də müxtəlif mənbələrdən topladığım məlumatları onlara çatdırıram. Vaxtaşırı şagirdlərə milli qəhrəmanlarımızın, vətənimizin mərd oğullarının 1990-cı ilin qanlı 20 Yanvar gecəsində Bakıda və respublikamızın digər ərazilərində göstərdikləri şücaətlər barədə sərbəst mövzuda inşalar yazdırıram. Bu yazılardan sonra şagirdlər öz daxili aləmlərində obrazlarını yaratdıqları milli qəhrəmanlarımıza bənzəmək, gələcəkdə onları təqlid etmək arzusu ilə yaşayırlar. Şagirdlərdə, xüsusilə oğlanlarda mətinlik, cəsurluq hissləri yaranır.

Əsl vətəndaşlıq, vətənpərvərlik hisslərinin formalaşmasında ibtidai siniflərdən başlayaraq aparılan planlı tərbiyə prosesinin əhəmiyyəti və rolu kifayət qədər böyük olduğu kimi, həyata keçirilməsi metodları da çox rəngarəngdir. Bu istiqamətdə nə qədər fəaliyyət göstərilsə də, demək olar ki, onun imkanları tam aşkar edilməyib. Bu səbəbdən də ibtidai sinif şagirdlərində vətənə məhəbbət hissinin tərbiyəsi istiqamətində daim axtarışlar, təhlillər, eksperimentlər aparılmalıdır. Bu məqsədlə bədii əsərlərin oxunmasından, söhbət və disputların keçirilməsindən, inşaların yazdırılmasından, sərgilərin, kütləvi tədbirlərin təşkilindən, milli qəhrəmanlarla bağlı olan abidə, muzey, meydan, digər yerlərə ekskursiyaların təşkilindən, radio, televiziya verilişlərindən lazımınca bəhrələnmək olar.

**Ədəbiyyat**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: "Bakı çap evi", 2012.
2. İsmayılov R., Orucov G., Zahid X., Cəfərova D. "Azərbaycan dili" (I–IV siniflər üçün dərsliklər). Bakı: "Altun kitab", MMC, 2016.
3. Qasımova L.N. Məktəblinin milli-mənəvi dəyərlər əsasında tərbiyə edilməsi. Bakı: BDU-nun nəşriyyatı, 2003.
4. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Bakı: BDU-nun nəşriyyatı, 2012.
5. Abdinova S.Ə. Şagirdlərin milli qəhrəmanlara məhəbbət ruhunda tərbiyəsi təcrübəsindən. "Məktəbəqədər və ibtidai təhsil", 2015, № 2.
6. Abdinova S.Ə. İbtidai sinif şagirdlərinin Vətənə məhəbbət ruhunda tərbiyəsinə dair. Naxçıvan Müəllimlər İnstitutunun Xəbərləri, 2015, № 4
7. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.


**Обучение у учащихся чувства любви к Родине**


**резюме**

В статье рассказывается о воспитании чувства любви к родине у учащихся начальных классов и о некоторых аспектах проведения педагогической работы по формированию этого положительного личного качества, о методах, которые могут быть использованы для реализации этого процесса.

Отмечается, что для этой цели важно передать учащим характер национальных героев и суть их подвигов. Хороший эффект может дать прочтение различных художественных произведений, проведение бесед, диспутов и дискуссий с ними, написать сочинения на эти темы.


**Education students a sense of love of country**


**summary**

This article is talking about some methods and ways of pedagogical work and its implementation in order to educate the feeling of love for the Motherland and formulate this personal quality in primary school pupils.

It is shown that, in this case it is useful to show pupils national heroes' character, the main aim of their heroism and national heroes should be set an example. For this purpose, the pupils should be taught to read various fiction books, to hold debates, disputes and discussions, and also to write essay.


# *AZƏRBAYCAN MİLLİ ORDUSU*

İyun ayının 26-sı Azərbaycanda Silahlı Qüvvələr günüdür. Azərbaycanda ordu quruculuğu prosesi çox çətin və mürəkkəb mərhələlərdən keçib. Həm Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı və mövcud olduğu 1918–1920-ci illərdə, həm də müstəqilliyimizin yenidən bərpa edildiyi 1991-ci ildən sonra ordu quruculuğu istiqamətində saysız-hesabsız maneələr dəf edilib.

Bu gün Azərbaycan Silahlı Qüvvələrində nizam-intizam, peşəkarlıq yüksək səviyyədədir. İndi Quru Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Hərbi Hava Qüvvələrindən ibarət döyüş qabiliyyətli Milli Ordumuz var.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyinə görə, son 7 il ərzində Azərbaycanın hərbi xərcləri 13 dəfədən çox artıb. Azərbaycanda 2010-cu ilin hərbi xərcləri 2 milyard 150 milyon dollara bərabər olmuşdur. Bu, Ermənistanın bütün dövlət büdcəsindən çoxdur.

Son illər Azərbaycanda hərbi təyinatlı məhsullar istehsal olunur. Hazırda Azərbaycanda 21 hərbi müəssisə, hərbi zavod fəaliyyət göstərir. Bu müəssisələrdə 30 istehsal sahəsi yaradılıb.

Silahlı Qüvvələrin peşəkar zabit kadrları Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Ali Hərbi Dənizçilik Məktəbi və Ali Hərbi Təyyarəçilik Məktəbində hazırlanır. Ali Baş Komandanın əmri ilə ildə 4 dəfə yaşı 18-dən 35-dək olan vətəndaşlar hərbi xidmətə çağırılırlar. 1997-ci ildən etibarən Silahlı Qüvvələrdə NATO standartlarına uyğun islahatlar həyata keçirilməyə başlanıb. Hazırda Azərbaycan hərbçiləri Kosovoda, Əfqanıstanda və İraqda antiterror əməliyyatlarında sülhməramlı qüvvələrin tərkibində iştirak edirlər.

Türkiyə, ABŞ, Böyük Britaniya, Almaniya, Ukrayna, Gürcüstan, Polşa, Rumıniya, Litva, Latviya, Bolqarıstan, Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Belarus, Pakistan, İran və digər ölkələrlə hərbi sahədə münasibətlərə dair müxtəlif sənədlər imzalanıb.


**Məhəbbət Əliyeva**

# ƏYLƏNCƏLİ–DİDAKTİK OYUNLAR

**Nigar İsayeva,**
ADPU-nun magistrantı



**açar sözlər:** didaktika, əyləncəli oyunlar, maraq, təfəkkür, nitq inkişafı, axtarış, tapıntı, inkişaf;
**ключевые слова:** развлекательные игры, дидактика, интерес, мышление, развитие речи, поиск, находка, развитие;
**key words:** didactics, entertaining games, interest, thinking, development of speech, search, find, development.

Şagirdlərin nitq və təfəkkürünün formalaşmasında əyləncəli-didaktik oyunların mühüm rolu vardır. Şagirdlər bu oyunlar vasitəsilə dil qaydalarına dair bilik və bacarıqları mənimsəyirlər. Oyunlar həm şagirdin gümrah böyüməsində, həm də zehni inkişafında, biliyin hərtərəfli mənimsənilməsində mühüm rol oynayır. Çalışmanın məzmunu estetik tələblərə cavab verdikdə şagirdi daha da maraqlandırır və əyləndirir. Bununla əlaqədar şagirdə məlum olmayan və ya çətin mənimsənilən mövzuları yeni məzmunda izah etmək problemi meydana çıxır. Deməli, əyləncəli çalışmalar zehni fəaliyyətin elə təzahür formasıdır ki, onun tələbi ilə hiss üzvləri, təfəkkürün tərkib hissələri fəal işlə məşğul olur və bir-birini şərtləndirir. Əyləncəli-qrammatik çalışmalar təfəkkürlə bağlı olduğundan didaktik oyunların əksəriyyəti təfəkkür prosesinin fəaliyyətini sürətləndirir. Hazırcavablıq keyfiyyəti məhz idrak fəaliyyəti ilə əlaqədardır.Əyləncəli-qrammatik çalışmalarda uşağı maraqlandıran, onun zehni fəallığına təsir edən şəkillər, sxemlər, cədvəllər, müəyyən məqsəd daşıyan tapmacalar, atalar sözləri, əyləndirici suallar və s. öz əksini tapır.

**Əyləncəli-qrammatik oyunlar** qrammatik tapşırıqlardan hansı cəhətlərinə görə fərqlənir?

- Əyləncəli-qrammatik oyunlar müəyyən mövzu ilə əlaqədar olub, təkrarlayıcı xarakter daşıyır. Belə oyunlardan yalnız sinifdə deyil, sinifdənxaric məşğələlərdə də istifadə olunur.
- Əyləncəli-qrammatik oyunların tərkibi qeyri-sabitdir. Mövzunun məzmunundan asılı olaraq, çalışma üçün şagirdləri maraqlandıran və əyləndirən tələblər seçilir.
- Əyləncəli-qrammatik oyunlarda məzmuna uyğun illüstrasiyalardan istifadə etmək olar.
- Əyləncəli-qrammatik oyunlar, əsasən qruplar arasında aparılır, yarış xarakteri daşıyır.
- Əyləncəli-qrammatik oyunlarda bəzən linqvistik mövzular da öz əksini tapır. Şagirdlər bu oyunlarda dilin bu və ya digər sahəsinə dair maraqlı nümunələrə rast gəlirlər.

Əyləncəli-qrammatik oyunların mühüm psixoloji əhəmiyyəti var. Oyuna maraq göstərən uşaq öz fəaliyyəti müddətində həyatın müxtəlif hadisələrinə münasibətdə həssaslıq nümayiş etdirir, ondan müəyyən şərti məqsədlər üçün istifadə edir. Belə oyunlar ən çox uşağı əhatə edən mühitin yaratdığı təəssüratlardan doğur.

Müşahidə olunan həyat hadisələri uşağın hafizəsində getdikcə daha çox iz buraxır. Uşaq əvvəllər ona qaranlıq qalan hadisələr haqqında fikir yürüdür, əşyanın xarici əlamətləri və keyfiyyətlərini söyləməkdə çətinlik çəkmir. Təlim prosesində də vəziyyət bu şəkildə cərəyan edir. Şagirdlər ayrı-ayrı faktlardan ümumi nəticə çıxarmaq (induktiv metod) və onu təcrübədə tətbiq edib (deduktiv metod), yoxlamaq kimi metodlardan istifadə edirlər. Şübhəsiz, bu proses özbaşına getmir, müəyyən müşahidələrə əsaslanır. Müşahidələrdən nəticə çıxarmaq, hökm vermək təfəkkür prosesinin tərkib hissəsidir. Şagird qrammatik qaydaya dair ayrı-ayrı əlamətləri sadalamaq üçün mənimsənilmiş biliklərə istinad edir. Əgər şagird çalışmanın icrasında faktları qrammatik qaydalarla düzgün əlaqələndirirsə, deməli, o, varlığın ümumi inikası sayılan təfəkkürdən bacarıqla istifadə edə bilir.

Təfəkkürün təcrübə ilə əlaqəsində duyğu, qavrayış və təsəvvürlərin köməyi ilə əqli nəticələrə gəlmək mümkündür. Şagird ilk dəfə qarşılaşdığı məfhumun mahiyyətini açmaq üçün duyğu və təsəvvürlərinə istinad edir, həm duyğular, həm də qavrayış vasitəsilə qrammatik qaydaların xüsusiy-

yətlərini başa düşür, onlar haqqında müəyyən biliklərə yiyələnir. "Pilləkən" adlı leksik oyun-çalışmada şagirdlər ilk anda pilləkən sxemini görürlər. Bu prosesdə hələlik onların duyğuları işləyir, təsəvvürləri isə qeyri-fəaldır, lakin müəllimin qoyduğu tələblər şagirdlərin təsəvvürlərini canlandırır. Şagird pilləkənin xanalarına elə sözlər yazmalıdır ki, həm ondakı hərflərin sayı xanalara uyğun gəlsin, həm də eyni söz müxtəlif mənalarda işlənsin.

1. ət yeyən quşlardan birinin adı;
2. Azərbaycanın ən qədim şəhərinin adı;
3. səhnə əsəri;
4. Azərbaycanın tarixi qəhrəmanlarından birinin adı.

Çalışma üzərində aparılan belə əməliyyat təfəkkürü fəallaşdırır, lakin bu, hələ onun tam fəaliyyəti deyil. Təfəkkür o zaman tam fəaliyyət göstərir ki, şagird qavradığı əşyaların, yaxud qrammatik kateqoriyaların qarşılıqlı münasibətlərini, fərqli cəhətlərini müqayisə edərək ümumiləşdirib, sistem halına salır. Deməli, yuxarıdakı oyun-çalışmada müvafiq tələblərə uyğun şəkildə xanaları doldurmaq təfəkkür prosesinin bir qismini, xanalardakı sözlərin qrammatik təhlili isə təcrübə ilə nəzəriyyəni əlaqələndirir.

Əyləncəli oyunların əsas xüsusiyyətlərindən biri qrammatik suallar üzərində düşünməkdir. Bu məqsədlə "Kim çəlddir?", "Kim tez və düzgün tapar?" silsiləsindən olan əyləncəli oyunlar müəyyən əqli əməliyyatlar aparılmasını tələb edir. Suala cavab vermək isə şagirddən axtarış aparmağı, məlum biliklər içərisindən cavabı seçməyi, onun şərhini tələb edir. Deməli, sual vasitəsilə yalnız şagirdin cavabını deyil, eyni zamanda onun bilik səviyyəsini öyrənmək olar. İstər sual, istərsə də onun cavabı şagirdin idrakını inkişaf etdirir. Şagird zehni fəalliyyətində həm sualın qoyuluşunu, həm də cavabın düzgün olub-olmadığını təhlil edir, təfəkkür amillərinin təsiri ilə nəticə çıxarır. Beləliklə, şagirdlərin yaradıcı təxəyyülü inkişaf edir.

"Sifət" bəhsi ilə əlaqədar "Düşün, söylə" adlı oyun-çalışma bu cəhətdən çox maraqlıdır. Şagirdlər 2–3 dəqiqə ərzində tərkibində sifət olan tapmaca və ya atalar sözü söyləməli və həmin sifətin qrammatik xüsusiyyətlərini izah etməlidirlər. Bu prosesdə onlar diqqətini həm keçilən materialın qrammatik əlamətinə, həm əlamətin praktik təzahür formalarına, həm də fəaliyyətin sürətinə cəlb etməlidirlər. Əgər şagirdlərin yaddaşı möhkəmdirsə, şübhəsiz, onların təxəyyülü daha məqsədəuyğun fəaliyyət göstərəcəkdir.

Əyləncəli qrammatika yaradıcılıq xüsusiyyətlərinə daha çox malik olduğu üçün şagirdlərin təxəyyülünün inkişafına yol açır. Xüsusilə şagirdlər tərəfindən hazırlanan əyləncəli çalışmalar ("Qrammatik yarışma","Axtar, tap","Sual-cavab"və s.) təxəyyülün bütün fəaliyyət sahələrində onun inkişafına kömək göstərir.

"Axtar, tap" oyun-çalışmasında bayatılardan omonimləri seçmək tələb olunur. Şagirdlərdən biri işçi vərəqində verilən bayatını oxuyur, digərləri formaca oxşar sözləri yazır və onların leksik mənasını izah edirlər. Əlbəttə, bütün şagirdlər eyni səviyyədə fəaliyyət göstərmirlər. Təhlil zamanı meydana çıxan bu hal ayrı-ayrı şagirdlərin anlama səviyyələri ilə əlaqədardır. Belə çalışmalar düzgün yerinə yetirilərsə, həmin səviyyəni daha da dərinləşdirmək mümkündür.

Əyləncəli qrammatik oyunların mahiyyətini başa düşmək üçün təkcə tələbləri bilmək azdır, onları doğuran səbəblərə də bələd olmaq lazımdır. Ona görə də biliklərə yiyələnmək bütövlükdə qavrama prosesinin şüurlu surətdə dərinləşdirilməsidir. Belə olduqda şagird qarşılaşdığı hər hansı qrammatik kateqoriyanı təhlil-tərkib edir, oxşar qaydaları müqayisə yolu ilə fərqləndirir və ümumiləşdirmələr aparır.

"Kim cəlddir?" oyun-çalışmasında şagird 3 dəqiqə ərzində ona qədər feldən sifət düzəltməlidir. Şagird fellərdən düzələn sifətlərlə feli sifətləri fərqləndirməyi bacarırsa, müvafiq tələbi yerinə yetirməkdə çətinlik çəkmirsə, deməli, bilikləri dərindən mənimsəmişdir. Bütün bunlar qabaqcıl müəllimdən səy tələb edir.

Əgər müəllim idrak prosesinin yüksək dərəcədə inkişafına nail olarsa, şagirdlərdə çeviklik, hazırcavablıq, diqqətlilik kimi keyfiyyətlər tərbiyələndirmiş olar. O zaman şagird çətinlik çəkmədən

mühakimə yürütməyi bacarar, müşahidə etdiyi oxşar və fərqli cəhətləri müəyyənləşdirər, lazımi ümumiləşdirmələr aparıb, düzgün nəticələr çıxara bilər.

**Süjetli-qrammatik oyunlar nədir?** Bu oyunlarda qrammatik qaydanın öyrədilməsi müəyyən süjet üzərində qurulur və müvafiq əşyalar vasitəsilə həyata keçirilir. Şagird qrammatik qaydadan aldığı bilikləri şəkillər vasitəsilə ifadə edir. Belə çalışmanın yerinə prosesində şagirdlər hansı ardıcıllığı gözləmək, nəyi aydınlaşdırmaq və konkret tələblərin nədən ibarət olması barədə müəllimdən məlumat almaq haqqında düşünürlər.

Müəllim yazı taxtasından ağac şəkli asıb deyir:

– Bu, sehrli ağacdır. Onun çoxlu budaqları var. Hər budaq xanalardan ibarətdir. Xanaların sayına uyğun mürəkkəb isimlər seçilib yazılmalıdır. İsimlər təxminən aşağıdakı mənaları bildirməlidir: ət yeyən quşlardan birinin adı; xörək adı; oxuyan quş; şəhər adı; əsər adı; tərkibində *şah* sözü olan mürəkkəb ad; heyvan adı; dəniz adı; bir-birinə yaxın və əks mənalı 5 mürəkkəb ad.

Süjetli-qrammatik oyunların məqsədi, izahı aydın olmalı, şəkildə bədiilik gözlənilməli, oyun 5–7 dəqiqə ərzində keçirilməlidir.

**Qrammatik əyləncələr haqqında nə bilirik?** İstər qaydalı, istərsə də süjetli qrammatik oyunlarla qrammatik əyləncələr arasında o qədər də fərq yoxdur. Hər üç oyun növü idrakın inkişafına xidmət edir və müəyyən qaydalara əsaslanır. Qrammatik əyləncələrin bəzi özünəməxsus xüsusiyyətləri var.

Əvvəla, qrammatik əyləncələrdə şagirdlərin əqli və fiziki hazırlığı nəzərə alınır. Bu oyunların icrasında əqli fəaliyyətlə yanaşı, fiziki hərəkətlər də icra olunur.

İkinci, qrammatik əyləncələrdən ən çox sinifdənxaric məşğələlərdə istifadə edilir, çünki belə oyunların icrası üçün vaxt məhdudiyyəti qoyulmur. Bu oyunda iştirak edən şagirdlərin sayı da konkret deyil. Müəllim oyunu əvvəlcədən hazırlamalı və qoyulan tələbləri aydınlaşdırmalıdır.

Qrammatik əyləncələr, əsasən, aşağıdakılardan ibarətdir:

- krossvord və çaynvordlar;
- rebuslar;
- riyazi-qrammatik əyləncələr;
- loqoqrafik əyləncələr;
- evfemizmlər;
- viktorinalar.

“Nəzakəli ol!”oyunu zamanı şagirdlər kobud sözləri, müxtəlif şərait və məqamlardan asılı olaraq, zərif, incə sözlərlə əvəz etməli, məfhumu öz adı ilə deyil, ona yaxın olan nəzakətli sözlərlə ifadə etməlidirlər. Aparıcı hər qrupdan üç nəfərə kobud sözlər yazılmış işçi vərəqləri paylayır:

- *çolaq, dəli, kəllə, kütbaş, axsaq;*
- *alçaq, sarsaq, gəbərmək, nadan, səfeh;*
- *zırpı, cahil, gicbəsər, naqqal, yekəbaş.*

Uşaqlara 3 dəqiqə vaxt verilir. Qaliblər üçün 2 xal nəzərdə tutulur. Əgər tapşırıq düzgün yerinə yetirilmişsə, digər qrupun oyunçuları oyuna başlayırlar.

“Nəzakətli ol!” oyununda aşağıdakı çalışmalardan istifadə etmək olar.

**Çalışma:** Aşağıdakı mətndən daha incə şəkildə işlənə biləcək sözləri seçin və onlara yaxınmənalı zözlər söyləyin.

1. İgiddə olar namus, ar,
Dar gündə görər gücü kar.
Koroğlu, dəlilər, Nigar,
Yığılar dövran başına.

2. Mərd igidlər nərə çəksin davada,
Şahin kimi şikar tutsun yuvada.
Misri qılınc cövlan vursun havada,
Bağırsaq cəmdəyə dolanmaq gərək.

Göründüyü kimi, təlim zamanı didaktik oyunlardan istifadə edərkən şagirdlərdə təlimə maraq oyanır. Bu vaxt müəllim-şagird əməkdaşlığı da güclənir və inkişaf edir.

**Ədəbiyyat**

1. Əyləncəli-qrammatik oyunlar. (metodik vəsait) Bakı : ADPU-nun nəşriyyatı, 2008.
2. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: "Adiloğlu", 2006.
3. Həsənov M., Bəhmənova C. İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri-praktik məsələləri. Bakı: ADPU-nun nəşriyyatı, 2009.
4. Rzayeva Z. İbtidai siniflərdə didaktik oyunlar. Bakı , "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 2004, №2.

**Дидактические-развлекательные игры**
**резюме**

В статье рассказывается о том, что развлекательные игры имеют свои дидактические и психологические основы. В дидактике они считаются вспомогательными ресурсами и требуют особый подход и применение. Так же отмечается, что применение дидактических-развлекательных игр активизирует внимание и интерес детей.

**Didactic-entertaining games**
**summary**

The article tells that entertainment games have their own didactic and psychological foundations. In didactics, they are considered ancillary resources and require a special approach and application. It is also noted that the use of didactic-entertaining games activates the attention and interest of children.

# NƏSİRƏDDİN TUSİNİN ƏSƏRLƏRİNDƏ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

**Səbinə Hacızadə,**
Bakı Mühəndislik Universitetinin magistrantı,
shajizadeh@tsii.edu.az



**açar sözlər:** ensiklopedik zəka, mütəfəkkir, elm, əxlaq, tərbiyə, hikmət, şagird, əməl, ruh, mənəviyyat;
**ключевые слова:** энциклопедический ум, мыслитель, наука, нравственность, порядочность, мудрость, ученик, дело, дух, духовность;
**key words:** encyclopedic mind, thinker, science, morality, decency, wisdom, disciple, business, spirit, spirituality.

XIII əsrdə yaşayıb-yaratmış dahi Azərbaycan alimi Nəsirəddin Tusi öz çoxsahəli yaradıcılığı, ensiklopedik zəkası, təkzibedilməz mütəfəkkirlik nüfuzu ilə təkcə Şərq elminə deyil, ümumdünya təfəkkür tarixinə də təsir edə biləcək böyük bir yol keçmişdir. Əsərlərinin orijinallığı, dərin elmiliyi ilə seçilən Nəsirəddin Tusinin kitabları dünyanın məşhur kitabxanalarında qorunub saxlanılır.

Onun haqqında ilk məlumatlar şagirdlərinin yaradıcılığında aşkar olunmuşdur. Sonrakı dövrlərdə məşhur tarixçilər, salnaməçilər bu dahi alim haqqında geniş araşdırmalar aparmış, onun keçdiyi həyat yolu və yaradıcılığı haqqında əsərlər yazmışlar. N.Tusinin yaradıcılığı dərin hikmətə malik olduğu üçün dəyərlidir. Onun həyatı haqqında yazılmış əsərlərdə dahi alimin hələ uşaqlıqdan elmlə maraqlanması, çalışqanlığı nəticəsində müəllim və müdərrislərin rəğbətini qazanması, bilikləri tez qavramaq qabiliyyəti ilə hər kəsi heyrətə salması qeyd edilir.

İlk təhsilini atasından alan Nəsirəddin Tusi sonralar dövrünün ən şöhrətli müəllim və müdərrisi hesab edilən, yunan fəlsəfəsi, hind hikməti, fars mədəniyyəti, Azərbaycan ədəbiyyatını dərindən bilən Fəridəddin Damadın yanında oxumağa başlamışdır. N.Tusinin dünyagörüşünün formalaşmasında Fəridəddin Damadın rolu danılmazdır. Nəsirəddin Tusinin bir alim, pedaqoq kimi yetişmə sində ilahiyyat elmlərinin, yunan fəlsəfəsinin, hind hikmətinin, fars incəsənətinin, Azərbaycan və türk elmlərinin rolu böyük olmuşdur. Alimin yaradıcılığında İbn Sina, Bəhmənyar, Gilani, Sədrəddin Sərəxli, Fəridəddin Damadın təsiri aydın görünməkdədir.

Zəngin yaradıcılığa, qeyri-adi istedada malik olan Nəsirəddin Tusinin əsərlərində elm, əxlaq, tərbiyə, hikmət, əməl, nəfs, mənəviyyat problemlərinə geniş yer verilmişdir. Alim həmin keyfiyyətləri müəllim olacaq şəxslərdə, tələbələrdə görmək istəmişdir. O, elmin mahiyyəti və fəziləti,

gənclərin elmlərə yiyələnmələrinin vacibliyi haqqında hərtərəfli və bitkin fikirlər söyləyən mütəfəkkirlərdəndir. XIII əsr Azərbaycan elmini zirvələrə qaldıran alimin fəlsəfi və ədəbi-bədii yaradıcılığında bu günün ideyaları ilə səsləşən, müasir dövrün tələblərinə tamamilə uyğun gələn qırılmaz əlaqələr vardır. Alimin əsərlərini oxuyarkən orada yer alan mütərəqqi fikirlərin mürtəce cəmiyyətdə yarandığı və uzun illər sürgün həyatı keçirmiş müəllifin düşüncələri ilə dövrünün qanunları arasında olan ziddiyyətlər qabarıq şəkildə özünü göstərir. Dahi alimin neçə əsr əvvəl irəli sürdüyü mütərəqqi fikirlər müasir dövrdə də öz aktuallığını qoruyub saxlayır. Bu zəngin irsin gənclər tərəfindən öyrənilməsi böyük əhəmiyyətə malikdir.

"Alimlər ölümlərindən sonra da yaşayırlar" fikri Tusi yaradıcılığı nümunəsində öz doğruluğunu təsdiq etmişdir. Həqiqətən də, alimin yazıb-yaratdığı əsərlər, onun fikirləri əsrlər boyu yaşayır, insanların elmə yiyələnmələrinə, müəllim kadrlarının hazırlamnasına yardımçı olur. N.Tusinin əsərlərini oxuyarkən onun mahir bir müəllim, gözəl bir tərbiyəçi olduğunu görürük. Əsərlərində insanın fitri qabiliyyət və istedadlarından, mühitin, şəraitin insana təsirindən geniş bəhs edən alim bu işdə təlim və tərbiyənin son dərəcə böyük rol oynadığını həyati misallarla sübut etmişdir. Yalnız yüksək intellektə, tərbiyəyə, qabiliyyətə, nitqə malik olan bir adamın qələmindən tərbiyə, əxlaq və pedaqogika sahəsində ölməz əsər sayılan "Əxlaqi-Nasiri" kimi fəlsəfi, tərbiyəvi əsər çıxa bilərdi. N.Tusi bu kitabı 1236-cı ildə, Kuhistan ismaililərinin başçısı Nasirin təklifi ilə yazmışdır. O, bu əsərdə, hər şeydən əvvəl, əxlaq kateqoriyalarını izah etməyə cəhd göstərmişdir. Bu əxlaq normaları bu gün də gənclərin davranışlarının, ünsiyyətlərinin, insanlara, təbiətə, cəmiyyətə münasibətlərinin tənzimlənməsinə xidmət edir. Tusiyə görə, insanın mənəvi ehtiyacları şüur və iradə vasitəsilə təmin edilir. "İnsanın xoşbəxlik və ya bədbəxtlik açarı, kamillik və ya naqislik sükanı onun ağıl və iradəsinin ixtiyarına verilmişdir. Əgər insan düzgün, ardıcıl, məqsədəuyğun hərəkət etsə, tədricən elm, mədəniyyət, bilik və hikmətlərə yiyələnsə, onun istedadı hədləri aşaraq, onu bir mərtəbədən başqa bir mərtəbəyə, bir dərəcədən başqa dərəcəyə yüksəldər, arzu elədiyi məqsədə, ali məqama çatdırar, lakin yarandığı mərtəbədə oturub qalsa, cilovu öz nəfsinin ixtiyarına versə, nəfsi onu aşağıya, heyvani mərtəbəyə sövq edər, yuxarıdan aşağıya yuvarlanan daş kimi az bir müddət ərzində onu rəzalət çirkabının ən dərin yerinə salar". [1, səh. 21]

Orta əsrlərin məşhur tarixçilərindən başlayaraq müasir dövrümüzə qədər bütün tədqiqatçılar tərəfindən N.Tusi yaradıcılığı araşdırılmış, ona yüksək dəyər verilmiş, onun görkəmli alim və filosof olması vurğulanmışdır. Mənim bu məqaləni yazmaqda əsas məqsədim isə Tusinin zəngin yaradıcılığına pedaqoji tərəfdən yanaşaraq onun tələbə mədəniyyəti haqqında söylədiyi fikirləri işıqlandırmaq, oxucuların diqqətini bu fikirlərin dərinliyinə, vacibliyinə yönəltməkdir. Düşünürəm ki, N.Tusinin gənclərin tərbiyəsi, onların hərtərəfli şəxsiyyət kimi formalaşdırılmaları istiqamətində irəli sürdüyü ideyalar müasir dövrümüzdə də aktualdır. Əgər bu ideyalar müasir təlim-tərbiyə metodları ilə birləşdirilərsə, onların ümumi cəhətləri müəyyən edilərək təcrübədə tətbiq olunarsa, təhsil sahəsində böyük uğurlar qazanmaq olar.

Dahi alimin tələbə mədəniyyəti barədə qələmə aldığı "Adabül-mütəallimin" əsərində təlim-tərbiyə ilə əlaqədar geniş mülahizələr irəli sürülmüşdür. Alim bu əsərdə təlim prosesinin bütün məqamlarına (dərsin başlanması, təşkili və həcmi) toxunmuşdur. Alimin fikrinə görə, dərsin cümə axşamı günü başlanması məqsədəuyğundur. Dərsin həcmi tələbə üçün ağır olmamalı, mövzunu yaxşı mənimsəməsi üçün müəllim izaha onun bildiyi hadisələrlə başlamalıdır. Əyani göstərilə bilən əşyalar tələbənin diqqətinə təqdim edilməlidir. Müəllim tələbələr üçün daha yaxşı başa düşülən və yadda qalan, kiçikhəcmli mətnlər seçməlidir. Dərs və müzakirə prosesində sual-cavab edərkən ədəb qaydaların gözləmək, yəni insaflı, diqqətli, düşüncəli olmaq, səs-küyə və əsəbiliyə yol verməmək lazımdır. Əsərdə "Bir saatlıq sual-cavab bir aylıq təkrardan yaxşıdır" fikri əsaslandırılaraq, tələbənin elmin incəliklərinə düşünərək, dərk edərək yiyələnməsinin vacibliyi haqqında mülahizələr irəli sürülür .

Bildiyiniz kimi, XXI əsr texnologiyaların sürətli inkişafı, iqtisadi münasibətlərin ön plana çəkilməsi ilə diqqəti cəlb edir. XXI əsrin insanı müasir dövrlə ayaqlaşmağa, öz maddi durumunu yaxşılaşdırmağa çalışır. Qeyd edilən problemlər təhsil sahəsinə də öz təsirini göstərir. Gənclərdə

müstəqil düşünmə və araşdırma bacarığı, yaradıcılıq, təşəbbüskarlıq kimi keyfiyyətlərin formalaşdırılması günümüzün vacib məsələlərindəndir. Düşünürük ki, bu məqsədlərə nail olmaq və mənəvi böhranın qarşısını almaq istiqamətində N.Tusinin elm, tərbiyə, təhsil, hikmət, mədəniyyət, kamil insan, əxlaq barəsində yazdığı mütərəqqi fikirlər böyük rol oynaya bilər. Bu baxımdan ölkəmizdə müasir standartlara uyğunlaşdırılan təhsil sisteminin daha da milliləşdirilməsi, dahi azərbaycanlı alim N.Tusinin pedaqoji yanaşmalarından tədris prosesində istifadə edilməsi səmərəli ola bilər. Alimin əsərlərini oxuyub araşdırdıqca, belə qənaətə gəlmək olur ki, Tusi yaradıcılığı ilə tanışlıq gənclərin həyat yoluna işıq saçacaq və onların elmli, əxlaqi-mənəvi keyfiyyətlərə malik kamil şəxsiyyətlər kimi formalaşmalarında böyük rol oynayacaqdır.

**Ədəbiyyat**


1. Tusi X. N. "Əxlaqi-Nasiri". (fars dilindən tərcümə edən, ön sözün və şərhlərin müəllifi R.Sultanov). Bakı: "Lider", 2005.
2. Tusi X. N. "Adabül-mütəəllimin" ("Tələbə mədəniyyəti"). AMEA, Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2002.
3. Rəzəvi M. Nəsirəddin Tusinin həyatı və əsərləri. (tərcümə edənlər M. Məhəmmədi və V. Mustafayev). Bakı, 2002.
4. Eyvazov F. Dahi alim və filosof. Bakı: "Elm", 1981.



**Вопросы воспитания в произведениях Насраддина Туси**

**резюме**

В статье рассказывается о вопросах воспитания в произведениях Н. Туси. Так же затрагивается отношения учителя и студента, важность приобретения научных знаний и мудростей, роль воспитания в формирование студенческой культуры и другие ключевые вопросы отражающиеся в педагогических работах выдающегося учено го, поэта и писателя Насраддина Туси.

**Issues of education in the works of Nasraddin Tusi**

**summary**

The article describes the issues of education in the works of N. Tusi. The teacher-student relationship is also affected, the importance of acquiring scientific knowledge and wisdom, the role of education in the formation of student culture and other key issues reflected in the pedagogical works of the outstanding scientist, poet and writer Nasraddin Tusi.


## ***YENİ NƏŞRLƏR***

# Akademik Hüseyn Əhmədov – 90




Görkəmli pedaqoq, akademik Hüseyn Əhmədovun 90 yaşı tamam olub. Akademik Hüseyn Əhmədov pedaqogika elminin nəzəri və praktik sahəsində çox qiymətli fikirləri ilə təhsil işçilərinin rəğbətini qazanmışdır. O, indi də tədqiqatla məşğuldur. Oxuculara təqdim olunan bu kitabçada akademik H. Əhmədovun şəxsiyyəti, yaradıcılığı, elmi-pedaqoji və ictimai fəaliyyəti haqqında müasirlərinin yazılarından seçmələr verilib.

Kitabın tərtibçiləri pedaqogika üzrə fəlsəfə doktorları Kəmalə Quliyeva, Mehriban Şirzadova, redaktoru akademik Yəhya Kərimovdur.

Rusiya Təhsil Akademiyasının həqiqi üzvü olan akademik H.Əhmədov yalnız Azərbaycanda deyil, Rusiyada, bir çox başqa ölkələrdə də tanınır. Təsadüfi deyil ki, onun Rusiya Təhsil Akademiyasının prezidenti N.D. Nikandrovla dostluğu Azərbaycanda keçirilən konfranslarda hər iki ölkədən olan alimlərin iştirakını təmin etmişdir.

Kitabçada H.Əhmədov haqqında müəllimləri, professorlar Əhməd Seyidovun, Mehdi Mehdizadənin, Mərdan Muradxanovun, müasir akademiklər, təhsil işçiləri, şair və yazıçıların ürək sözləri verilmişdir.

Bütün bunlar gənc alimlərə, tədqiqatçılara gözəl nümunə olmaqla, onların yaradıcı fəaliyyətlərinin inkişafına istiqamət verir.

**Kəklik Məmmədova**